# XƏZƏR XƏBƏR

№ 452 İyul 2025

# KHAZAR REVIEW



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# XƏZƏR UNİVERSİTETİNİN 54-CÜ MƏZUNLUQ MƏRASİMİ




*Abebe Girma Gule, Hamlet İsaxanlı, Cəmilə Ağamalıyeva*



İyulun 13-də Bakı İdman Sarayında Xəzər Universitetinin 54-cü məzunluq mərasimi keçirildi. Tədbirdə universitetin rəhbərliyi, dekanlar, departament müdirləri, müəllim və tələbələr, valideynlər, keçmiş məzunlar, qonaqlar iştirak edirdilər. Milli məclisin üzvü, Xəzər Universitetinin məzunu Ceyhun Məmmədov da tədbirin qonağı idi.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlandı.

Aparıcılar Xəzər Universitetinin yaranma və inkişaf tarixinə nəzər salaraq, hazırkı nailiyyətlərindən danışdılar. Qeyd etdilər ki, 2025-ci il iyunun 18-də dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2025-ci il üçün BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən yaxşı dünya universitetlərini müəyyənləşdirərək, açıqladığı "THE University Impact Rankings 2025" reytinq cədvəlində Xəzər Universiteti Azərbaycan üzrə yüksək göstərici ilə 401-600 aralığında qərarlaşıb. Həmin təşkilatın iyunun 19-da elan etdiyi "QS World University Rankings 2026" reytinqində isə Xəzər Universiteti dünyanın ən yaxşı 951-1000 universiteti aralığında yer almışdır.

*(Ardı səh.6-da)*



# *KHAZAR UNIVERSITY'S 54TH GRADUATION CEREMONY*

On July 13, Khazar University's 54th graduation ceremony was held at the Baku Sports Palace. The event was attended by university administration, deans, department heads, faculty and students, parents, former alumni, and guests. Jeyhun Mammadov, member of the Milli Majlis and alumnus of Khazar was also a guest of the event.

The ceremony began with the the National Anthem of the Republic of Azerbaijan.

The presenters reviewed the history of Khazar University's establishment and development, discussing its current achievements. It was noted that on June 18, 2025, Khazar University



was ranked in the 401-600 range with a high indicator for Azerbaijan in the "THE University Impact Rankings 2025" rating table published by "Times Higher Education" (THE), one of the world's most prestigious ranking organizations, which identifies leading world universities distinguished by their social and economic contributions based on the UN's "Sustainable Development Goals" for 2025. In the "QS World University Rankings 2026" announced by the same organization on June 19, Khazar University was placed among the world's best 951-1000 universities.

(*To be continued page 6*)

# İÇİNDƏKİLƏR


Xəzər Universitetinin 54-cü məzunluq mərasimi .....2
Xəzər Universitetinə təşəkkür məktubu.....8
Türkiyə nazirinin müəllim və tələbələrlə görüşü .....10
Xəzər Universitetində "Təbii Zəkadan Süni Zəkaya Doğru" seminarlar silsiləsinə başlanıldı .....12
"Birinci Dünya müharibəsində Azərbaycanda Osmanlı əsirləri (Nargin və Azərbaycan cəmiyyətinin əsirlərə yardımları)" mövzusunda beynəlxalq elmi konfrans .....14
Xəzər MAFİ-nin koordinatoru Türk Birlikləri Təşkilatı Federasiyasının İdarə Heyətinə üzv seçilib .....18
Xəzər MAFİ-nin layihəsi qalib oldu.....19
Prof.Akad. Hamlet İsaxanlı sinif yoldaşları ilə birlikdə əziz müəllimələri Müşafərim Qələmova ilə görüşdü.....20
"İnsan psixikasında folklorun rolu və biblioterapiya" mövzusunda elmi seminar .....22
Xəzər Universiteti Beynəlxalq və Qlobal Ali Təhsil Tədqiqat Mərkəzinin akademik dürüstlük mövzusunda vebinarı.....24
Tələbələr mütəxəssislərlə elmi seminarda.....26
Departament müdiri dəyirmi masada.....28
"Dünya" məktəbinin şagirdləri "Xəzər"də .....30
Departament müdiri Nayrobidə Azərbaycanın Müstəqillik Günü münasibətilə keçirilən konsertdə.....32
Tələbələr və əməkdaşlar Lunchef katerinq şirkətində .....33
"Dayanıqlı şəhər layihəsi" üzrə Multidisiplinar məkan planlaşdırma təlimi .....36
*Hamlet İsaxanlı*. İsmixan Yusubov – Zamanı və Məkanı Aşan Xatirələr.....40
Xəzər Universiteti "Qlobal Dayanıqlı İnkişaf Konqresi - 2025" tədbirində təmsil olunub.....57
KİM-in direktor müavini respublika seminarında .....58
Çinin Dalian Universitetinin nümayəndə heyəti "Xəzər"də .....59
İnstitusional Repozitoriyaların təkmilləşdirilməsi mövzusunda seminar .....60
"Zehnin dərinliklərinə səyahət: psixologiyada hipnoz" mövzusunda təlim.....61
Konya Texniki Universitetinin nümayəndə heyəti "Xəzər"də.....62
Könüllülük proqramı çərçivəsində fərqlənmiş gənclər mükafatlandırılıb .....64
Departament müdiri Beynəlxalq Türk Dünyası Yay Məktəbində .....67
Erasmus Tələbə Şəbəkəsinin Beynəlxalq İdarə Heyəti "Xəzər"də .....68
Memarlıq və dizayn departamenti müdirinin Qazi Universitetinə işgüzar səfəri .....69
Departament müdiri Monqolustanda keçirilən beynəlxalq konfransda .....70
Memarlıq və dizayn departamentinin "Xəzərin ləpələri" adlı sərgisi .....72
Elmi Şuranın növbəti iclası.....75
Musiqi və incəsənət departamentinin hesabat konserti və sərgisi .....76



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Khazar University's 54th Graduation Ceremony ....2
Letter of Appreciation to Khazar University ....8
Meeting of Turkish Minister with Faculty and Students ....10
Khazar University Launches "From Natural Intelligence to Artificial Intelligence" Seminar Series ....12
International Scientific Conference on "Ottoman Prisoners in Azerbaijan during World War I (Nargin and Azerbaijani Society's Aid to Prisoners)" ....14
Khazar University's MAFI Coordinator Elected to Board of Directors of the Federation of Turkic Unions Organization ....18
Khazar MAFI's Project Wins ....19
Prof.Acad. Hamlet Isakhanli Met with His Classmates and Their Beloved Teacher Mushaferim Qelemova ....20
Scientific Seminar on "The Role of Folklore in Human Psyche and Bibliotherapy" ....22
Khazar University's Research Center Hosts Webinar on Academic Integrity ....24
Students Participate in Academic Seminar with Specialists ....26
Head of Department at Round Table ....28
"Dunya" School Students at "Khazar" ....30
Department Director at Concert Held in Nairobi on Azerbaijan's Independence Day ....32
Students and Staff at Lunchef Catering Company ....33
"Khazar"s Foreign Publications ....34
"Sustainable City Project" Multidisciplinary Spatial Planning Training ....36
*Hamlet Isakhanli.* Ismikhan Yusubov - Memories Beyond Time and Space (*in Azerbaijani*) ....40
Khazar University Represented at Global Sustainable Development Congress 2025 ....57
KIM Deputy Director at Republic Seminar ....58
Delegation from China's Dalian University at "Khazar" ....59
Seminar on Improvement of Institutional Repositories ....60
Training on "Journey to the Depths of the Mind: Hypnosis in Psychology" ....61
Konya Technical University Delegation Visits Khazar University ....62
Defense of Master's Dissertations at Graduate School of Economics and Business ....63
Youth Distinguished within Volunteer Program have been Awarded ....64
International Webinar on Distance and Hybrid Education ....66
Department Head at International Turkic World Summer School ....67
Erasmus Student Network International Board at Khazar University ....68
Head of Architecture and Design Department's Business Visit to Gazi University ....69
Department Head at International Conference Held in Mongolia ....70
"Pearls of the Caspian" Exhibition by Department of Architecture and Design ....72
Next Meeting of Academic Council ....75
Report Concert and Exhibition by Music and Fine Arts Department ....76

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

# XƏZƏR UNİVERSİTETİNİN 54-CÜ MƏZUNLUQ MƏRASİMİ

(Əvvəli səh.2-də)



# KHAZAR UNIVERSITY'S 54TH GRADUATION CEREMONY

(The beginning is on the page 2)

Sonra bakalavr və magistrlərə diplomların təqdim olunmasına başlanıldı. Təbiət elmləri və mühəndislik, İqtisadiyyat və menecment, Humanitar, təhsil və sosial elmlər, Hasvet baytarlıq təbabəti, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil və İqtisadiyyat və biznes yüksək təhsil fakültələrinin məzunları səhnəyə dəvət olundular. Diplomları məzunlara universitetin rəhbərliyi, fakültə dekanları, departament müdirləri, müəllimlər və keçmiş məzunlar təqdim etdilər.

Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin 2011-ci il məzunu - Azərbaycan Elmi Tədqiqat Layihə İnstitutunun direktor müavini Fərhad Allahverdizadə universiteti bitirən məzunları təbrik etdi, onlara yeni həyat yollarında uğurlar arzuladı.

Qeyd olundu ki, çari tədris ilində, həmçinin, universitetin üç doktorantına - Cəmilə Ağamalıyeva (Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik ixtisası), Abebe Girma Gule (Ümumi iqtisadiyyat ixtisası) və Nəzakət Zamanovaya (Təhsilin təşkil və planlaşdırılması ixtisası) Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən fəlsəfə doktoru elmi dərəcəsi və diplom verilmişdir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad.

Subsequently, the presentation of diplomas to bachelor's and master's degree recipients began. Graduates from the faculties of Natural Sciences and Engineering, Economics and Management, Humanities, Education and Social Sciences, Hasvet Veterinary Medicine, Graduate School of Science, Arts and Technology, and Graduate School of Economics and Business were invited to the stage. The diplomas were presented to graduates by university administration, faculty deans, department heads, teachers, and staff members.

Farhad Allahverdizade, a 2011 graduate of Khazar University's School of Humanities and Social Sciences and Deputy Director of the Azerbaijan Scientific Research Project Institute, congratulated the graduating students and wished them success in their new life paths.

It was noted that during the current academic year, three doctoral students from the university - Jamila Aghamaliyeva (Comparative-Historical and Comparative-Typological Linguistics), Abebe Girma Gule (General Economics), and Nazakat Zamanova (Organization and Planning of Education) - were awarded the Doctor of Philosophy degree and diploma by the Higher Attestation Commission under

Hamlet İsaxanlı tədbirdə iştirak edən Cəmilə Ağamalıyeva və Abebe Girma Gule`ni səhnədə təbrik etdi və onlara elmi fəaliyyətlərində uğurlar dilədi.

Sonra Prof.Akad. Hamlet İsaxanlı ənənəvi olaraq mərasimdə nitq söylədi, universitetin uğurlarından və qarşıda duran vəzifələrdən danışdı, məzunlara tövsiyələrini verdi.

Xəzər Universitetinin himni oxundu. Məzunlar Xəzər Universitetində əldə etdikləri bilik və bacarığı tətbiq edərək öz ailələri, xalq və vətən üçün faydalı olacaqlarına, Xəzər Universitetinin şərəfini qoruyacaqlarına and içdilər. Andın mətnini İqsadiyyat və menecment fakültəsinin məzunları Fuad Əmrəliyev və Aytac Şahveranova səsləndirdilər.

Xəzər Universittinin daha bir ənənəvi məzunluq mərasimi başa çatdı.





the President of the Republic of Azerbaijan. Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, congratulated Jamila Aghamaliyeva and Abebe Girma Gule on stage and wished them success in their scientific activities.

Prof. Acad. Hamlet Isakhanli then delivered a traditional speech discussing the university's achievements and upcoming tasks, and giving recommendations to the graduates.

The Khazar University anthem was sung. The graduates took an oath that they would be beneficial to their families, people, and homeland by applying the knowledge and skills acquired at Khazar University, and would preserve the honor of Khazar University. The oath text was read by School of Economics and Management graduates Fuad Amraliyev and Aytac Shahveranova.

Another traditional graduation ceremony of Khazar University came to an end.



# XƏZƏR UNİVERSİTETİNƏ TƏŞƏKKÜR MƏKTUBU

# LETTER OF APPRECIATION TO KHAZAR UNIVERSITY

**Hörmətli "Xəzər" kollektivi!**

Mən, Maykl Kollinz, son on ayı aranızda keçirmək imkanına görə dərin minnətdarlığımı bildirirəm. Keçən il sentyabrın 10-da ingilis dili üzrə mütəxəssis kimi Azərbaycana gəldim. Ölkəyə uyğunlaşmaq üçün cəmi bir həftədən bir qədər artıq vaxtım oldu və bu müddətdə ABŞ səfirliyindəki həmkarlarım mənə uyğun yer tapana qədər gözlədim. O qarışıq günlərdə Bakını gəzib mümkün qədər çox şey kəşf etməyə çalışırdım. Məsələn, hər addımda rast gəldiyim "oboy" sözünün ingiliscə "Oh, boy" olmadığını, sadəcə "divar kağızı" satan mağazalar olduğunu öyrənəndə xeyli güldüm. Coğrafiyanı ürəkdən sevən biri kimi, dünyanın ən böyük gölü sayılan Xəzər dənizinin sahilində dayananda gözlərim doldu, axı bu planetdə bundan böyük göl yoxdur. Həmin on günlük balaca, amma güclü təəssüratlardan sonra 20 sentyabrda Xəzər Universiteti ilə rəsmi əməkdaşlığa başladım.

Universitetin tələbə və əməkdaşları barədə söylədiyim bütün xoş sözlər ürəkdən gəlir. Buraya gəldiyim ilk gündən bu gənclərin bacarıqları və nailiyyətləri məni heyran edir. Mənə yaxınlaşan tələbələrə bacardığım qədər dəstək göstərməyə

**Dear Khazar Team!**

I, Michael Collins, am grateful to have been among you for the past ten months. I arrived in Azerbaijan as an English Language Fellow last September 10, and I spent a little over a week just getting used to being in the country before my associates at the U.S. Embassy could find a suitable assignment for me. In those dizzying days, I just walked around trying to take in as much as I could. I laughed at my discovery that the numerous shops with oboy signs outside were not affiliated with one another or selling anything provocative (in the way "Oh, boy" would suggest), since that word just means "wallpaper" in Azerbaijani. As a person with a deep appreciation for geography, I nearly wept at being able to stand on the shores of the original "Khazar," the Caspian Sea, since I could scour the planet and never find a larger lake. After ten days of such small but powerful experiences as a solo operator, I officially started my association with Khazar University on September 20.

The praise I give here to the student body and staff of Khazar University is not something I am making up, nor is it anything I am expressing for the first time. Since my initial day the better part of a year ago, I have been continuously struck by the abilities and achievements of the young men and women studying here. I have striven to assist those students who summoned the courage to approach me, in any way I could. I was the official teacher of two separate courses at

çalışdım. Nərimanov kampusunda iki dərsin rəsmi müəllimi idim və inanıram ki, dərslərə gələn tələbələr mənimlə işləməkdən fayda gördülər. Onlara Amerika təhsilinin nümunəsini, bir az da özümə xas yumor qataraq, təklif etməyə çalışdım. Universitetin bütün əməkdaşları istisnasız qonaqpərvər və ruhlandırıcı idilər. Tələbələrin əksəriyyəti ilə azərbaycanlı ingilis dili müəllimlərinin dərslərinə qonaq kimi qatılarkən tanış oldum. Yerli müəllimlər məni valeh etdi və ümid edirəm ki, dərs prosesinə dair tövsiyələrim onlara fayda verdi. Dörd kampusdan ikisində, demək olar, bütün dərsləri izləyə bildim, digərlərində isə daha az vaxtım oldu. Gələcəkdə bura yeni ingilis dili mütəxəssisi gələcəksə, Bakıxanov və Nizami kampuslarına daha çox diqqət ayırmalarını tövsiyə edərdim.

Universitetin müxtəlif böyük tədbirlərində həm səhnəarxası təşkilatçı, həm də səhnədə natiq kimi iştirak etməkdən xüsusi zövq aldım. Elə həmin tədbirlərdə Xəzər Universitetindəki varlığımın ən çox hiss olunduğunu gördüm. Təqaüd müddətimin on ayı keçməyəcəyi əvvəlcədən bəlli idi, ona görə də harada lazımsa özümü göstərməyə tələsirdim. Mərmər salonda hər dəfə söz aldıqda tapşırığımı layiqincə yerinə yetirir, təşkilatçı və natiqlər tərəfindən universitetin dəyərli üzvü kimi qarşılanırdım. Həm bu kollektivin bir parçası olmaq, həm də məhdud müddətli qonaq kimi diqqət mərkəzində qalmaq paradoksunu yaşamaq maraqlı təcrübə idi. O xüsusi günlərdə onlarla insan qarşısında çıxış etdikdən sonra təkbaşına dəhlizlərdə gezişərkən beynimdə dolaşan şeirləri – həm sözün hərfi, həm də məcazi mənasında – pıçıldayırdım.

ABŞ Dövlət Departamentinin İngilis Dili üzrə Fellowship proqramı çərçivəsində Xəzər Universitetində keçirdiyim on ay təqvimdə bitir, lakin xatirələrimdə əbədi qalacaq. Haraya getsəm, nə işlə məşğul olsam da, burada yaşadığım bu gözəl dövr həmişə yanımda olacaq. Universitetdə qoyduğum izlərin nə vaxt silinəcəyini bilmirəm, amma bir şeyi dəqiq deyə bilərəm: Xəzər Universitetinin mənə təsiri daima yaşayacaq.

*Hörmətlə*
**Maykl Kollinz**

the Narimanov campus, and the students enrolled in those courses were, obviously, in the best position to benefit from my presence. They are free to judge my performance as they please, but I would like to think I offered them a taste of American education and a combination of comedy and college-level instruction uniquely my own. The employees of the university were, without exception, inviting and encouraging. It was as an observer and occasional contributor to the lessons of the Azerbaijani teachers of English that I encountered most of the Khazar students whose acquaintance I made. The local instructors were impressive, and I hope they feel the feedback I offered them on what I saw in their classes made them only more impressive. I got to observe almost all of them at the two of the four Khazar campuses where I spent most of my time, but I barely scratched the surface of what could be done at the other two. If a future English Language Fellow is fortunate enough to be assigned to Khazar University, my relative neglect of the Bakikhanov and Nizami campuses means it should be clear where to pick up and carry on.

I enjoyed being a behind-the-scenes planner and an on-the-stage performer at some high-profile events. These gatherings were when my presence at Khazar University felt most significant. Because it was understood, all along, that my fellowship term could not extend beyond ten months, there was a sense of urgency about showcasing me when appropriate. I rose to the occasion each time that I was in Marble Hall, and the other planners and presenters made me feel like a valued part of the university for as long as I would be at it; I attained the pleasant paradox of being treated as one of their own while being spotlit as a visitor whose contributions only had so much time to be experienced. On those special days, I verbalized, in front of dozens, the very same poems (both literal and figurative) I had bouncing around in my head the many times I could be seen pacing up and down the corridors in silent solitude.

My time as a U.S. Department of State English Language Fellow at Khazar University in Azerbaijan is ten months that the calendar dictates must end eventually but my own memory will never allow to end completely. Wherever I may go, whatever I may do, there will be no alteration to the fact that I had such a wonderful tour of duty here. I could only speculate on when the last trace of any impact I made on the university might disappear, but I can already state, with certainty: Khazar University's impact on me is permanent.

*Sincerely*
**Michael Collins**



Mahinur Özdemir Göktaş

# TÜRKİYƏ NAZİRİNİN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

# MEETING OF TURKISH MINISTER WITH FACULTY AND STUDENTS

İyunun 10-da Türkiyənin Ailə və Sosial Xidmətlər naziri Mahinur Özdemir Göktaş Azərbaycana səfəri çərçivəsində Xəzər Universitetinin professor-müəllim heyəti və tələbələrlə görüşüb. Tədbir Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə baş tutub. Nazir ilə universitet kollektivinin görüşündə Türkiyənin Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Prof.Dr. Birol Akgün və xanımı Zühre Akgün iştirak ediblər.

Tədbir hər iki ölkənin – Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnlərinin ifası ilə başlayıb. Tədbirin bədii hissəsində Xəzər Universiteti Kamera orkestrının müşayiəti ilə bir sıra musiqi parçaları səsləndirilib, o cümlədən Üzeyir Hacıbəylinin "Çırpınırdı Qara dəniz" əsəri ifa olunub. Musiqili proqramla yanaşı rəqs nömrələri də təqdim edilib.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı qo-

On June 10, Türkiye's Minister of Family and Social Services Mahinur Özdemir Göktaş met with the faculty and students of Khazar University within the framework of her visit to Azerbaijan. The event was organized by Khazar University's Department of History and Archaeology. Türkiye's Ambassador Extraordinary and Plenipotentiary to Azerbaijan Prof.Dr. Birol Akgün and his spouse Zühre Akgün also participated in the meeting between the minister and the university community.

The event began with the performance of the national anthems of both countries - the Republic of Azerbaijan and the Republic of Türkiye. In the artistic part of the event, several musical pieces were performed accompanied by the Khazar University Chamber Orchestra, including Uzeyir Hajibeyli's work "The Black Sea Was Churning". Along with the musical program, dance performances were also presented.



naqları salamlayıb və Türkiyə - Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri daim inkişaf etdirməyin əhəmiyyətindən danışıb.

Tədbirin moderatoru,Tarix və arxeologiya departamentinin müdiri Dos.Telman Nüsrətoğlu ümumi Türk tarix və mədəniyyətinin ailə dəyərlərinə verdiyi önəmi vurğulyaraq, sözü nazirə verib.

Nazir Mahinur Özdemir Göktaş çıxışında gənclərə motivasiya verən fikirlər səsləndirib, öz karyera yolundan, Avropada islamofob bir mühitdə mlli kimliyini qoruyaraq apardığı siyasi mübaruzədən, qarşılaşdığı çətinliklərdən və bu yolda ailəsinin ona göstərdiyi dəstəkdən bəhs edib. Nazirin çıxışı professor-müəllim heyəti və tələbələr tərəfindən böyük maraqla qarşılanıb.



*Birol Akgün, Zühre Akgün*




*Hamlet İsaxanlı*

The founder of Khazar University and Chairman of the Board of Directors and Trustees Prof.Dr. Hamlet Isakhanli welcomed the guests and spoke about the importance of continuously developing the friendship and brotherhood relations existing between Türkiye and Azerbaijan.

The event moderator, Head of the Department of History and Archaeology Assoc.Prof. Telman Nusratoglu emphasized the importance that common Turkish history and culture places on family values and gave the floor to the minister.

In her speech, Minister Mahinur Özdemir Göktaş voiced motivating ideas for young people, speaking about her career path, her political struggle in an Islamophobic environment in Europe while preserving her national identity, the difficulties she encountered, and the support her family showed her along this path. The minister's speech was received with great interest by the faculty and students.



*Telman Nüsrətoğlu*




*Hamlet İsaxanlı*

# XƏZƏR UNİVERSİTETİNDƏ "TƏBİİ ZƏKADAN SÜNİ ZƏKAYA DOĞRU" SEMİNARLAR SİLSİLƏSİNƏ BAŞLANILDI

# KHAZAR UNIVERSITY LAUNCHES "FROM NATURAL INTELLIGENCE TO ARTIFICIAL INTELLIGENCE" SEMINAR SERIES

İyunun 12-də Xəzər Universitetində universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof. Akad. Hamlet İsaxanlının təşəbbüsü və rəhbərliyi ilə "Təbii Zəkadan Süni Zəkaya Doğru" adlı yeni seminarlar silsiləsinə rəsmi şəkildə start verildi. Bu elmi təşəbbüs müasir dövrdə süni intellektin cəmiyyət və texnologiyalar üzərində artan təsirini araşdırmaq və bu sahədə bilik mübadiləsini təşviq etmək məqsədi daşıyır.

Seminarın açılışında giriş nitqi söyləyən H. İsaxanlı süni intellektin bu gün elm və texnologiya sahələrində oynadığı önəmli roldan bəhs etdi. O bildirdi ki, süni intellekt artıq yalnız texnoloji sahələrlə məhdudlaşmayaraq, bütün elmi istiqamətlərə nüfuz etməkdədir və bu sahələrdə əhəmiyyətli yeniliklərə səbəb olur. H. İsaxanlı qeyd etdi ki, bu seminarlar vasitəsilə tələbələrə və alimlərə bu texnologiyaların əsaslarını daha dərindən öyrənmək imkanı yaradılır.



Seminarlar silsiləsinin ilk tədbirində Xəzər Universitetinin Fizika və elektronika departamentinin əməkdaşları – Əhməd Asimov və Məhəmməd Əlizadə "Kompüter Elmlərinin Fiziki Əsasları" mövzusunda çıxış etdilər.

Ə. Asimov çıxışında kompüter texnologiyalarının inkişafında fizika elminin mühüm rolunu vurğuladı.

On June 12, Khazar University officially launched a new seminar series titled "From Natural Intelligence to Artificial Intelligence" under the initiative and leadership of the university's founder, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli. This scientific initiative aims to explore the growing impact of artificial intelligence on society and technology in the modern era and to promote knowledge exchange in this field.

In his opening speech at the seminar, H. Isakhanli discussed the important role artificial intelligence plays today in science and technology. He stated that artificial intelligence is no longer limited to technological fields but is penetrating all scientific disciplines and causing significant innovations in these areas. H. Isakhanli noted that through these seminars, students and scientists are provided with an oppor-

O, yarımkeçirici texnologiyaların tarixi və təkamülündən, onların kompüter çiplərindəki tətbiq sahələrindən və bu texnologiyaların süni intellektin formalaşmasında necə mühüm baza rolunu oynadığından danışdı. Həmçinin, kvant texnologiyalarının və nanoelektronikanın gələcəkdə süni intelekt üçün yeni imkanlar yaradacağına da toxundu.

M. Əlizadə isə elektrik və elektronika sahələrinin əsas anlayışları, mikrosxemlər və mikrokontrollerlərin prinsipləri haqqında ətraflı məlumat verdi. O, bu texnologiyaların kompüter elmləri ilə inteqrasiyası nəticəsində yaranan yeni inkişaf mərhələləri və süni intellektin bu proseslərə təsiri haqqında fikir bildirdi. Əlizadə, həmçinin, praktiki nümunələrlə mövzunu izah edərək, dinləyicilərin suallarını cavablandırdı.

Seminar müzakirə formatında davam etdi. İştirakçılar mövzu ətrafında sual-cavab sessiyasında fəal iştirak etdilər, ideya mübadiləsi aparıldı.

Tədbirin sonunda H. İsaxanlı seminarlar silsiləsinin davam etdiriləcəyini və növbəti görüşlərdə müxtəlif sahələrin tanınmış alim və mütəxəssislərinin də iştirak edəcəyini bildirdi. Bu seminarlar Xəzər Universitetinin elmi-texnoloji yeniliklərə verdiyi dəyərin və multidissiplinar yanaşma ilə elmi tədqiqatları təşviq etmə məqsədinin bir göstəricisidir.




*Əhməd Asimov*



*Məhəmməd Əlizadə*

tunity to learn the fundamentals of these technologies more deeply.

At the first event of the seminar series, staff members from Khazar University's Physics and Electronics Department – Ahmed Asimov and Mohammed Alizade – presented on the topic "Physical Foundations of Computer Sciences."

In his presentation, A. Asimov emphasized the crucial role of physics in the development of computer technologies. He discussed the history and evolution of semiconductor technologies, their application areas in computer chips, and how these technologies played an important foundational role in the formation of artificial intelligence. He also touched upon how quantum technologies and nanoelectronics will create new opportunities for artificial intelligence in the future.

M. Alizade provided detailed information about the fundamental concepts of electrical and electronics fields, the principles of microchips and microcontrollers. He shared his thoughts on the new development stages resulting from the integration of these technologies with computer sciences and the impact of artificial intelligence on these processes. Alizade also explained the topic with practical examples and answered questions from the audience.

The seminar continued in a discussion format. Participants actively participated in a question-and-answer session around the topic, and an exchange of ideas took place.

At the end of the event, H. Isakhanli announced that the seminar series would continue and that renowned scientists and specialists from various fields would also participate in upcoming meetings. These seminars are an indicator of Khazar University's commitment to scientific and technological innovations and its goal of promoting scientific research through a multidisciplinary approach.

TÜRKİYƏ MƏZUNU
İŞADAMLARI VƏ ZİYALILAR PLATFORMU
Khazar University
TİKA

## "BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCANDA OSMANLI ƏSİRLƏRİ (NARGİN VƏ AZƏRBAYCAN CƏMİYYƏTİNİN ƏSİRLƏRƏ YARDIMLARI)" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS



*Hamlet İsaxanlı*



## INTERNATIONAL SCIENTIFIC CONFERENCE ON "OTTOMAN PRISONERS IN AZERBAIJAN DURING WORLD WAR I (NARGIN AND AZERBAIJANI SOCIETY'S AID TO PRISONERS)"

İyunun 13-də Xəzər Universitetinində "Birinci Dünya müharibəsində Azərbaycanda Osmanlı əsirləri (Nargin və Azərbaycan cəmiyyətinin əsirlərə yardımları)" mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Gürcüstan, Türkiyə, Azərbaycan və Rusiya arxivlərində mövzu ilə bağlı tədqiqatları ehtiva edən layihə çərçivəsində keçirilən konfransda nadir arxiv sənədləri və fotolardan ibarət sərgi nümayiş olundu.

Xəzər Universitetinin Tarix və arxeologiya departamenti ilə yanaşı Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi - TİKA, Türkiyə Məzunu İş Adamları və Ziyalılar Platformunun birgə təşkilatçılığı ilə həyata keçirilən tədbirdə bir çox tanınmış mütəxəssis və tədqiqatçı öz məruzələri ilə çıxış etdi.

Mərmər zalda baş tutan tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Azərbaycan və Türkiyənin Dövlət himnləri ifa olundu, sonra konfransın plenar iclası keçirildi.

Açılışda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Türkiyənin Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Prof.Dr. Birol Akgün, TİKA sədr müavini Dr. Ümit Naci Yorulmaz və layihənin əlaqələndiricisi, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri, Türkiyə Məzunu İş Adamları və Ziyalılar Platformunun rəhbəri Dos. Telman Nüs-

On June 13, an international scientific conference on "Ottoman Prisoners in Azerbaijan during World War I (Nargin and Azerbaijani Society's Aid to Prisoners)" was held at Khazar University. The conference, conducted within the framework of a project encompassing research related to the topic in Georgian, Turkish, Azerbaijani and Russian archives, featured an exhibition of rare archival documents and photographs.

The event was jointly organized by Khazar University's Department of History and Archaeology, the Turkish Cooperation and Coordination Agency - TIKA, and the Platform of Turkish Graduate Businessmen and Intellectuals. Many renowned specialists and researchers presented their reports at the conference.

The event, held in the Marble Hall, began with a minute of silence in memory of martyrs, followed by the performance of the national anthems of Azerbaijan and Türkiye, and then the plenary session of the conference was conducted.

At the opening ceremony, Prof. Akad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Dr. Birol Akgun, Ambassador Extraordinary and Plenipotentiary of Türkiye to Azerbaijan, Dr. Umit Naci Yorulmaz, Deputy Chairman of TIKA, and

rətoğlu çıxış edərək, layihənin əhəmiyyətini vurğuladılar, Azərbaycan ilə Türkiyə arasındakı qardaşlığın tarixi əsaslarını dilə gətirdilər.

Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin müşayiəti ilə universitetin müəllimi, müğənni Məhsəti Cabbarova Çanaqqala və Yəmən türkülərini ifa etdi.



*Ümit Naci Yorulmaz*

Plenar iclasın sonunda arxivlərdən tarixi kadrları ehtiva edən videoçarx nümayiş etdirildi. Konfrans müddətində Azərbaycan, Türkiyə və Gürcüstan arxivlərindən əldə edilmiş çox sayda arxiv sənədi və o dövrə aid şəkillərdən ibarət foto-sərgi də iştirakçılara təqdim olundu.



*Sadık Çetin*

Ümumilikdə beş paneldən ibarət olan konfransın elmi iclaslarında mövzunun ən mühüm tədqiqatçılarından olan Atatürk Universitetinin müəllimi Prof.Dr. Betül Arslan, TİKA başkan yardımcısı Dr. Ümit Naci Yorulmaz, Azərbaycan Türk Ocağı Başqanı Dr. Akif Aşırlı , məşhur ürək cərrahı , Sarıqamış Cəmiyyətinin sədri Prof.Dr. Bingür Sönməz, Dumlıpınar Universitetinin rektoru Prof.

*(Ardı səh.16-da)*



*Birol Akgün*

Assoc. Prof. Telman Nusretoglu, project coordinator, Director of Khazar University's Department of History and Archaeology, and Head of the Platform of Turkish Graduate Businessmen and Intellectuals, delivered speeches emphasizing the importance of the project and highlighting the historical foundations of brotherhood between Azerbaijan and Türkiye.



*Telman Nüsrətoğlu*

Under the direction of Zulfiyya Sadiqova, Director of Khazar University's Department of Music and Fine Arts, university lecturer and singer Mahsati Jabbarova performed Canakkale and Yemen folk songs accompanied by the university's Chamber Orchestra.

At the end of the plenary session, a video featuring historical footage from archives was presented. Throughout the conference, a photo exhibition consisting of numerous archival documents and period photographs obtained from Azerbaijani, Turkish and Georgian archives was also presented to participants.

The scientific sessions of the conference, consisting of five panels in total, featured presentations by leading researchers on the topic, including Prof. Dr.

*(To be continued page 16)*



*Bingür Sönməz*

Dr.Süleyman Kızıltoprak, Mərmərə Universiteti Türkiyyat Araştırmaları İnstitutu müdiri Prof.Dr. Okan Yeşilot, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri Dos. Firdovsiyyə Əhmədova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi Prof.Dr. Xəqani Məmmədov, Mərmərə Universitetinin müəllimi Dos. Mehdi Gəncəli, Karabük Universitetinin müəllimi Prof.Dr. Ali Asker, BDU-nun müəllimi Dos. Boran Əziz, Sankt-Peterburq Dövlət Universitetindən Dr. Şahnaz Kamal, Xəzər Universitetinin departament müdiri Dos. Telman Nüsrətoğlu, Qaziantəp Universitetinin dosenti Sadık Çetin, Sağlık Bilimləri Universitetinin dosenti Resul Kösə, Xəzər Universitetinin müəllimləri Dr. Söhrab Mustafayev, Dr.Ramin Fətullayev, Ceyran Məmmədova və diyər tarixçilər tərəfindən Azərbaycan cəmiyyətinin əsirlərə yardımlarının müxtəlif istiqamətləri, əsirlərin Nargindəki həyatı, milli komitə, cəmiyyətlər və qəzetlərin əsirlər, möhtaçlarla bağlı yardım fəaliyyətləri müxtəlif panellərdə geniş şəkildə işıqlandırılmışdır. Azərbaycan, Türkiyə və Rusiyadan olan mütəxəssislər məsələnin tarixi, milli, hüquqi və insani tərəflərini geniş şəkildə izah etdilər. Hər panelin sonunda çıxışçılara və tədbirdə könüllü olaraq fəaliyyət göstərən tələbələrə sertifikatlar verildi.

Bu mühüm tarixi dövrü və insanlarını unutmamaq, xatirələrini əbədiləşdirmək, Azərbaycan-Türkiyə qardaşlığının dərin tarixi təməllərini yaddaşlarda daima diri tutmaq üçün aşağıdakı təkliflər irəli sürülmüşdür:

1. 7 may "Qardaş köməyi günü"nün Türkiyə və Azərbaycan türklərinin qardaşlıq və həmrəylik günü kimi qəbul edilməsi və hər il 7 mayda tədbirlərin keçirilməsi;

2. Tarixi İsmailiyyə binasının Türk dünyası mədəniyyət mərkəzi kimi fəaliyyət göstərməsi üçün müva-

Betul Arslan from Ataturk University, Dr. Umit Naci Yorulmaz, Deputy Chairman of TIKA, Dr. Akif Asirli, Chairman of the Azerbaijan Turkish Hearth, renowned heart surgeon Prof. Dr. Bingur Sonmez, Chairman of the Sarikamis Society, Prof. Dr. Suleyman Kiziltoprak, Rector of Dumlupinar University, Prof. Dr. Okan Yesilot, Director of the Tur-



*Süleyman Kızıltoprak*

kology Research Institute at Marmara University, Assoc. Prof. Firdovsiyya Ahmadova, Head of the History Department at the State Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Prof. Dr. Xaqani Mammadov from Azerbaijan State Pedagogical University, Assoc. Prof. Mehdi Ganjali from Marmara University, Prof. Dr. Ali Asker from Karabuk University, Assoc. Prof.



*Xəqani Məmmədov*

Boran Aziz from BSU, Dr. Shahnaz Kamal from Saint Petersburg State University, Assoc. Prof. Telman Nusretoglu, Department Director at Khazar University, Assoc. Prof. Sadik Cetin from Gaziantep University, Assoc. Prof. Resul Kose from Health Sci-

fiq orqanlara təklif verilməsi;

3. Azərbaycan və Türkiyə dövlətçiliyi, müstəqilliyi üçün çalışan, Nargin adasında həyatını itirənlər üçün sahildə bir xatirə lövhəsi qoyulması;.



*Boran Əziz*

4. Hacı Zeynalabidin Tağıyev, Ömər Faiq Nemanzadə, Dr. Hüsrev bəy Sultanov, Əhməd Cavad kimi şəxslərin adlarının Türkiyədə müxtəlif yerlərə verilməsi və bu şəxslərin tanıdılmasının təmin edilməsi üçün tədbirlər keçirilməsi.

5. Mediada türk xalqları ilə bağlı çox sayda xəbərin hazırlanması və qardaş dövlət xalqlarının bir-birini daha yaxından tanıması üçün çalışmalar aparılması.

Təkliflər konfrans iştirakçıları tərəfindən yekdilliklə dəstəklənmişdir. Bununla da konfran işini başa çatdırmışdır.



*Betül Arslan*

ences University, Dr. Sohrab Mustafayev, Dr. Ramin Fatullayev, Jeyran Mammadova and other historians from Khazar University. Various aspects of Azerbaijani society's aid to prisoners, prisoners' life in Nargin, and the aid activities of national committees, societies and newspapers regarding prisoners and the needy were extensively covered in different panels. Specialists from Azerbaijan, Türkiye and Russia comprehensively explained the historical, natio-



*Resul Kösə*

nal, legal and humanitarian aspects of the issue. At the end of each panel, certificates were presented to speakers and students who voluntarily participated in the event.

The following proposals were put forward to preserve the memory of this important historical period and its people, to immortalize their memories, and to keep the deep historical foundations of Azerbaijan-Turkey brotherhood alive in memory:

Recognition of May 7 as "Brotherhood Aid Day" as a day of brotherhood and solidarity for Turkish peoples of Turkey and Azerbaijan, and the conduct of events annually on May 7;

Submission of proposals to relevant authorities for the historic Ismailiyya building to operate as a Turkish world cultural center; Installation of a memorial plaque on the shore for those who worked for Azerbaijani and Turkish statehood and independence and lost their lives on Nargin Island;

Naming various places in Türkiye after figures such as Haji Zeynaladdin Taghiyev, Omer Faiq Nemanzade, Dr. Husrev bey Sultanov, Ahmad Javad, and conducting events to ensure recognition of these personalities;

Preparation of numerous news stories in media related to Turkic peoples and conducting efforts for fraternal state peoples to know each other more closely. The proposals were unanimously supported by conference participants. With this, the conference concluded its work.



Aynur Qəzənfərqızı

## XƏZƏR MAFİ-NİN KOORDİNATORU TÜRK BİRLİKLƏRİ TƏŞKİLATI FEDERASİYASININ İDARƏ HEYƏTİNƏ ÜZV SEÇİLİB

Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) koordinatoru, Dos. Aynur Qəzənfərqızı Türk Birlikləri Təşkilatı Federasiyasının idarə heyətinə üzv seçilib.

Dos. Aynur Qəzənfərqızı federasiyada Genəl başqanın Xalqla Əlaqələr Qurumu üzrə məsul yardımçısı vəzifəsini icra edəcək. Bu vəzifədə o, türk dünyası ölkələri arasında əlaqələrin inkişaf etdirilməsi sahəsində fəaliyyət göstərəcək.

Türk Birlikləri Təşkilatı Federasiyası müxtəlif sahələri əhatə edən mütəxəssislərin bir araya gəldiyi beynəlxalq qurumdur. Federasiyanın məqsədi türk xalqları arasında elmi, iqtisadi, hüquqi və ictimai əməkdaşlığın inkişaf etdirilməsi, ortaq dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsidir.

**Nigar Ələsgərli**
*Xəzər Universiteti, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası,1-ci kurs*

## KHAZAR UNIVERSITY'S MAFI COORDINATOR ELECTED TO BOARD OF DIRECTORS OF THE FEDERATION OF TURKIC UNIONS ORGANIZATION

The coordinator of Khazar University's Cultural Anthropology and Folklore Institute (MAFI), Associate Professor Aynur Gazanfarqizi, has been elected as a member of the board of directors of the internationally operating Federation of Turkic Unions Organization.

Associate Professor Aynur Gazanfarqizi will serve as the responsible assistant to the General Chairman for Public Relations within the federation. In this position, she will engage in activities aimed at developing relations among Turkic world countries.

The Federation of Turkic Unions Organization is an international institution that brings together specialists covering various fields. The federation's objective is to develop scientific, economic, legal and social cooperation among Turkic peoples, preserve common values and transmit them to future generations.

## XƏZƏR MAFİ-NİN KOORDİNATORUNA DOSENT DİPLOMU TƏQDİM EDİLİB

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, universitetin Mədəni Antropologiya və Folklor İnstitutunun (Xəzər MAFİ) koordinatoru Aynur Qəzənfərqızına Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 5 iyun 2025-ci il tarixli qərarı ilə filologiya sahəsində 5719.01 – Folklorşünaslıq ixtisası üzrə dosent elmi adı verilmişdir.

Dosent diplomu A.Qəzənfərqızına təqdim edilmişdir.

## ASSOCIATE PROFESSOR DIPLOMA PRESENTED TO KHAZAR MAFI COORDINATOR

Aynur Qazanfarqizi, a lecturer at Khazar University's Department of Languages and Literature and coordinator of the university's Institute of Cultural Anthropology and Folklore (Khazar MAFI), has been awarded the academic title of Associate Professor in the specialty 5719.01 - Folklore Studies in the field of philology, according to a decision dated June 5, 2025, by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

The Associate Professor diploma has been presented to A. Qazanfarqizi.



AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
05.06.2025-ci il TARİXLİ
QƏRARI İLƏ
Aynur Qəzənfər qızı Qəzənfər qızına
elmi-pedaqoji FƏALİYYƏTƏ GÖRƏ
filologiya elmləri ELM SAHƏSİNİN
5719.01 - Folklorşünaslıq İXTİSASI ÜZRƏ

DOSENT
ELMİ ADI VERİLMİŞDİR

SƏDR: Famil Mustafayev
BAŞ ELMİ KATİB: Firuzə Mayılova
M.Y.

## XƏZƏR MAFİ-NİN LAYİHƏSİ QALİB OLDU
## KHAZAR MAFI'S PROJECT WINS

Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun (Xəzər MAFİ) Türk Birlikləri Təşkilatı Federasiyasına (TBTF) təqdim etdiyi "Türk xalqlarının folklorunda ortaq süjet və motivlər" layihəsi qalib hesab edilmişdir.

Layihənin əsas məqsədi müxtəlif Türk xalqlarının folklorunda qorunub saxlanılan ortaq süjet və motivlərin sistemli şəkildə tədqiq olunması və elmi əsaslarla nəşrə hazırlanmasıdır. Bu çərçivədə türksoylu xalqların alimləri ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi və birgə elmi tədqiqatların aparılması planlaşdırılır.

İki il müddətində davam edəcək layihə çərçivəsində tədqiqat işlərinin həm Xəzər Universitetində, həm də müxtəlif Türk ölkələrinin ali təhsil müəssisələrində aparılması nəzərdə tutulur. Layihənin icrasına Xəzər MAFİ rəhbərlik edəcək və prosesin bütün mərhələlərində həm akademik əməkdaşlıq, həm də mədəni əlaqələrin dərinləşdirilməsi əsas istiqamətlərdən olacaq.

Bu mühüm təşəbbüs Türk dünyasının ortaq mədəni mirasının qorunması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

The project "Common Plots and Motifs in the Folklore of Turkic Peoples" submitted by Khazar University's Khazar MAFI to the Federation of Turkic Unions Organization (FTUO) has been declared the winner.

The main objective of the project is to systematically study common plots and motifs preserved in the folklore of various Turkic peoples and prepare them for scientific publication. Within this, strengthening cooperative relations with scholars from Turkic-speaking peoples and conducting joint scientific research is planned.

The project, which will continue for two years, envisages conducting research work both at Khazar and at higher education institutions in various Turkic countries. Khazar MAFI will lead the implementation of the project, and both academic cooperation and deepening cultural relations will be among the main directions throughout all stages of the process.

This important initiative holds significant importance in terms of preserving the common cultural heritage of the Turkic world and transmitting it to future generations.

### "XƏZƏR"İN MAGİSTR TƏLƏBƏSİ NÜFUZLU BEYNƏLXALQ PLATFORMAYA VİTSE-PREZİDENT SEÇİLDİ

Beynəlxalq münasibətlər və diplomatiya üzrə magistr proqramının tələbəsi Nigar Harəzmşah Avrasiya Universitetlər Birliyi (EURAS) NEXTGEN platformasının vitse-prezidenti vəzifəsinə seçilmişdir. Onun namizədliyi EURAS-ın qurucu üzvü olan Xəzər Universiteti tərəfindən irəli sürülmüşdü.

EURAS NEXTGEN Tələbə Platforması EURAS-ın rəsmi tələbə təşəbbüsüdür və üzv universitetlərin tələbə nümayəndələri tərəfindən formalaşdırılmışdır. NEXTGEN tələbələri beynəlxalq akademik mühitdə fəal iştirak etməyə və qlobal ali təhsil gündəminə əhəmiyyətli töhfələr verməyə təşviq edir.

Nigar Harəzmşah regional və qlobal tərəfdaşlarla əməkdaşlığın daha da gücləndirilməsi, dayanıqlı inkişaf, iqlim dəyişikliklərinə qarşı davamlılıq və mədəni əməkdaşlıq sahələrində fəaliyyət göstərəcək.



*Nigar Harəzmşah*

### KHAZAR UNIVERSITY MASTER'S STUDENT ELECTED VICE-PRESIDENT OF PRESTIGIOUS INTERNATIONAL PLATFORM

A master's program student in international relations and diplomacy, Nigar Harazmshah, has been elected to the position of vice-president of the Eurasian Universities Union (EURAS) NEXTGEN platform. Her candidacy was nominated by Khazar University, a founding member of EURAS.

The EURAS NEXTGEN Student Platform is the official student initiative of EURAS and is formed by student representatives from member universities. NEXTGEN encourages students to actively participate in the international academic environment and make significant contributions to the global higher education agenda.

Nigar Harazmshah will work in the areas of further strengthening cooperation with regional and global partners, sustainable development, climate change resilience, and cultural cooperation.



*Müşafərim Qələmova*

## PROF.AKAD. HAMLET İSAXANLI SİNİF YOLDAŞLARI İLƏ BİRLİKDƏ ƏZİZ MÜƏLLİMƏLƏRİ MÜŞAFƏRİM QƏLƏMOVA İLƏ GÖRÜŞDÜ

## PROF.ACAD. HAMLET ISAKHANLI MET WITH HIS CLASSMATES AND THEIR BELOVED TEACHER MUSHAFERIM QELEMOVA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlı iyulun 8-də öz məktəb illərində birgə təhsil aldığı sinif yoldaşları Prof. Elmxan Mahmudov və həkim Müşafərim Əliyeva ilə birlikdə onlara dərs demiş sevimli müəllimələri – hazırda 90 yaşlı Müşafərim müəllimə ilə görüşüblər.



*Elmxan Mahmudov, Hamlet İsaxanlı*

Görüş Hamlet İsaxanlının Xəzər Universitetindəki otağında baş tutub. İllər öncə Gürcüstanın Gardabani rayonunun Kosalı kənd orta məktəbində təhsil almış bu üç məzun müəllimələri ilə uzun fasilədən sonra yenidən bir araya gəliblər.

Məlumat üçün qeyd edək ki, Hamlet və Elmxan məktəbi qızıl medalla, Müşafərim xanım isə gümüş medalla bitirmişlər. Görüş zamanı məktəb illəri xatırlanıb, səmimi söhbətlər aparılıb və keçmişin unudulmaz anları bir daha canlandırılıb.

Bu mənalı və duyğusal görüş müəllim-şagird mü-

The founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof.Acad. Hamlet Isakhanli, together with his classmates Prof. Elmkhan Mahmudov and physician Mushaferim Aliyeva, with whom he studied together during his school years, met on July 8, 2025, with their beloved teacher who taught them - currently 90-year-old teacher Mushaferim.

The meeting took place in Hamlet Isakhanli's office at Khazar University. These three graduates, who studied years ago at Kosali village secondary school in the Gardabani district of Georgia, reunited with their teacher after a long interval.

For information, it should be noted that Hamlet and Elmkhan graduated from school with gold medals,



*Müşafərim Əliyeva*

nasibətlərinin illərlə necə dərinləşdiyinin bariz nümunəsi olub. Müşəfərim müəllimə görüş zamanı öz şagirdlərini bu yaşında yenidən görməkdən böyük sevinç və qürur duyduğunu bildirib. O, onların hər birinin tanınmış alimlərə – xüsusilə Hamlet İsaxanlı və Elmxan Mahmudovun riyaziyyatçı alimlər kimi uğur qazanmalarına görə fəxr etdiyini vurğulayıb.

Görüşün sonunda xatirə şəkilləri çəkilib və gələcəkdə yenidən bir araya gəlmək arzusu ilə vidalaşıb.





while Ms. Mushaferim graduated with a silver medal. During the meeting, school years were recalled, heartfelt conversations were held, and unforgettable moments from the past were once again brought to life.

This meaningful and emotional meeting served as a clear example of how teacher-student relationships deepen over the years. Teacher Mushaferim expressed during the meeting that she felt great joy and pride in seeing her students again at this age. She emphasized that she takes pride in each of them becoming renowned scholars - particularly in Hamlet Isakhanli and Elmkhan Mahmudov's success as mathematician scientists.



At the end of the meeting, commemorative photographs were taken and they bid farewell with the desire to reunite again in the future.

## "İNSAN PSİXİKASINDA FOLKLORUN ROLU VƏ BİBLİOTERAPİYA" MÖVZUSUNDA ELMİ SEMİNAR





*Aynur Qəzənfərqızı*

## SCIENTIFIC SEMINAR ON "THE ROLE OF FOLKLORE IN HUMAN PSYCHE AND BIBLIOTHERAPY"

Mayın 19-da Xəzər Universiteti Psixologiya departamenti və Psixologiya klubunun birgə təşkilatçılığı ilə Xəzər Universitetinin Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) koordinatoru Dos. Aynur Qəzənfərqızı və Psixologiya departamentinin əməkdaşı, Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarov tərəfindən "İnsan psixikasında folklorun rolu və biblioterapiya" mövzusunda seminar keçirildi.

Seminarın ilk hissəsində Dos. Aynur Qəzənfərqızı folklorun insan psixikasına olan psixoloji təsirləri vurğuladı. O, xalqlara və etnik müxtəlifliyə görə fərqli yanaşmalara diqqət çəkdi, folklorun insan inkişafı üçün önəmli olduğunu qeyd etdi.

Seminarın ikinci hissəsində Mirsadiq Muxtarov Biblioterapiya haqqında ətraflı məlumat verdi. O, biblioterapiyanın tərifi, tarixi, məqsədləri və faydaları barədə danışdı. Eyni zamanda, bu terapiyanın dəstəkləyici metod olaraq praktiki sahələrdə necə istifadə edildiyini və faydalı olduğunu açıqladı. Seminarın gedişində Mirsadiq Muxtarov bibliyoterapiya texnikaları barədə də dinləyiciləri məlumatlandırdı, terapiyanın mərhələlərini və yaş mərhələlərinə uyğun şəkildə tətbiqi qaydalarını izah etdi.

Seminar zamanı təlimçilər tərəfindən iştirakçıların çoxsaylı sualları cavablandırılmışdır. Təd-

On May 19, a seminar on "The Role of Folklore in Human Psyche and Bibliotherapy" was conducted jointly organized by Khazar University's Psychology Department and Psychology Club, presented by Associate Professor Aynur Gazanfarqizi, coordinator of Khazar University's Institute of Cultural Anthropology and Folklore (ICAF), and Mirsadiq Mukhtarov, staff member of the Psychology Department and psychologist at Khazar Psychological Service Center.

In the first part of the seminar, Associate Professor Aynur Gazanfarqizi emphasized the psychological effects of folklore on human psyche. She drew attention to different approaches according to peoples and ethnic diversity, noting that folklore is important for human development.

In the second part of the seminar, Mirsadiq Mukhtarov provided detailed information about bibliotherapy. He spoke about the definition, history, objectives and benefits of bibliotherapy. At the same time, he explained how this therapy is used as a supportive method in practical fields and its usefulness. During the seminar, Mirsadiq Mukhtarov also informed the audience about bibliotherapy techniques, explaining the stages of therapy and the rules of application appropriate to age stages.

During the seminar, numerous questions from





*Mirsadiq Muxtarov*

bir tələbələrin nəzəri biliklərini dərinləşdirməklə yanaşı, biblioterapiya texnikalarının ilkin tətbiqini də əhatə etmişdir.

Folklorun insan psixikasına təsiri və biblioterapiyanın müasir psixoloji praktikadakı rolunu vurğulayan bu seminar, tələbə və müəllim heyətinin geniş iştirakı ilə yadda qaldı. Qeyd etmək lazımdır ki, seminar fənnlərarası əlaqə baxımından da ədəbiyyat və psixologiya sahələrinin qarşılıqlı vəhdətini tələbələrə bir daha nümayiş etdirmişdir.





participants were answered by the instructors. The event not only deepened students' theoretical knowledge but also covered the initial application of bibliotherapy techniques. This seminar, which emphasized the impact of folklore on human psyche and the role of bibliotherapy in contemporary psychological practice, was memorable with the broad participation of students and faculty. It should be noted that the seminar also demonstrated to students the mutual unity of literature and psychology fields from an interdisciplinary perspective.

UNIVERSITY OF TORONTO
OISE | ONTARIO INSTITUTE FOR STUDIES IN EDUCATION

# XƏZƏR UNİVERSİTETİ BEYNƏLXALQ VƏ QLOBAL ALİ TƏHSİL TƏDQİQAT MƏRKƏZİNİN AKADEMİK DÜRÜSTLÜK MÖVZUSUNDA VEBİNARI

Mayın 28-də Xəzər Universitetinin Beynəlxalq və Qlobal Ali Təhsil Tədqiqat Mərkəzi Toronto Universitetinin Ontario Təhsil Araşdırmaları İnstitutundan (OISE) Dr. Ahmet Su`nun iştirakı ilə ilk vebinarını keçirib. "Ali təhsil müəssisələri üçün effektiv akademik dürüstlük siyasətlərinin işlənib hazırlanması" adlı vebinarda akademik dürüstlükdə müasir çağırışların həllinə yönəlik vacib olan məzmunlu müzakirələr və praktiki təlimatlar keçirilib.

Vebinara Mərkəzin direktoru Engin Karadağ moderatorluq edib və tədbirə çoxsaylı iştirakçılar, o cümlədən İqtisadiyyat və menecment departamentinin dekanı Raziyə İsayeva qatılıb. Dr. Su cəzalandırıcı tədbirlər əvəzinə fəal, dəstəkləyici və təhsil xarakterli yanaşmaların zəruriliyini vurğulayıb. O, Beynəlxalq Akademik Dürüstlük Mərkəzinin müdafiə etdiyi altı əsas dəyəri - dürüstlük, etimad, ədalət, hörmət, məsuliyyət və cəsarəti qeyd edib. Plagiat, müqavilə əsasında aldatma, süni intellekt vasitələrinin sui-istifadəsi və saxta sertifikatlaşma kimi hallara toxunaraq, dürüstlüyün institusional idarəetmə və gündəlik akademik fəaliyyətlərə daxil edilməsinin əhəmiyyətini qeyd edib.

İştirakçılar aydın siyasət strukturları, əlçatanlıq, şəffaf pozuntu araşdırma prosedurları və kurikulumlara inteqrasiya edilmiş ardıcıl mesajlaşma daxil olmaqla ən yaxşı təcrübələrlə tanış olublar. Dr. Su, həmçinin, Akademik Dürüstlük Yetkinlik Modeli (AIMM) kimi beynəlxalq təsisatlar haqqında məlumat verib və Avstraliya universitetləri tərəfindən müəyyən olunmuş qlobal standartlara istinad edib.

Vebinar maraqlı müzakirə ilə yekunlaşaraq, akademik dürüstlük siyasətlərinin sadəcə tənzimləyici zərurət deyil, həm də təhsil keyfiyyətinin saxlanması və dürüst akademik mədəniyyətin inkişafı üçün vacib olan mənəvi imperativ olduğunu bir daha təsdiqləyib.

Xəzər Universiteti qlobal akademik icma daxilində mükəmməllik və dürüstlüyü təşviq məqsədilə gələcəkdə müvafiq tədbirlər keçirməyə davam edəcək.

# KHAZAR UNIVERSITY'S RESEARCH CENTER HOSTS WEBINAR ON ACADEMIC INTEGRITY

On May 28, the Research Center for International and Global Higher Education at Khazar University successfully conducted its inaugural webinar featuring Dr. Ahmet Su from the Ontario Institute for Studies in Education (OISE), University of Toronto. The webinar, titled "Developing Effective Academic Integrity Policies for Higher Education Institutions," provided insightful discussions and practical guidelines crucial for addressing contemporary challenges in academic integrity.

The webinar was moderated by Engin Karadag, the Director of the Center, and attended by numerous participants, including Dean of the School of Economics and Management Raziya Isaeva. Dr. Su emphasized the necessity for proactive, supportive, and educational approaches rather than punitive measures. He highlighted six core values advocated by the International Center for Academic Integrity: honesty, trust, fairness, respect, responsibility, and courage. Addressing key challenges such as plagiarism, contract cheating, misuse of AI tools, and fraudulent certifications, the webinar underscored the importance of embedding integrity throughout institutional governance and daily academic activities.

Participants were introduced to best practices, including clear policy structures, accessibility, transparent misconduct handling procedures, and consistent messaging integrated into curricula. Dr. Su also presented international frameworks such as the Academic Integrity Maturity Model (AIMM) and referenced global standards outlined by Universities Australia. The webinar concluded with an engaging discussion, reaffirming that academic integrity policies are not merely regulatory necessities but moral imperatives essential for maintaining educational quality and fostering an honest academic culture.

Khazar University remains committed to hosting similar future events, promoting excellence and integrity within the global academic community.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ DÜNYA GƏNC TÜRK YAZARLAR BİRLİYİNİN İDARƏ HEYƏTİNİN ÜZVLÜYÜNƏ QƏBUL OLUNUB

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, fil.ü.f.d. Yeqzar Cəfərli Dünya Gənc Türk Yazarlar Birliyinin İdarə Heyətinin üzvlüyünə qəbul olunub. Yeqzar Cəfərliyə üzvlük vəsiqəsini təşkilatın başqanı, şair İntiqam Yaşar təqdim edib.

Qeyd edək ki, Dünya Gənc Türk Yazarlar Birliyi beynəlxalq hüquqi şəxs olaraq fəaliyyət göstərir, türk dünyasında yaşayan gənc türk yazarların birləşdiyi qurumdur. Kitablar nəşr edir, saytlar qurur, layihələr gerçəkləşdirir, konfrans, festival, görüşlər düzənləyir.

Birlik indiyədək Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər Fondu, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və digər donor qurumların dəstəyi ilə onlarla layihə həyata keçirib.

## LECTURER OF DEPARTMENT OF LANGUAGES AND LITERATURE ACCEPTED AS MEMBER OF BOARD OF DIRECTORS OF WORLD YOUNG TURKISH WRITERS UNION

A lecturer from Khazar University's Department of Languages and Literature, PhD in Philology Yegzar Jafarli, has been accepted as a member of the Board of Directors of the World Young Turkish Writers Union. The membership certificate was presented to Yegzar Jafarli by the organization's chairman, poet Intiqam Yashar.

It should be noted that the World Young Turkish Writers Union operates as an international legal entity and is an organization that unites young Turkish writers living in the Turkish world. It publishes books, establishes websites, implements projects, and organizes conferences, festivals, and meetings.

The Union has implemented dozens of projects to date with the support of the Ministry of Youth and Sports of the Republic of Azerbaijan, the Ministry of Culture, the Youth Foundation, the State Agency for Support of Non-Governmental Organizations, and other donor organizations.

## XƏZƏR UNİVERSİTETİNİN ƏCNƏBİ DOKTORANTI PEDAQOGİKA ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALIB

Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin 5802.01 - Təhsilin təşkili və planlaşdırılması ixtisası üzrə əcnəbi doktorantı Abdul-Rahman Balogun Muhammed Shittu "İanə və təqaüdün beynəlxalq tələbələrin akademik bütünlük və nailiyyət motivasiyasına təsiri (Əl-Əzhər və Xəzər Universitetlərinin nümunəsi)" mövzusunda dissertasiya işini uğurla müdafiə etmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən pedaqogika elm sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.


AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
TARİXLİ
QƏRARI İLƏ
İXTİSASINDA
ELM SAHƏSİ ÜZRƏ
FƏLSƏFƏ DOKTORU
ELMİ DƏRƏCƏSİ VERİLMİŞDİR
SƏDR
Famil Mustafayev
BAŞ ELMİ KATİB
Firuzə Maydova

## FOREIGN DOCTORAL STUDENT AT KHAZAR UNIVERSITY RECEIVES DOCTOR OF PHILOSOPHY DEGREE IN PEDAGOGY

A foreign doctoral student at the Graduate School of Science, Art and Technology, specializing in 5802.01 - Organization and Planning of Education, Abdul-Rahman Balogun Muhammed Shittu, has successfully defended his dissertation on the topic "The Impact of Grants and Scholarships on International Students' Academic Integrity and Achievement Motivation (Case Study of Al-Azhar and Khazar Universities)" and has been awarded the Doctor of Philosophy degree in the field of pedagogical sciences by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

# TƏLƏBƏLƏR MÜTƏXƏSSİSLƏRLƏ ELMİ SEMİNARDA

Mayın 29-da Xəzər Universitetinin Nizami korpusunda Humanitar, təhsil və sosial elmlər fakültəsinin, Tarix və arxeologiya departamentinin və AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Elmi ekspozisiyanın təşkili" şöbəsinin ortaq təşkilatçılığı və Xəzər Universitetinin İctimai Əlaqələr və Media Qurumunun dəstəyi ilə "Antik dövrdə Qərb və Şərq sivilizasiyaları: əlaqələr, təsirlər və baxışlar" adlı elmi-tədris seminarı təşkil olunmuşdur.





Zaur Həsənov

Seminarda AMEA Arxeologiya və Antropologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Zaur Həsənov və Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, Dr. Rüxsarə Quliyeva çıxış etmişlər.

Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix və arxeologiya departamentinin müəllimi, AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Elmi ekspozisiyanın təşkili" şöbəsinin müdiri vəzifəsini icra edən Orxan Zamanovun moderatorluğu ilə mütəxəssislərin qədim sivilizasiyalar ilə bağlı məsələlərə həsr olunmuş çıxışları Xəzər Universiteti tələbələrinə və qonaqlara elmi-akademik yeniliklərin çatdırılması məqsədi daşıyırdı.

# STUDENTS PARTICIPATE IN ACADEMIC SEMINAR WITH SPECIALISTS

On May 29, an academic-educational seminar titled "Ancient Western and Eastern Civilizations: Relations, Influences and Perspectives" was organized at Khazar University's Nizami Campus through the joint organization of the School of Humanities, Education and Social Sciences, the Department of History and Archaeology, and the "Organization of Scientific Exposition" section of the Institute of Archaeology and Anthropology of ANAS, with support from Khazar University's Public Relations and Media Department.

The seminar featured presentations by Zaur Hasanov, Deputy Director for Scientific Affairs and Doctor of Historical Sciences at the Institute of Archaeology and Anthropology of ANAS, and Dr. Rukhsara Guliyeva, lecturer at Khazar University's Department of History and Archaeology.

Under the moderation of Orkhan Zamanov, lecturer at the Department of History and Archaeology of the School of Humanities, Education and Social Sciences and acting head of the "Organization of Scientific Exposition" section at the Institute of Archaeology and Anthropology of ANAS, the specialists' presentations dedicated to issues related to ancient civilizations aimed to deliver scientific-academic innovations to



*Rüxsarə Quliyeva*

Zaur Həsənovun bilavasitə tədqiqat sahəsi ilə bağlı təqdim etdiyi "Klassik mənbələrdə skiflər və digər şərq xalqları" adlı mühazirəsi diqqətlə dinlənilmiş və iştirakçıların marağına səbəb olmuşdur. Mövzu Humanitar, təhsil və sosial elmlər fakültəsinin tarix və tarix-coğrafiya müəllimliyi tələbələrinə "Qədim Dünya tarixi 2" fənni çərçivəsində antik sivilizasiyaların tədqiqində müasir gedişatın və elmi yeniliklərin bilavasitə tədqiqatçılar tərəfindən açıqlanması baxımından müəyyən edilmişdi.



Khazar University students and guests.

Zaur Hasanov's lecture titled "Scythians and Other Eastern Peoples in Classical Sources," presented directly from his research field, was listened to attentively and generated interest among participants. The topic was selected with the aim of having contemporary developments and scientific innovations in the study of ancient civilizations explained directly by researchers to students of history and history-geography teaching at the Faculty of Humanities, Education and Social Sciences within the framework of the "Ancient World History 2" course.

Dr. Rukhsara Guliyeva's lecture titled "State Administration in the Roman Republic" was designed to instill in students, through specialist



*Orxan Zamanov*

discourse, the roots, formation, establishment and evolution of statehood and administrative relations in Ancient Roman society. The discussed topic was directly related to teaching and held significant importance for the development of students' knowledge in the subject and their worldview regarding ancient civilizations.

The event concluded with the answering of numerous questions and engaging discussion.

Dr. Rüxsarə Quliyevanın təqdim etdiyi "Roma respublikasında dövlət idarəçiliyi" adlı mühazirə Qədim Roma cəmiyyətində dövlətçilik və idarəçilik münasibətlərinin kökləri, formalaşması, təşəkkülü və təkamülünün tələbələrə mütəxəssis sözü ilə aşılanması məqsədilə müəyyən olunmuşdu. Bəhs edilən mövzu tədris ilə bilavasitə bağlı olub, tələbələrin fənn üzrə biliklərinin və antik sivilizasiyalar ilə bağlı dünyagörüşünün inkişafı baxımından mühüm əhəmiyyət daşıyırdı.

Tədbir çoxsaylı sualların cavablandırılması və maraqlı diskussiya ilə sona yetib.

## DEPARTAMENT MÜDİRİ DƏYİRMİ MASADA

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev iyunun 2-də "Yeni geosiyasi reallıqların Azərbaycan-Türkiyə münasibətləri üçün yaratdığı təhdidlər və fürsətlər" mövzusunda dəyirmi masa müzakirələrində iştirak etmişdir.



*Orxan Vəliyev*

Açılışda BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycan-Türkiyə münasibətlərinin konseptual əsasının 90-cı illərdə qoyulduğunu və əlaqələrin 30 il ərzində uğurla inkişaf etdiyini diqqətə çatdırıb. BMTM-in İdarə Heyətinin üzvü Cavid Vəliyevin moderatorluğu ilə keçirilən birinci paneldə iki ölkə arasındakı münasibətlərin sırf mənfəətlərə əsaslanan ənənəvi dövlətlərarası münasibətlərdən fərqləndiyini, əməkdaşlığın qardaşlıq və dostluğa əsaslandığı bildirilib.

İkinci paneldə isə regional güc balansları, yeni diplomatik təşəbbüslər və qlobal aktorlarla münasibətlər müzakirə edilib. Bu panel müzakirəsində çıxış edən Dos. Orxan Vəliyev vurğulayıb ki, dəyişən beynəlxalq münasibətlər sistemi fonunda Azərbaycan və Türkiyə öz milli maraqlarını yalnız qarşılıqlı strateji dəstək yolu ilə qoruya bilər və bu istiqamətdə diplomatik koordinasiya, təhlükəsizlik sahəsində əməkdaşlıq və regional təşəbbüslər xüsusi əhəmiyyət daşıyır. Yekunda dəyirmi masa iştirakçıları bildiriblər ki, Azərbaycan-Türkiyə münasibətləri ortaq milli kimlik, tarixi bağlar və mədəni faktorlarla yanaşı, həm də real təhlükəsizlik və iqtisadi maraqlara söykənən bir müttəfiqlik modelidir. Mövcud geosiyasi dəyişikliklər bu modelin daha da möhkəmləndirilməsini və yeni sahələrə yönəlməsini zəruri edir.

## HEAD OF DEPARTMENT AT ROUND TABLE

Head of the Department of Political Sciences and Philosophy, Assoc. Prof. Orkhan Valiyev participated in the roundtable discussion on "Threats and Opportunities Created by Broad Geopolitical Realities for Azerbaijan-Türkiye Relations" on June 2.

At the opening, Chairman of the Board of Directors of the AIR Center Farid Shafiyev noted that the conceptual foundation of Azerbaijan-Türkiye relations was laid in the 1990s and that relations have been successfully developing for 30 years. In the first panel, moderated by Javid Valiyev, member of the Board of Directors of the AIR Center, it was stated that the relations between the two countries differ from traditional interstate relations based solely on interests, and that cooperation is based on brotherhood and friendship.

The second panel discussed regional power balances, new diplomatic initiatives and relations with global actors. Speaking at this panel discussion, Assoc. Prof. Orkhan Valiyev emphasized that against the backdrop of the changing system of international relations, Azerbaijan and Türkiye can protect their national interests only through mutual strategic support, and in this direction, diplomatic coordination, security cooperation and regional initiatives are of particular importance.

In conclusion, the roundtable participants stated that Azerbaijan-Türkiye relations are a model of alliance based on common national identity, historical ties and cultural factors, as well as real security and economic interests. Current geopolitical changes necessitate further strengthening of this model and its orientation to new areas.

## DEPARTAMENT MÜDİRİNİN İŞTİRAKI İLƏ *AZTV*-DƏ NÖVBƏTİ ANALİTİK PROQRAM YAYIMLANMIŞDIR

## ANOTHER ANALYTICAL PROGRAM FEATURING DEPARTMENT DIRECTOR PARTICIPATION BROADCAST ON *AZTV*

Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu Azərbaycan Dövlət Televiziyasının "Hədəf" verilişində analitik proqramla çıxış etməkdədir.

2025-ci il iyunun 5-də "Hədəf" verilişində növbəti analitik proqram yayımlanıb. Proqramda Türkiyə–Azərbaycan–Pakistan ittifaqının strateji əhəmiyyəti müxtəlif aspektlərdən – iqtisadi, demoqrafik, siyasi və hərbi baxımdan təhlil edilib. Həmçinin, bu ittifaqın regional və qlobal güc balansına təsiri müzakirə olunub.

The director of the History and Archaeology Department, Associate Professor Telman Nusratoglu, has appeared on the Azerbaijan State Television's "Hedef" program with an analytical program.

On June 5, 2025, another analytical program was broadcast on the "Hedef" program. The program analyzed the strategic importance of the Türkiye-Azerbaijan-Pakistan alliance from various aspects – economic, demographic, political and military perspectives. Additionally, the impact of this alliance on the regional and global balance of power was discussed.

## DEPARTAMENT MÜDİRİNİN "İSTANBUL" VƏ "BAKI" MƏQALƏLƏRİ *FÜYUZAT.AZ*-DA

## DEPARTMENT DIRECTOR'S "ISTANBUL" AND "BAKU" ARTICLES ON *FÜYUZAT.AZ*

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin 2025-ci il mayın 6-da "İstanbul", iyunun 11-də isə "Bakı" adlı məqalələri *Füyuzat.az*-da dərc olunub.

Dos. Vəliyev ilk yazıda İstanbulun türk və müsəlman dünyası üçün tarixi, mədəni və mənəvi əhəmiyyətini vurğulayır.

Şəhərin türk-müsəlman xalqlarının köklərinə dönüş və mübarizə ruhunun öz əksini tapdığı bir yer olduğu qeyd edilir.

İkinci məqalədə müəllif Bakının dəyişən simasını şəxsi müşahidələrlə və ictimai reallıqlarla əlaqələndirərək, Bakının keçmişindən gələcəyinə bir körpü qurmağa çalışır.

On May 6, and June 11, Associate Professor Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, published two articles titled "Istanbul" and "Baku" respectively on *Fuyuzat.az*.

In the first article, Valiyev emphasizes the historical, cultural, and spiritual significance of Istanbul for the Turkish and Muslim world. The city is described as a place where the spirit of struggle, intellectual revival, and a return to the roots of the Turkic-Muslim peoples are reflected.

In the second article, the author connects Baku's changing urban face with his personal observations and social realities, attempting to build a bridge between the city's past and its future.

## "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDLƏRİ "XƏZƏR"DƏ

## "DUNYA" SCHOOL STUDENTS AT "KHAZAR"



İyunun 2-də Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarovanın dəvəti ilə 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Dünya" məktəbinin rus bölməsinin 3A sinif şagirdləri Xəzər Universitetində oldular.



*Lamiyə Hüseynova*

Tədbirdə Həyat elmləri departamentinin dosenti Dr. Cavid Ocaqi, departamentin müəllimi Gülafət Şəfiyeva, həmçinin 3A sinif şagirdləri ilə yanaşı, "Dünya" məktəbinin rus bölməsinin tədris işləri üz-

On June 2, upon the invitation of Dr. Jamala Eldarova, Director of the Department of Life Sciences, in connection with June 1 – International Children's Protection Day, students from grade 3A of the Russian section of "Dunya" school visited Khazar University. The event was attended by Dr. Javid Ocagi, Associate Professor of the Department of Life Sciences, department instructor Gulafat Shafiyeva, along with the 3A grade students, as well as Ilaha Huseynova, Deputy Director for Academic Affairs of the Russian section of "Dunya" school, class teacher Lamiya Huseynova,



*Gülafət Şəfiyeva*

and assistant teacher Madina Babayeva. This visit became both an educational and memorable experience for the students.




rə direktor müavini İlahə Hüseynova, sinif rəhbəri Lamiyə Hüseynova və köməkçi müəllim Mədinə Babayeva iştirak edirdilər. Bu səfər şagirdlər üçün həm maarifləndirici, həm də yaddaqalan bir təcrübə oldu.



Səfər çərçivəsində şagirdlər ilk olaraq Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad Hamlet İsaxanlı ilə görüşdülər. Şagirdlər ona Xəzər Universitetinin və "Dünya" məktəbinin yaranma tarixi, təhsil prinsipləri və gələcək imkanları ilə bağlı maraqlı suallar ünvanladılar. Hamlet İsaxanlı sualları böyük məmnuniyyətlə cavablandırdı və səmimi dialoq şəraitində şagirdlərin təhsili ilə maraqlanaraq, onlara dəyərli tövsiyələr verdi.

Eyni zamanda, şagirdlər öz əl işlərini Hamlet İsaxanlıya təqdim etdilər, şeirlər səsləndirdilər və mahnılar ifa etdilər. Onların hazırladığı bədii çıxış-

*(Ardı səh.32-də)*

During the visit, the students first met with the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli. The students addressed him with interesting questions regarding the history of establishment of Khazar University and "Dunya" school, educational principles, and future opportunities. Hamlet Isakhanli answered the questions with great pleasure and, taking interest in the students' education in a cordial dialogue atmosphere, gave them valuable recommendations.

Simultaneously, the students presented their handicrafts to Hamlet Isakhanli, recited poems, and performed songs. Their prepared artistic performances added a special festive atmosphere to the event.

Continuing the program, Dr. Gulbaniz Gasimova, Associate Professor of the Department of Life Sciences, provided visual information about various biolo-

*(To be continued page 32)*



lar tədbirə xüsusi bir bayram ab-havası qatdı.

Proqramın davamında Həyat elmləri departamentinin dosenti Dr. Gülbəniz Qasımova Universitetin laboratoriyasında şagirdlərə müxtəlif bioloji nümunələr haqqında əyani məlumatlar verdi. Şagirdlər çömçəquyruq və su ilanı kimi canlılarla tanış olaraq, müşahidə bacarıqlarını inkişaf etdirmək imkanı qazandılar. Həmçinin, müəllimlər şagirdlərə canlıların ətraf mühitdəki rolunu izah edərək, biomüxtəlifliyin qorunmasının vacibliyini vurğuladılar. Onlara heyvanlardan qorxmamaq, onları öldürməmək və təbiətə hörmətlə yanaşmağın əhəmiyyəti barədə tövsiyələr verdilər. Tədbir, xüsusilə görkəmli polimat alim Hamlet İsaxanlı ilə görüş, ali təhsil mühiti ilə tanışlıq şagirdlər üçün mənəvi zənginlik baxımından unudulmaz bir bayram hədiyyəsi oldu.

gical specimens to the students in the University's laboratory. The students had the opportunity to become acquainted with creatures such as tadpoles and water snakes, developing their observation skills.

Furthermore, the teachers explained to the students the role of living beings in the environment, emphasizing the importance of biodiversity conservation. They provided recommendations about the significance of not being afraid of animals, not killing them, and approaching nature with respect.

The event, particularly the meeting with the distinguished polymath scholar Hamlet Isakhanli and acquaintance with the higher education environment, became an unforgettable festive gift for the students in terms of spiritual enrichment.

## DEPARTAMENT MÜDİRİ NAYROBİDƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN KONSERTDƏ

## DEPARTMENT DIRECTOR AT CONCERT HELD IN NAIROBI ON AZERBAIJAN'S INDEPENDENCE DAY



*Azərbaycan incəsənət ustaları Xarici işlər naziri Ceyhun Bayramovla; soldan yeddinci Zülfiyyə Sadıqova*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov 2025-ci il iyunun 2-3-də Keniyada rəsmi səfərdə olmuşdur. Səfər zamanı nazir Keniya Respublikasının Prezidenti Vilyam Samoei Ruto və digər rəsmi şəxslərlə görüşmüş, paytaxt Nayrobidə Azərbaycan səfirliyinin açılışında iştirak etmişdir.

Səfər çərçivəsində iyunun 3-də Azərbaycanın müstəqillik gününə həsr olunmuş tədbirin bədii hissəsində Azərbaycanın incəsənət ustaları tərəfindən konsert proqramı təqdim olunmuşdur. Konsertdə Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçi Zülfiyyə Sadıqova da iştirak etmişdir.

As reported, Minister of Foreign Affairs of the Republic of Azerbaijan Jeyhun Bayramov was on an official visit to Kenya on June 2-3, 2025. During the visit, the minister met with President of the Republic of Kenya William Samoei Ruto and other official figures, and participated in the opening of the Azerbaijan embassy in the capital Nairobi.

Within the framework of the visit, on June 3, a concert program was presented by Azerbaijan's art masters during the artistic part of the event dedicated to Azerbaijan's independence day. The concert was also attended by the Director of the Music and Arts Department of Khazar University, honored teacher, and renowned pianist Zulfiyya Sadiqova.

# TƏLƏBƏLƏR VƏ ƏMƏKDAŞLAR LUNCHEF KATERİNQ ŞİRKƏTİNDƏ

# STUDENTS AND STAFF AT LUNCHEF CATERING COMPANY

İyunun 3-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin əməkdaşları, Turizm ixtisası üzrə təhsil alan III və IV kurs tələbələri, eləcə də Karyera və Məzunlar Mərkəzinin nümayəndələri Lunchef katerinq şirkətində sahə gəzintisində oldular. Tədbirin əsas məqsədi tələbələrin nəzəri biliklərini praktik mühitdə müşahidə etmələri, əmək bazarındakı aktual tələblərlə tanış olmaları və potensial karyera imkanlarını öyrənmələri idi.

Sahə gəzintisi zamanı iştirakçılar şirkətin fəaliyyəti ilə yaxından tanış oldular. Lunchef-in insan resursları və əməliyyatlar üzrə menecerləri tələbələrə şirkətin yaranma tarixi, missiyası, gündəlik iş prinsipləri, xidmət sahələri və müştəri portfeli haqqında ətraflı məlumat verdilər. Qeyd olundu ki, Lunchef Azərbaycanda korporativ katerinq xidmətləri sahəsində innovativ yanaşmaları ilə seçilən şirkətlərdən biridir. Şirkət müasir texnologiyalar, qida təhlükəsizliyi standartları və peşəkar komanda əsasında fəaliyyət göstərir.

Gəzinti zamanı şirkət nümayəndələri tələbələrin ünvanladığı sualları cavablandıraraq, bu sahədə karyera qurmağın real imkanlarından və çətinliklərindən də bəhs etdilər. Həmçinin, iki qurum arasındakı əməkdaşlıq çərçivəsində tələbələrin istehsalat təcrübəsi, birgə layihələrin, tədbirlərin həyata keçirilməsi məsələləri də geniş müzakirə olundu.

Tədbirin sonunda şirkətdə işləməkdə maraqlı olan bir sıra tələbələrlə ilkin müsahibələr keçirildi. Bu təşəbbüs tələbələr üçün real iş mühitinə inteqrasiya baxımından əhəmiyyətli oldu.



On June 3, organized by the Career and Alumni Center, staff members of Khazar University's School of Economics and Management, third and fourth-year students majoring in Tourism, as well as representatives of the Career and Alumni Center, participated in a field visit to Lunchef catering company. The main objective of the event was for students to observe their theoretical knowledge in a practical environment, familiarize themselves with current market demands, and explore potential career opportunities.

During the field visit, participants became closely acquainted with the company's operations. Lunchef's human resources and operations managers provided students with detailed information about the company's establishment history, mission, daily operational principles, service areas, and client portfolio. It was noted that Lunchef is one of the companies distinguished by its innovative approaches in the corporate catering services sector in Azerbaijan. The company operates based on modern technologies, food safety standards, and a professional team.

During the visit, company representatives answered questions addressed by students, discussing both real opportunities and challenges of building a career in this field. Additionally, within the framework of cooperation between the two institutions, matters regarding students' industrial practice, implementation of joint projects and events were extensively discussed. At the end of the event, preliminary interviews were conducted with several students interested in working at the company. This initiative proved significant for students in terms of integration into a real work environment.




## HƏYAT ELMLƏRİ DEPARTAMENTİ ƏMƏKDAŞLARININ MƏQALƏSİ "TURKISH JOURNAL OF AGRICULTURE AND FORESTRY" JURNALINDA

Xəzər Universitetinin Həyat elmləri departamentinin əməkdaşları - departament müdiri Dr. Cəmalə Eldarova və departamentin dosenti Dr. Cavid Ocaqinin "Allelic diversity of Azerbaijani bread wheat (Triticum aestivum L.) by SSR markers" adlı məqaləsi "*Turkish Journal of Agriculture and Forestry*" jurnalında dərc olunmuşdur (cild 49 (2025), sayı 2). Qeyd edək ki, "*Turkish Journal of Agriculture and Forestry* " jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Cari tədqiqat işində 6 fərqli növ müxtəlifliyinə aid 50 Azərbaycan mənşəli buğda nümunəsində genetik müxtəliflik SSR (simple sequence repeat) markerləri vasitəsilə tədqiq edilmişdir. İstifadə olunan 7 SSR praymeri əsasında ümumilikdə 42 müxtəlif allel aşkarlanmış, hər lokus üzrə orta hesabla 6 allel müəyyən olunmuşdur. Polimorfizm informasiya həcmi (PIC) 0.428 ilə 0.772 arasında dəyişmiş və bu, Azərbaycan mənşəli buğda nümunələrində zəngin genetik müxtəlifliyin mövcudluğunu göstərmişdir.

## ARTICLE BY LIFE SCIENCES DEPARTMENT STAFF AT "TURKISH JOURNAL OF AGRICULTURE AND FORESTRY"

Staff members of Khazar University's Life Sciences Department - Department Head Dr. Jamala Eldarova and Department Associate Professor Dr. Javid Ojaghi - have had their article titled "Allelic diversity of Azerbaijani bread wheat (Triticum aestivum L.) by SSR markers" published in the "*Turkish Journal of Agriculture and Forestry*" (Volume 49 (2025), Issue 2). It should be noted that the "*Turkish Journal of Agriculture and Forestry*" is indexed in the "Web of Science" and "Scopus" databases.

In the current research work, genetic diversity was investigated in 50 Azerbaijani wheat samples belonging to 6 different varieties using SSR (simple sequence repeat) markers. Based on the 7 SSR primers used, a total of 42 different alleles were detected, with an average of 6 alleles identified per locus. The polymorphism information content (PIC) ranged from 0.428 to 0.772, demonstrating the presence of rich genetic diversity in Azerbaijani wheat samples.

*Link: https://journals.tubitak.gov.tr/cgi/viewcontent.cgi?article=3273&context=agriculture*




## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ "INSIGHT TURKEY" JURNALINDA

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Discussing the 'New Türkiye' in the Context of Strengthening the State"("Dövlətin gücləndirilməsi kontekstində "Yeni Türkiyə"nin müzakirəsi") adlı məqaləsi "*Insight Turkey*" jurnalında dərc edilmişdir (2025-ci il, Cild 27, say 3). "*Insight Turkey*" Scopus elmmetrik bazasına daxil Q3 quartallı jurnaldır və SETA Foundation tərəfindən nəşr edilməkdədir.

Dos. Vəliyev məqalədə "Yeni Türkiyə" strategiyasını təhlil edir və Türkiyənin son illərdə klassik cümhuriyyət ideallarına deyil, regional və qlobal səviyyədə daha güclü, praqmatik dövlət modelinə yönəldiyini vurğulayır. Məqalədə, həmçinin, qloballaşma və neoliberalizmin milli suverenliyə təsiri fonunda müasir dövlətçilik və millətçiliyin necə yenidən formalaşdığını araşdırılır.

*Discussing the 'New Türkiye' in the Context of Strengthening the State, Early View Orkhan Valiyev | Insight Turkey*

## DEPARTMENT HEAD'S ARTICLE IN "INSIGHT TURKEY" JOURNAL

The article "Discussing the 'New Türkiye' in the Context of Strengthening the State" by Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, was published in the journal "Insight Turkey" ("*Insight Turkey*", June 2, 2025, Vol. 27, No. 3). "*Insight Turkey*" is a Q3 quarterly journal included in the Scopus scientific database and is published by the SETA Foundation.

Assoc. Prof. Valiyev analyzes the "New Türkiye" strategy in the article and emphasizes that Türkiye has been moving towards a stronger, more pragmatic state model at the regional and global levels rather than classical republican ideals in recent years. The article examines how modern statehood and nationalism are being reshaped against the backdrop of globalization and the impact of neoliberalism on national sovereignty.

*Discussing the 'New Türkiye' in the Context of Strengthening the State, Early View Orkhan Valiyev | Insight Turkey*

# "DAYANIQLI ŞƏHƏR LAYİHƏSİ" ÜZRƏ MULTİDİSİPLİNAR MƏKAN PLANLAŞDIRMA TƏLİMİ





*Hamlet İsaxanlı*

# "SUSTAINABLE CITY PROJECT" MULTIDISCIPLINARY SPATIAL PLANNING TRAINING

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (EATDA) SABAH qruplarının İcra Komitəsi və Türkiyənin Ufuk Planlama şirkətinin təşkilatçılığı ilə 30 may-3 iyun tarixində Xəzər Universitetində "Bir Başqa Təhsil, Bir Başqa Şəhər" layihəsi çərçivəsində "Dayanıqlı şəhər layihəsi" üzrə Multidisiplinar məkan planlaşdırma təlimi keçirilmişdir.

Təlimin əsas məqsədi şəhərlərin dayanıqlı inkişafı, müasir planlaşdırma metodlarının öyrənilməsi





The State Agency for Science and Higher Education (SASHE), the Executive Committee of SABAH groups, and Türkiye's Horizon Planning company organized a Multidisciplinary Spatial Planning Training on "Sustainable City Project" within the framework of the "Another Education, Another City" project at Khazar University from May 30 to June 3.

The main objective of the training was to promote sustainable urban development, study modern planning methods, and

və tələbələrin praktiki bilik və bacarıqlarının artırılmasıdır.

Layihədə Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) SABAH qrupları, Xəzər Universiteti, Orta Doğu Texniki Universiteti (ODTÜ), Yıldız Texniki Universiteti (YTU), Ankara Universiteti, İstanbul Universiteti və Türkiyənin digər nüfuzlu ali təhsil müəssisələrinin tələbələri iştirak ediblər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı açılış nitqi söyləmişdir. Nizami Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Konul Həsənova, Ufuk Planlama şirkətinin təsisçisi və Ankara Universitetinin Landşaft memarlığı de-




*Elza Səmədova*

partamentinin müəllimi Dr. Necla Kılınç, AzMİU Beynəlxalq əlaqələr üzrə prorektoru Prof. Nərgiz Abdullayeva, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Ali təhsil müəssisələri ilə iş sektorunun müdiri, SABAH qruplarının İcra Komitəsinin rəhbəri Dos. Elza Səmədova çıxış etmişlər.

Xəzər Universitetindən Memarlıq və dizayn ixtisasları üzrə IV kurs tələbələri Cəmilə Səfərova, Nuray Hüseynli, Günay Qədirli, III kurs tələbələri Aydan Səfərova, İlahə Həsənli, Heydər Xudaverdiyev, Fidan Mustafayeva, Röya Həmidova və Memarlıq ixtisası üzrə I kurs tələbələri Cəfər Əliyev, Mehin Qəhrəmanzadə, Selcan Ərəbxanlı təlimlərdə iştirak etmişlər.

Təlimlərin məhsuldarlığını artırmaq məqsədilə təlimçi və mütəxəssislərin çıxışları mütəmadi şə-

*(Ardı səh.38-də)*



*Konul Həsənova*

enhance students' practical knowledge and skills.

Students from the SABAH groups of Azerbaijan University of Architecture and Construction (AzUAC), Khazar University, Middle East Technical University (METU), Yıldız Technical University, Ankara University, Istanbul University, and other prestigious higher education institutions from Türkiye participated in the project.

Professor Academician Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, delivered the opening speech. First Deputy Head of Nizami Dis-



*Nərgiz Abdullayeva*

trict Executive Authority Konul Hasanova, founder of Horizon Planning company and lecturer at Ankara University's Department of Landscape Architecture Dr. Necla Kılınç, Vice-Rector for International Relations at Azerbaijan University of Architecture

*(To be continued page 38)*




*Halim Perçin*

kildə davam etdirilmişdir. Türkiyənin Ufuk Planlama şirkətindən Dr. Necla Kılınç, Prof. Dr.Halim Perçin, Kübra Ergül, Hakan Mutlu və Muzaffer Topak, eləcə də Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin müəllimləri – İlahə Təhməzli, Sevinc Həsənova, Dos. Xəzər Zeynalov, SABAH qruplarının müəllimləri – Prof. Yeganə Hacıyeva və Teymur İsazadə müxtəlif mövzularda məruzə etmişlər.

Eyni zamanda, Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin müəllimləri – Dos. Şəhla Abbasova, Sevinc Həsənova, İlahə Təhməzli və Günay Məmmədova studiya işləri zamanı tələbələrə layihə üzrə metodiki məsləhətlər vermiş və onları təlim müddətində yaxından dəstəkləmişlər.

Təlim çərçivəsində ümumilikdə 5 layihə hazır-

and Construction Prof. Nargiz Abdullayeva, and Director of the Higher Education Institutions Sector at the State Agency for Science and Higher Education and Head of the Executive Committee of SABAH groups Associate Prof. Elza Samadova made presentations.

Fourth-year students in Architecture and Design from Khazar University - Jamila Safarova, Nuray Huseynli, Gunay Qadirli; third-year students Aydan



*Necla Kılınç*

Safarova, Ilahe Hasanli, Heydar Khudaverdiyev, Fidan Mustafayeva, Roya Hamidova; and first-year Architecture students Jafar Aliyev, Mehin Qahramanzade, and Seljan Arabkhanli participated in the training.

To enhance the productivity of the training sessions, presentations by trainers and specialists were conducted regularly. Dr. Necla Kılınç, Prof. Dr. Halim



lanaraq, təqdim olunmuşdur. Təlimdə iştirak edən müəllim və tələbə heyətinə sertifikatlar təqdim edilmişdir.

Qeyd edək ki, bu əhəmiyyətli təşəbbüs AzMİU-nun



*Sevinc Həsənova*

50 illik yubileyinə həsr olunmuşdur və layihə dövlət və özəl sektorlar arasında əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bu cür beynəlxalq və multidisiplinar əməkdaşlıq gənc mütəxəssislərə şəhərsalma və davamlı inkişaf sahəsində geniş perspektivlər qazandırır.



*İlahə Təhməzli*

Perçin, Kübra Ergül, Hakan Mutlu, and Muzaffer Topak from Türkiye's Horizon Planning company, as well as lecturers from Khazar University's Architecture and Design Department - Ilahe Tahmazli, Sevinj Hasanova, Associate Prof. Khazar Zeynalov, and SABAH groups lecturers Prof. Yegane Hajiyeva and Teymur Isazade delivered presentations on various topics.

Additionally, lecturers from Khazar University's Architecture and Design Department - Associate Prof. Shahla Abbasova, Sevinj Hasanova, Ilahe Tahmazli, and Gunay Mammadova provided methodological guidance to students on the project during studio work and closely supported them throughout the training period.

In total 5 project were prepared and presented in the scope of training. Certificates were presented to faculty members and students who participated in the training.



*Xəzər Zeynalov*



It should be noted that this significant initiative is dedicated to AzUAC's 50th anniversary, and the project is implemented within the framework of cooperation between public and private sectors. Such international and multidisciplinary collaboration provides young specialists with broad perspectives in urban planning and sustainable development.




Hamlet İsaxanlı

# İSMİXAN YUSUBOV – ZAMANI VƏ MƏKANI AŞAN XATİRƏLƏR

*Dostu olmayan insan yoxdur. Adam olanın dostu olar. Səməd Vurğun demişkən, "mən də bir insanam, mən də canlıyam" və mənim də dostlarım var. Dost böyük nemətdir. "Hər şeyin təzəsi, dostun köhnəsi" atalar sözü ataların (həmçinin anaların!) çoxəsrlik, hətta çoxminillik həyat təcrübəsindən yaranıb, burada zamanın uzun sınağından keçən dostdan, "köhnə dost"dan söhbət gedir.*

## ƏSGƏRLİKDƏN GƏLƏN TƏLƏBƏ VƏ İXTİSAS SEÇMƏ DAVASI

Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika və riyaziyyat fakültəsində oxuyurdum. 1967-68-ci dərs ilinin dekabr-yanvar aylarında, 3-cü kursun ortalarında, başımız dərslərə və imtahan həyəcanına qarışanda İsmixan Yusubov adlı kiçik boylu, xoşsifət, sakit, amma özünə güvənən, deyilənə görə savadlı bir yoldaşın əsgərlikdən qayıdıb bizimlə bir oxuyacağını eşitdik.

Mənim bu yazım İsmixana həsr olunub. Amma, istər-istəməz, əsərin "qəhrəman"larından biri də mən olacam, çünki tanışlığımız, yoldaşlığımız və dostluğumuzdan, məşğul olduğumuz işlərdən, birlikdə başımıza gələn əhvalatlardan söhbət açmalı olacam.

Mövcud qaydalara görə ixtisaslaşma dövrü gəlmişdi, beş illik təhsil müddətinin ikinci yarısında ümumi dərslərə davam etməklə yanaşı, hər tələbə təklif olunan riyazi sahələrdən birini seçməli, bu sahədə ixtisaslaşmalı idi. Mən "funksional analiz" adlanan sahə ilə məşğul olmaq istəyirdim, lakin təklif olunanlar arasında bu yoxdu. Tələbə yoldaşlarım Abbas Əzimov və Fərhad Hüseynov da mənimlə eyni fikirdə olduqlarına görə "bizə Funksional Analiz ixtisası açın" deyə xahiş etməyə başladıq. Mənim o zaman yazdığım gündəlik qeydlərimə görə fevralın 10-u (1968-ci il) dekanımız Ələddin Mahmudova müraciət etdik və digər yerlərə getdik. Əvvəl bizə söz verdilər, "gözləyin" dedilər, sonra, yenə mənim gündəliyimə görə fevralın 15-də "funksional analiz üzrə ixtisas qrupu açılması haqqında xahişimizi qəti rədd etdilər". Əsas səbəb göstərildi: Funksional Analiz və Funksiyalar Nəzəriyyəsi kafedrasında artıq "Psevdo-analitik funksiyalar" adlı ixtisas açılması barədə qərar qəbul edilmişdir və bir kafedrada eyni zamanda

iki ixtisas açıla bilməz. "Funksional analiz" arzusunda olanlar seçim etməli oldular; yoldaşlarım professor Qoşqar Əhmədovun dərs deyəcəyi "Optimal idarəetmə" ixtisası tərəfə yönəldilər, mən isə heç olmazsa gələcəkdə funksional analizlə məşğul olmaq imkanı naminə uyğun kafedranın təklif etdiyi və dosent Arif İsmayılovun dərs verəcəyi "Psevdo-analitik funksiyalar" ixtisasını seçdim. Gündəliyim mənim və yoldaşlarımın "Funksional analiz" fikrindən əl çəkə bilmədiklərini deyir: "27 Fevral. Bugün prorektor Rüstəm Sultanova ərizə yazıb, funksional analiz qrupunun açılmasını xahiş etdik. O, razı oldu". Amma, yenə gündəlikdəki qeydə görə, 28-29 fevral günləri dekanımız Ələddin müəllimlə iki görüşümüzdən bir şey çıxmadı, iş bitdi.

Məhz bu arada İsmixanla yaxından tanış olmağa başladıq. İxtisas seçimində İsmixanla bir olduq. Söhbətimiz tutdu. Xasiyyətimizdə, maraq dairələrimizdə və kəndistan təbiətimizdə yaxınlıq, bölgə və ləhcəmizdə eynilik vardı. O, klassik güləşlə, mən sərbəst güləşlə məşğul olmuşduq. Ümumi şahmat marağımız da vardı, mən futbol da oynayırdım.

İsmixan, yəqin ki, təbii ki, qəribə hisslər keçirirdi. Əsgərlikdən qayıdanda bir zaman bərabər oxuduğu, gün keçirdiyi, dostlaşdığı tələbə yoldaşlarını görmədi, onlar universiteti bitirib hərəsi bir tərəfə getmişdi və İsmixan yeni, heç tanımadığı tələbələrlə sıfırdan yoldaşlıq etməli olmuşdu.

İsmixan 3-cü kursda dərsə başlamaq üçün əsgərlikdən əvvəlki tədris planında olmayan bəzi fənlərdən (məsələn, bizim birinci ildə keçdiyimiz "riyazi məntiq" fənnindən) "fərq imtahanı" verməli olmuşdu. Bu yolda bürokratik əngəl, süni maneə və etinasızlıqla üzləşmiş, əsəbiləşmişdi. İsmixanı yaxşı tanıyan Arif müəllim İsmayılov onu sakitləşdirmiş, təbii ki, yaxşı hazırlaşmış olan İsmixanın işi yoluna düşmüş və o, sonda bizə qoşulmuşdu.

## OXUYAN, ÖYRƏNƏN, ... GÜLƏŞƏN ƏSGƏR

Məlum oldu ki, İsmixan məndən 3 il əvvəl, 1962-ci ildə bu fakültəyə qəbul olunub, ən yaxşı oxuyanlardan biri olub, üstəlik idmançı, komsomolçu, təşkilatçı imiş, amma 3-cü kursda ikən dərsini yarımçıq qoyub onu əsgəri (hərbi) xidmətə - "əsgərliyə" aparıblar. O, Sovet vətənimizin paytaxtı Moskvada, "stroybat"da (строительный батальон, yəni tikinti-təmir ilə məşğul olan batalyon`da) xidmət edib, dülgər və parketçi olub! O zamanlar əsgəri xidmət üç il çəkirdi. Əsgərlik ona nə verdi, ondan nə aldı, nə apardı?! Çətin sualdır. Bir tərəfdən yaxşı, ləzzətlə oxuduğu ali təhsildən ayırıb və bu mənada sözsüz onu geri salıb əsgərlik. Sonralar yuxularında onu yenidən əsgər aparmaq istədiklərini görmüş, "axı mən 3 il əsgər olmuşam, bəs deyilmi?!" deyə etiraz etmiş, yuxusunda həyəcan keçirmişdi. Digər yandan bu güclü, istedadlı və çalışqan gənc maraqlı bir əsgərlik həyatı yaşayıb, əslində "əsgərlik həyatını maraqlı edə bilib" ifadəsi bəlkə daha doğrudur. Gənc İsmixan bir kişilik məktəbi keçib əsgərlikdə, təhsil həyatında görə bilməyəcəyi və gələcək yaradıcı həyatında silinməz iz buraxan, maraqlı xatirələrə çevriləcək bir mühitə düşüb. Bu gənc o mühitə borclu qalmayıb, onu öz qabiliyyəti ilə zənginləşdirib. Bir də əsgərlikdə çox dost qazanıb. Xidmət etdiyi qarnizonda əksəriyyət riqalı latışlar olub, bəlkə də buna görə o bir yazısında Riqanı "arzumun şəhəri" kimi anmışdı. Çoxsaylı latış dostları sırasında Aqris Redoviç və kompüter-proqramlaşdırma mütəxəssisi İvar Elert ilə sıx münasibəti olmuş, illər keçmiş, əsgər dostları ilə əlaqəni bərpa etmiş, onlarla sevinc-kədəri bölüşmüş, yazışmış, bu yazılar kitablara dönüşmüşdür.

Bir qədər qəribə səslənsə də (görünsə də), İsmixan, elmi-pedaqoji baxımdan zəngin əsgərlik həyatı yaşamışdır. Yorulmadan oxumaq, oxumaqdan həzz almaq, beynini və ruhunu doydurmaqla məşğul olmuşdur. Riyaziyyat, fizika və təbiətşünaslıq üzrə müəyyən dərslikləri və çox sayda elmi - populyar və əlbəttə bədii ədəbiyyatı oxumuş, öyrənmişdir. Sovet dövrünün ən tanınmış elmi-populyar jurnalı olan «Наука и жизнь» (Elm və həyat) jurnalına əsgərlikdə abunə yazılmış (!), «Наука и техника» (Elm və texnika), «Наука и религия» (Elm və din), «Наука-сила» (Elm-gücdür), «Знание-сила» (Bilik-gücdür), «Вычислительная техника» (Hesablama texnikası), «Электроника» (Elektronika), «Юность» (Gənclik) kimi elmi-populyar jurnalları

oxumağa girişmişdir! İsmixan işləyir, kiçik maaşını alan kimi həmən kitab mağazasına cumur, çantası olmadığına görə kitabları alıb qoltuğuna vurur, hərbi hissəyə qayıdırdı. Kitab almaq üçün borca da girmiş, bəzən də dostları kitab alıb ona bağışlamışlar. İsmixan əsgərlikdə kitab çantası almaq istəmiş, lakin ala bilməmişdi; kitab-dəftərlə oturub-duran adam üçün çanta zəruri əşyadır.

İsmixan riyaziyyat öyrənmək istəyən əsgər yoldaşlarına kömək edir, özü də onlardan elektron-hesablama maşınları barədə öyrənməyə çalışırdı. O, əsgərlikdə həyatın hər tərəfini görməyə, duymağa can atır, bədənini, beynini və zövqünü oxşayan hər şeyi sınaqdan keçirir, sevdiyi alman dilini də unutmur, təkrar edir, film seyr etməkdən də həzz alırdı.

Əsgərlikdə klassik güləş üzrə "Dinamo" idman cəmiyyətinin çempionu olub, bu münasibətlə ona verilən məzuniyyət zamanı özü ilə Bakıya bir çanta və bir çamadan kitab gətirib. Əsgərliyi bitirib qayıdanda da İsmixanın əsas yükü, təbii ki, kitablar idi. İsmixanı müşayiət edən əsgər dostları maşın tapıb böyük kitab yeşiyini Kursk vağzalından yola düşəcək Moskva-Bakı qatarına çatdırdılar, lakin yük 80 kiloqramı aşdığına görə (100-120 kiloqram imiş?!) baqaja götürmədilər. Dostlar "İsmixan, narahat olma, kitabları göndərəcəyik, sənə yaxşı yol!"– deyə İsmixanı qucaqlarına alıb vaqona mindirdilər. İki gün sonra İsmixan doğma Bakıya çatdı, bir həftə sonra isə sevimli kitab yeşiyi də gəldi.

## QƏRİBƏ FUNKSİYALAR, "LİPA" VƏ "GÜNDƏLİK"DƏKİ İSMİXAN

Beləliklə, İsmixan, mən, Səlyanlı Fəxrəddin Axundov`un da daxil olduğu bir dəstə 3-cü kurs riyaziyyatçı tələbə "Psevdo-analitik funksiyalar" ixtisasını seçdi. Riyaziyyatdan və riyaziyyatçıdan söhbət açanda və ya yazanda dinləyici və ya oxucuların müəyyən hissəsinin riyaziyyatçı, fizik və ya mühəndis olacağı yəqindir; bu halda müəyyən "riyaziləşmə" olmadan, riyazi terminlərdən istifadə etmədən danışmaq və yazmaq, mümkün olsa belə, təbii deyil, yaxşı olmaz!

Arif müəllim ilk dərsə başlayanda psevdo-analitik funksiyalar nəzəriyyəsini amerikalı riyaziyyatçı Lipman Bers`in yaratdığını (1914-1993) və onun 1953-cü ildə bu barədə kitab yazdığını dedi. İsmixanın özbək dostlarının köməyilə bu kitabın sürətini (fotolentini) əldə etdik: Lipman Bers. Theory of Pseudo-analytic Functions. New York University Press, 1953. Mənim 1968-ci ildə yazdığım tələbə gündəliyim aprel ayında bu kitabı kağız üzərinə endirməklə məşğul olduğumuzu göstərir: "4 aprel. Özbəkistandan ixtisasa aid L. Bers`in işlərini gətirdilər". Sonra "13 aprel. Dərsdən çıxdıqdan sonra Fəxrəddinlə gedib İsmixandan Bers`in işlərinin lentini aldıq və axşam 9-a kimi bir nüsxə çıxara bildik. Çox yoruldum" və nəhayət, "24 aprel. Dərsdən bir az tez çıxıb Fəxrəddinlə fotokağız aldıq və Bers`in psevdo-analitik funksiyalara aid işindən bir nüsxə çıxardıq (axşam saat 8-ə kimi)". Fəxrəddinin yaxşı foto-aparatı vardı. Kitabın fotolentindən fotokağız üzərinə şəkil – foto surət çıxarmaqdan başqa əlacımız yoxdu; o zamanlar nə personal kompüter, nə printer, nə surət (ksero kopiya / xero copy) çıxaran maşın-aparat vardı. L. Bers`in kitabı ingiliscə, mənim xarici dilim fransızca, İsmixanınkı isə almanca idi. Buna baxmayaraq, kitabı oxuyub anlamaqda çətinlik çəkmədik - oxumaq, anlamaq üçün vacib olan ingilis dili deyildi, riyazi dil idi.

L. Bers`in kim olduğuna o vaxt xüsusi fikir verməmişdik. O, Riqa şəhərində ("İsmixanın arzular şəhəri"ndə!) yəhudi ailəsində doğulmuş, ali təhsilini Zürich və Riqa universitetlərində, doktorluq (PhD) dərəcəsini Çarlz Praqa (Charles Prague) universitetində almış, bir qədər Parisdə yaşadıqdan sonra 1940-cı ildə ABŞ-a köçmüş, ali məktəblərdə – sıra ilə Brown, Syracuse, Princeton universitetlərində, Kurant (Courant) institutunda və təqaüd öncəsi son 20 ili (1964-1984) Columbia universitetində, təqaüddən sonra isə New York City Universitetində işləmişdi. L. Bers Amerika riyaziyyat cəmiyyətinin vitse-prezidenti və prezidenti olmuşdu. Psevdo-analitik funksiyalar nəzəriyyəsini yaratmaqla yanaşı Riman fəzaları, Teichmüller nəzəriyyəsi və Klein qrupları üzrə dərin elmi nəticələr almışdı. Bers`ə dostları və yaxınları "Lipa" deyə mü-

raciət edirdilər. O, insan haqlarının müdafiəsi üçün də çox iş görmüş, geniş tanınmışdı. A. Dvoretskiy onun haqqında belə yazmışdı: "O, göy üzündəki Günəş kimi nəhəng işıq saçırdı".

L. Bers 1940-cı illərdə izinə düşdüyü psevdo-analitik funksiyalar nəzəriyyəsini 1950-53-cü illərdə tamamlamış,1956-cı ildə bu nəzəriyyənin yeni xülasəsini vermişdi (*An outline of the theory of pseudo-analytic functions. Bulletin of the American Mathematical Society, 62, 1956, p. 291-331*). İsmixanla mən bu məqaləni də əldə etmişdik.

Yeri gəlmişkən, "psevdo" (yunanca: pseudes) sözü isim və sifət kimi "yalan", "saxta", "əsl olmayan" deməkdir. Əsl olmayan ad, taxma ad mənası verən "psevdonim" sözü də bu kökdəndir. Elmi ədəbiyyatda "əsl olmayan", "bənzər", "imitasiya" mənalarında işlənilir; "psevdo-analitik" funksiya analitik olmayan, analitikə bənzər, yəni analitik funksiyanın ümumiləşməsi mənası verir.

Klassik analitik funksiyanın həqiqi və xəyali hissələri klassik Koşi-Riman (Cauchy-Riemann) tənliklər sisteminin həlli olduğu kimi, psevdo-analitik funksiyalar da ümumiləşmiş Koşi-Riman tənliklərinin həlli ilə bağlıdır.

1968-ci il gündəliyimdə yeni tanışım İsmixan barədə qeydlər var: "26 mart. Bugün Dedonne`nin kitabı üzrə 1-ci seminarımız oldu. 8 nəfər uşaq idik. Məmmədağa məruzə etdi.Çox maraqlı və canlı keçdi (Mən, Məmmədağa, İsmixan, Elman, Ədalət, Şahvələd...)". İzaha ehtiyac var. Görkəmli fransız riyaziyyatçı J. Dieudonne "Foundations of Modern Analysis" adlı kitab yazmış, kitab ingiliscədən ruscaya tərcümə edilmişdi (*Ж. Дьедонне. Основы Современного Анализа. Издательство «Мир», Москва, 1964*). Mən bu kitabı öyrənmək üçün seminar düzəltmişdim. Göründüyü kimi, İsmixan da bu seminarın üzvü idi.

Gündəliyimdə İsmixanla bağlı daha iki qeyd var: "1 aprel. Dərsdən sonra İsmixanla (Y) Nizami kinoteatrına getdik («Anna Karenina»ya baxmaq üçün), amma daha bu kino getmədiyi üçün qayıtdıq". Mötərizə içindəki "Y" Yusubov deməkdir, İsmixan adlı bizimlə oxuyan daha bir yoldaşımız və dostumuz vardı, soyadı Abdullayev idi. Digər qeyd: "3 iyun: Bütün günü Abbas, İsmixan və mən Lenin kitabxanasında imtahana (Pedaqogika – H.İ.) hazırlaşmışıq. Günorta birlikdə yeyib, axşam «Pəncərədəki qız» kinosuna baxdıq". Gündəliyim tələbə vaxtı ən çox getdiyimiz yerləri göstərir: universitet, kitabxanalar, imtahana hazırlaşmaq üçün getdiyimiz Sabir bağı, Pionerlər bağı (indiki Filarmoniya bağı) və bulvar, kinoteatrlar, kitab mağazaları və şəxsi görüş yerləri.

## KOMPLEKS SİFƏTLİ DÜNYA VƏ DƏHŞƏTLİ XƏSTƏLİK

Beləcə İsmixanla çiyin-çiyinə irəliləməyə başladıq. Psevdo-analitik funksiyalarla tanışlıq sevdiyimiz klassik analitik funksiyalarla məşğul olmaq həvəsimizi daha da artırdı. Bu arada Stoilov adlı rumın riyaziyyatçının ruscaya tərcümə olunmuş ikicildlik yaşıl üzlü kitabı əlimizə keçdi (*Стоилов С. Теория функций комплексного переменного. Т.1-2. Издательство Иностранной литературы, Москва, 1962*). Stoilovun rus müəlliflər - Privalov, Evqrafov və Markuşeviçdən fərqli (məsələn, topoloji) yanaşması xoşumuza gəlmişdi, onu oxumağa girişdik. Riyaziyyatın ən gözəl sahələrindən biri olan kompleks analizə maraqdan əlavə tələbə vəzifəmiz də vardı: Arif İsmayılov bizə həm də "Kompleks dəyişənli funksiyalar nəzəriyyəsi" fənni üzrə mühazirə oxuyurdu.

6-cı semestri imtahanlarla tamamladıq və yay tətilini hərə öz bildiyi yerdə öz bildiyi kimi keçirdi. Mən həmişəki kimi kəndimizə getdim, ordan da ailəmizlə Ermənistana, biz tərəflərin ənənəvi Qaraxaç yaylağına üz tutduq.

Yayda, avqustun sonuna yaxın İsmixanın başına dəhşətli iş gəlib. Yeməkdən zəhərlənib, halı pisləşib və təcili yardım çağırmalı olublar. Həkimin vurduğu iynə İsmixanı daha pis vəziyyətə salıb, qan infeksiyası və dərialtı toxumalarda irinli yoluxma baş verib. Böyük qardaşı Nəcəf özünü yetirməsə, onu təcili Semaşko xəstəxanasına aparmasa və orada yaxşı həkimin, cərrahın əlinə düşməsə, onun çoxqat cərrahi müdaxiləsinə hədəf olmasa, vəziyyət çox pis ola bilərmiş.

Çox arıqlamış, ağrılardan çox əziyyət çəkmiş, amma noyabrın ortalarında köks ötürüb "şükür!" demək mümkün olmuşdu. İsmixan həyata qayıtdı, yaşadı! Qarşıda onu gözəl ailə, yaradıcı həyat, uzun və mənalı ömür gözləyirmiş.

İxtisas dərslərinə başlayandan bir qədər sonra mən istər-istəməz psevdo-analitik funksiyalar nəzəriyyəsinə bənzər riyazi məsələlərin varlığı-yoxluğu ilə maraqlanmağa başladım. Mənim elm tarixinə xüsusi marağım da işə yaradı. Məlum oldu ki, 1952-54-cü illərdə L. Bers`dən asılı olmadan görkəmli gürcü riyaziyyatçı İlya N. Vekua "Ümumiləşmiş analitik funksiyalar" adı ilə bənzər nəzəriyyə yaratmış, onun tətbiqləri ilə də məşğul olmuş, nəticədə «Обобщенные аналитические функции» (Ümumiləşmiş analitik funksiyalar) adlı monoqrafiya nəşr etdirmişdir *(Изд-во Физико-математической литературы, 1959).* Ukraynalı riyaziyyatçı Q.N. Polojiy (Г.Н. Положий) də 1947-1953-cü illərdə analitik funksiyaları "p – analitik və (p, q) – analitik funksiyalar nəzəriyyəsi" adı altında bir növ ümumiləşdirməyə çalışmışdır; L. Bers onun işlərindən təsirləndiyini yazır.

Mən yay vaxtı analitik funksiyaların müxtəlif ümimiləşmələri, o cümlədən psevdo-analitik funksiyalar nəzəriyyəsi haqqında düşüncələri davam etdirib gələcək elmi həyatımı bu sahə ilə bağlamamaq qərarına gəldim. Analitik funksiyaların mənə az-çox tanış olan bütün ümumiləşmələri sanki donmuş və ya bitmiş vəziyyətdə görünürdü mənə. Məni qane edə bilən, xoşuma gələn, daha dinamik bir sahə arzusunda idim. Öz-özümə funksional analiz olmasa, funksiyaların yaxınlaşma nəzəriyyəsi və ya bir az məlumatım olan digər sahələr haqqında, həmçinin kiminlə, hansı alimlə məşğul ola biləcəyim barədə düşünürdüm.

## GƏNCƏ, SPEKTR VƏ CƏLİLABAD

Universitetdə dördüncü ilimiz İsmixan üçün ağrılarla və gec başladı. Bu il mənim üçün də sadə olmadı, "nə etməli?" sualı qarşısında qalmışdım. Bu arada Moskvadan Mirabbas Qasımov adlı gənc elmlər doktorunun Bakıya gəldiyi və "Operatorların spektral nəzəriyyəsi" adlı elmi seminar elan etdiyi xəbəri yayıldı. Bu seminara mən də getdim. Məlum oldu ki, analitik funksiyalara aid biliklərim burada işə yarayacaq, lakin çox oxumaq, çox öyrənmək lazım gələcək. Təbii ki, psevdo-analitik funksiyalar üzrə mühazirələrə də gedəcəm, öyrənib imtahan verəcəm. Beləcə davam etdim. 4-cü ili bitirəndə bizi – tələbələri Gəncə şəhərinə iki aylıq hərbi xidmətə apardılar. Lakin İsmixan bizimlə getmədi, İsmixanı, tam sağalsa da, keçirdiyi xəstəliyə görə hərbi xidmətə yararsız hesab etdilər. Hayıf. Gəncə əsgərlik həyatımız çox maraqlı keçdi.

Universitet təhsilimizin 5-ci, sonuncu ili başlandı (o zaman ilkin universitet təhsili 5 illik idi, Sovet universitetlərini bitirən xarici ölkə vətəndaşlarına magistr dərəcəsi diplomu verilirdi). Mən Mirabbas müəllimlə "öz-özünə qoşma olmayan operatorlar nəzəriyyəsi" sahəsində diplom işi üzərində çalışmağa başladım. İsmixan nədənsə diplom işini deyil, onun alternativini - dövlət imtahanı verməyi seçdi. Mart ayında universiteti bitirəcək bizləri iş yerinə göndərmək barədə təyinat toplantısı oldu. "Kim haranı istəyir? deyə müraciət edib, yaxşı oxuyanlara "hə" dedilər, lakin, sonra, əksər hallarda, sözdən qaçdılar. İsmixan təyinat toplantısına gəlməmişdi (sonra məlum oldu ki, xəstə yatan anası vəfat etdiyinə görə).

Universiteti bitirdik. Mən Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda imtahan verib, aspiranturaya daxil oldum və Lomonosov Moskva Dövlət Universitetinə göndərildim, orada müsahibədən keçib, Mexanika-Riyaziyyat fakültəsinin Funksional analiz və funksiyalar nəzəriyyəsi kafedrasında professor A.Q. Kostyuçenko`nun rəhbərliyi altında oxuma və araşdırma həyatına qədəm qoydum. İsmixan öz istəyi ilə Cəlilabaddakı internet-məktəbdə riyaziyyat və fizika müəllimi kimi işləməyə başladı. İşin bir xoş tərəfi vardı: Cəlilabadlı tələbə yoldaşımız Səmədağa da öz rayonuna göndərilmişdi, İsmixan tək qalmayacaqdı. Səmədağa bugün də bizimlədir, gəlir – gedir, məmnuniyyətlə görüşürük, zəng edir, hətta İsmixanla birlikdə məqalə yazır.

# ƏDƏDİ OBLAST, İSMİXAN VƏ MƏN



"Cəlilabadnamə"dən sonra İsmixan Bakıya qayıdıb, öz universitetində aspiranturaya daxil oldu. 1974-cü ilin payızında İsmixan universitetin fizika fakültəsi nəzdində fəaliyyət göstərən riyaziyyat kafedrasında işləməyə başladı. Mən bir il əvvəl namizədlik (indiki – PhD) dissertasiyası müdafiə edib, Riyaziyyat və Mexanika institutunda işləyirdim. Eyni zamanda, universitetdə dərs deyir, diplom yazan tələbələrə rəhbərlik edirdim. İsmixandan elmi istiqaməti və hazırda nə iş gördüyü barədə soruşanda gülümsəyib "heç nə" dedi. Mən başa düşmədim, axı İsmixanı yaxşı tanıyıram, qabiliyyətinə və zəhmətkeşliyinə bələdəm, "heç nə" nə deməkdir? İsmixanın söhbəti bu istiqamətdə davam etdirməyə həvəsi olmadığını gördüm. Məlum oldu ki, yaxşı elmi mühitə düşməyib və maraqsız, solğun elmi işlə məşğul olmaq istəməyib. Hazırda ən hörmətli müəllimlərdən biridir, şikayəti də yoxdur.

Mən diplom yazan tələbələr üçün universitetdə funksional analiz üzrə elmi seminar təşkil etdim. Moskva Dövlət Universitetində hər kəsin – tələbənin, aspirantın, gənc və yaşlı alımların sevimli görüş yerinin, elmi yenilikləri öyrənmə məkanının, əldə edilmiş elmi nəticələri bölüşmə yerinin elmi seminarlar olduğunu görmüşdüm. Bu seminara tələbələrimlə yanaşı, elmi dərəcəsi olanlar və aspirantlar da gəlirdilər. İsmixan da bizə qoşuldu. Get-gedə o, seminarın ən fəal üzvünə çevrildi!

Mənim maraq dairəmdə olan riyazi sahələrdən biri Ədədi Oblast (Numerical Range) nəzəriyyəsi idi. Seminarda bu mövzu iki səbəbə görə xüsusi yer tuturdu: maraqlı idi və nisbətən qısa zamanda ortaya yaxşı məsələ çıxarmaq olurdu. Hilbert fəzasında təyin olunmuş xətti operatorların kvadratik forması, yəni (Ax,x) çoxluğu operatorların özü qədər mühüm və geniş yayılmış anlayış və araşdırma alətidir. Böyük alman riyaziyyatçı David Hilbert (1862-1943) analitik həndəsədəki kvadratik formalara bənzədərək sonsuz ölçülü kvadratik formaların diaqonal şəklə gətirilməsi (öz-özünə qoşma operatorların spektral ayrılışı) məsələsini həll etmiş (1904-1910), "spektral nəzəriyyə" sözünü daxil etmişdi. Kvant mexanikasının 1920-ci illərin ortalarından başlayan inkişafında spektral nəzəriyyə həlledici rol oynadı.

Kvadratik formanın vahid sfera üzərində qiymətləri çoxluğuna $\{(Ax, x): (x, x) = 1\}$ Ədədi Oblast deyilir və çox zaman W(A) ilə işarə edilir. Ədədi oblast qabarıq çoxluqdur və operatorun spektri və spektral xassələri ilə sıx bağlılığı var. G. Lumer adlı riyaziyyatçının icad etdiyi yarımdaxili hasil (semi-inner product) anlamı vasitəsilə Banax fəzalarında və daha sonra Banax cəbrlərində də Ədədi Oblast anlayışını daxil etmək və öyrənmək mümkün oldu. Bu məsələlər iki ingilis riyaziyyatçının 1971 və 1973-cü ildə nəşr etdirdikləri ikicildlik "F. F. Bonsall, J. Duncan. Numerical Ranges of Operators ob Normed Spaces and of Elements of Normed Algebras" monoqrafiyada geniş əksini tapdı. İsmixanla birlikdə bu monoqrafiyanı diqqətlə oxuduq. 1976-cı ilin son üç ayı İsmixan Moskva Dövlət Universitetinə, ixtisasartırma kursuna getdi. Oradan geri qayıdanda, 1977-ci ildə İsmixanın artan fəallığını görüb, onu "Ədədi Oblastlar" seminarının həmsədri elan etdim.



## STRATEJİ YENİLİK VƏ İSMİXANIN ALMAN DİLİ TƏCRÜBƏSİ

Bu arada (1976, avqust) İsmixanın həyatında böyük strateji yenilik baş verdi: İsmixan evləndi – yerlisi, özü kimi ağıllı, ləyaqətli və zəhmətkeş Ceyran xanımla. İsmixan əvvəllər bir müddət aspirant yataqxanasında yaşamışdı. Həyat yoldaşım Nailəxanımın təşəbbüsü ilə daha bir əlamətdar hadisə baş verdi: İsmixan və Ceyran kirayəçi olaraq bizim yanımızdakı, bizə bitişik mənzilə gəldilər; həm fiziki, həm ruhi mənada yaxın olduq, "nə yaxın qonşu olduq bu dünyada!". Bir qədər sonra isə yenə Nailəxanımın təşəbbüsü ilə İsmixan həyətdə boşalmış evi aldı (İsmixan və Ceyran bu gün də orada – oğlanları tərəfindən təmir olunmuş, yeniləşmiş o evdə yaşamaqdadırlar). Bərabər çalışmalarımız üçün daha uyğun məkan və zaman qazandıq. Tək riyaziyyyatı deyil, maraq doğuran hər kitabı, ya məqaləni birlikdə oxuyub təhlil etmək xoşumuza gəlirdi. Mirzə Əbdürrəhim Talıbovun "Səma elçisi" kitabını bərabər oxuduğumuz yadımdadır.

Bərabər konfransa da getdik. 1978-ci ildə Belorusiyanın paytaxtı Minsk şəhəri yaxınlığındakı "Beynəlxalq turist mərkəzi"ndə İsmixan, mən və Novosibiskdən gəlmiş Arif birlikdə konfransda iştirak etdik, gəzdik, dolandıq. Bir dəfə çəmənlikdə gəzərkən qarşımızda üç qızın danışa-danışa asta-asta addımladığını gördük. Almanca danışırdılar. Mənim dilim dinc durmadı: "İsmixan, sən alman dili bilirsən, amma necə bildiyini bilmirəm. Buyur alman dilində bu qızlarla danış, bizi tanış elə, nəticədə alman dilini necə bilməyin də məlum olacaq". Əslində mən zarafat edirdim, İsmixanın onlarla danışacağını gözləmirdim. İsmixan qızları səslədi, salam verdi, qızlar dayanıb bizə baxdılar. İsmixan gülə-gülə, ləzzətlə, əl-qol hərəkətləri ilə davam etdi, almanca əməlli-başlı danışırmış!

Məlum oldu ki, qızlar Almaniya Federativ Respublikasından gəliblər, "Beynəlxalq turist mərkəzi"ndə dincəlirlər. Arif qorxdu: "İsmixan, lazım deyil, başımıza iş açacaqsan". Mən ara-nı qızışdırdım: "İsmixan, əladır, qorxma, danış, danışmağa da ixtiyarımız yoxdumu, bir pis



iş görmürük ki?!" İsmixan bizi qızlara, qızları bizə təqdim etdi, mehriban qızlar idi. Qızların dediyinə görə, kafedə musiqili gecə tədbiri varmış, orada görüşək dedilər. Axşam onlarla görüşdük, rəqs etdik. Arada qəhvə içdiyimiz zaman iki adam bizə yaxınlaşıb, "bu qızlarla ehtiyatlı olun, məsləhət görmürük" dedilər. KQB (Dövlət təhlükəsizik komitəsi) adamları idi. Dövr belə idi. Arif lap qorxdu: "dedim aralı durun, bizi zibilə salacaqsınız". Mən əksini iddia etdim: "Nə olub ki?! Adi söhbət edirik, nə biz onlarla Almaniyaya gedəsiyik, nə onlar bizimlə burda qalasıdırlar". İsmixan da vecinə almır, danışır, gülür, almanca şeir deyirdi! İsmixan bizdən tez qayıtmalı oldu.

İsmixanın qızlarla vida söhbəti maraqlı idi, onlara nəsə yazdı verdi, yəqin ki, ünvanını da yazmışdı, qızlar İsmixanı yola salanda ağlamaq dərəcəsinə gəlmişdilər. Doğrudan da, sonra qızların üçü də ona məktub yazmışdılar. İsmixan da onlara yaxşı cavab yazmış, onlardan biri ilə bir müddət yazışmışdı. Əlbəttə, bu məsələdə söz İsmixanındır, o, daha ətraflı və daha dəqiq danışa bilər.

## ALİMLİK DƏRƏCƏLƏRİ VƏ DAĞILAN DÜNYA

1976-cı ildən başlayaraq mən doktorluq mövzum üzərində işləyirdim və Moskvaya uzun müddətli səfərlər edirdim. İsmixanla əlaqə kəsilmirdi, məktublaşırdıq, həmçinin, Moskvadan qayıdanda bir yerdə oturub çalışır, deyib-gülürdük. 1982-ci ildə doktorluq dissertasiyamı müdafiə üçün Moskvadakı V.A. Steklov Riyaziyyat İnstitutuna təqdim etdim, iş üç şöbədə müzakirə edildi. Payıza planlaşdırılmış müdafiə qışa keçirildi; nəhayət, müdafiə edib Bakıya qayıtdım. İsmixanla görüşü "off..."la başladım: "İsmixan, niyə müdafiə etməmisən, axı dissertasiya üçün kifayət edəcək işlər artıq 1978-79-cu illərdə görülmüşdü?!"

Nəhayət, İsmixan dissertasiyanı hazırladı. Növbəti görüşümüzdə ona xas olmayan bir qədər tutqun şəkildə mənə yaxınlaşdı, nəsə demək istəyirdi. Diqqətlə üzünə baxdım, bir neçə söz və əl ifadəsi ilə anlatdı – mənim adımı o biri adamla yanaşı elmi rəhbər yazmaq istəyirmiş, olmadı... Mən güldüm: "Ay İsmixan, əsas məsələ sənin müdafiə etməyindir, qalan heç nə vacib deyil. Necə deyirlərsə elə olsun, baş qoşma, formal şeylər bizə lazım deyil". Moskva Dövlət Universiteti professorlarından E. Qorinlə dost idim, İsmixan da Moskvada olanda onunla yaxınlıq etmişdi. Müdafiəyə Qorin də gəldi – opponent kimi. İsmixan haqq etdiyi alimlik dərəcəsini, axır ki, aldı!

Sonrakı dövrdə sıx əlaqələrimiz, söhbətlərimiz davam etdi. Mən Sovet Siyasi Bürosunun qərarı ilə ləğv edilmiş və Leninqrad Maliyyə və İqtisad Universitetinin Bakı filialı adı ilə yenidən qurulan ali məktəbdə riyaziyyat kafedrasının müdiri seçildim. İsmixan öz universitetində, öz kafedrasında işləməyə davam etdi. Yenə görüşür, söhbət edirdik. Sovetlərin dağılması prosesini İsmixanla bərabər izləyirdik, hətta bir arada siyasi fəallıq göstərmək, bəlkə bir partiya qurmaq belə ağlımızdan keçdi. Amma, o da, mən də siyasət adamı deyildik, bəzi siyasətçilərlə görüşüb söhbət etdikdən sonra... siyasətdən uzaq durmağı qərara aldıq.

Siyasət barədə yazıb-pozmaq mümkün işdir, bunu bacara bilirik – vəssalam. Elmin özü, elmi-

populyar ədəbiyyat, bədii ədəbiyyat, tarix, fəlsəfə... – bunları duymaq, anlamaq, bu barədə danışmaq, yazmaq daha gözəl deyilmi?! Mən "Milli azadlıq hərəkatı haqqında düşüncələr"i yazdım. İsmixan isə əsgərlik dostu latış İvarla yazışmada İvarın ona "özünüzü necə aparsanız yaxşıdır" deyə verdiyi məsləhətləri arasında "Yaxşısı budur ki, Qarabağı verin getsin" sözünü oxuyanda içindən yanmış, alovlanmış, İvara kəskin etirazını Qarabağ məsələsinin tarixi, siyasi, sosial və mənəvi kökləri barədə "Письмо другу" (Dosta məktub) adlı geniş bir yazı ilə bildirdi. Gərək ki, iki il sonra bu məsələyə yenidən qayıtmış (Письмо другу - Постскриптум), 1992-ci ilə qədərki dövrü də təhlilinə daxil etmişdi.

## "XƏZƏR"İN VƏ TÜRKİYƏNİN SORAĞINDA

Bu qarışıq dövrdə mən Xəzər Universitetini yaratmaq və onun ilk kövrək addımlarını möhkəmləndirməklə məşğul idim (1990-cı ilin payız aylarından başlayaraq). Bu işlə əlaqədar qısa və uzun müddətli, yaxına və uzağa səfərlər edirdim. İsmixan çox populyar müəllim kimi abituriyentləri imtahana hazırlamaqla dolanışını yoluna qoymağa çalışırdı. Narahat dövr idi, siyasi, iqtisadi, mənəvi aşınmalar göz qabağındaydı. Azərbaycanlı elm və sənət adamları, xüsusilə riyaziyyatçı və musiqiçilər qardaş Türkiyəyə üz tutur, bir tərəfdən öz həyatlarını tənzimləməyə çalışır, digər yandan oradakı ehtiyacı qarşılayırdılar. Bir qədər sonra, 1993-cü ildə İsmixan Türkiyəyə işləməyə getdi və biz bir müddət aralı düşdük, hərdənbir görüşsək, hal-əhval tuta bilsək də.

Bu yaxınlarda «"Xəzər"in Sorağında risaləsini oxuduqdan sonra paylaşmaq istədiyim incəliklər haqqında» adlı yazısında (*Xəzər Xəbər № 422, Noyabr 2022, səh. 56-67*) İsmixan aramızdakı yaxın və səmimi dostluqla yanaşı müəyyən səbəblər üzündən, xüsusən Türkiyəyə getməsinə görə bir-birimizdən aralı düşdüyümüzü xatırladıb mənim "Xəzər"in Sorağında kitabımı yenicə oxuduğunu və mənim o vaxtkı işlərimdən nədənsə xəbər tutmadığını yazmışdı: «bu ideyalardan, onların inkişaf dinamikasından heç xəbərim olmayıb və 30 il boyunca, ta bu günə qədər də olmadı. Bizim söhbətlərimiz əsasən riyaziyyat və şeir-sənət, oxuduğumuz kitablar, seyr etdiyimiz filmlər haqqında olardı... Kitabı oxuyandan sonra da bu gördüyünüz yazının yazılmasına qərar verdim. Çünki bu kitabın məni gəzdirdiyi "mağaralarda" mənim əvvəllər bilmədiyim, bilincə də gözümü, ağlımı və könlümü "oxşayan" çox incə şeylər tapdım özüm üçün». Doğrudan da, İsmixan könül oxşayan bir yazı yazmış, yaxşı bir proloqla başlamış, kitabı fəsil-fəsil gəzmiş, uyğun alıntılar seçmiş, gözəl izahedici qeydlər etmiş və yazısını Atatürklə bağlı maraqlı bir bənzətmə – epiloqla başa vurmuşdur.

İsmixan 19 illik Türkiyə dövründə (1993-2012) əvvəl məktəbdə, sonra 2000-ci ildən başlayaraq Kocaeli`dəki Sakarya Universitetində çalışdı, "Mühəndislik fakültəsi"ndə, "Kompüter mühəndisliyi" bölümündə, həmçinin digər bölümlərdə əsasən "xətti cəbr" və "kompleks dəyişənli funksiyalar nəzəriyyəsi və onun tətbiqləri" üzrə dərs dedi. İsmixan kimi geniş əhatəli, savadlı və ünsiyyətcil adam Türkiyədə – ləhcəsi, folkloru və mədəniyyəti bizə çox yaxın olan bu ölkədə, əlbəttə, təkcə dərs deməklə kifayətlənə bilməzdi. O, Türkiyədə müxtəlif mövzular üzrə cürbəcür toplantılarda, konfranslarda, universitetlərdə məruzələr etdi, cürbəcür elmi-populyar jurnallarda məqalələr dərc etdirdi, "Xətti cəbr" dərsliyini və bəzi başqa əsərlərini yazdı.

İsmixanın Türkiyədən evə dönməsi tək ailəsini deyil, bütün yaxınlarını və dostlarını sevindirdi. 2012-2014-cü illərdə Bakı Dövlət Universitetində işlədi, dərs dedi və özü demişkən, "bütün riyazi elmlərin dosenti" olan bu adam "daha işləmək istəmirəm" – deyə istefa etdi. Bunu eşidən kimi görüşdük, İsmixanın müəllimlikdən əl çəkdiyinə inana bilmirdim. Onu məmnuniyyətlə işə dəvət etdim – kefi istəyən uyğun bir işə. İsmixan mənəvi və fiziki cəhətdən yorulduğunu, daha işləmək istəmədiyini bildirdi.

İsmixanı yaxşı tanıyanlar onun təqaüd zamanı sakit, qapalı həyat keçirə biləcəyinə inanmazdılar. Doğrudan da, İsmixan bir müddət Bakı Dövlət Universitetində, sonra bir restoranda

elm adamı dostlarla həftədə bir dəfə görüşür, onlar müxtəlif məsələləri müzakirə edirdilər. Seminar adlandırdıqları bu məclislərə İsmixan liderlik edirdi. O, digər bir neçə dost qrupu ilə seminarsayağı görüşlərini davam etdirməkdədir. İsmixan dostlarını sevir, dostbaz deyil, amma dostpərəstdir. Əlbəttə, dostları da İsmixanı sevir, onunla görüşməyə, söhbət etməyə can atırlar.

## YAZILAN VƏ OXUNAN, ÖMRƏ NUR ÇİLƏYƏN KİTABLAR

İsmixan yaradıcılığı boyu cürbəcür kitablar yazmışdır – əksəriyyətini tək, bir neçəsini həmmüəlliflərlə. "Ədədi oblastlar" (Azərbaycan, rus və türk dillərində) kitabı elmi monoqrafiyadır. Ali məktəblər üçün dərslik və məşğələ, məsələ həlli ilə bağlı bir sıra kitablar yazmışdır (Məzahir Q. Pənahovla birlikdə): "Xətti cəbr", "Ehtimal nəzəriyyəsinin elementləri", "Kompleks dəyişənli funksiyalar nəzəriyyəsindən məsələ həllinə dair rəhbərlik və çalışmalar", "Riyazi fizikanın bəzi klassik məsələlərinin həll üsulları".

İsmixanın yaradıcılığında elmi-populyar ("Bilimsel Devrimin Baş Yapıtları", "Bilim ve Bilimsel Yöntem", "Anlatmanın əzabı, sevinci və kədəri", "Elm və metafizika haqqında monoloqlar"), sosial-siyasi polemika ("Dosta məktub", "Dosta məktub-Postskriptum") və uşaqlıqdan başlamış son dövrlərədək davam edən memuar tipli kitablar ("Mənim Poylu kəndim", "Mənim Atlantidam", "Cəlilabadnamə", "Atam və Biz, Siz, Onlar") üstünlük təşkil edir. Bunların bir hissəsi rusca yazılmış və əsgərlik dostları ilə yazışmalar üzərində qurulmuşdur ("Письмо другу", "Письмо другу – Постскриптум", "Моя армейская Одиссея и латышские друзья", "Возвращение Одиссея или путь в длиною 55 лет", "Реинкарнация прерванной дружбы" – Aqris Redoviç`lə birlikdə). İsmixan poeziyanı sevir, özü də şeir yazır ("Şeirim –həyatım mənim" adlı şeirlər kitabı var); dost və yaxınlara həsr etdiyi şeirlər də var, mənim "plan qurma ustalığı"nı da şeirə salıb.

İsmixanın "Ömrümə nur çiləyənlər" adlı sonuncu kitabı (*"Füyuzat", Bakı, 2025*) maraqlı ideya üzərində qurulub. Təhsili və peşəsi etibarilə oxuyub-yazmağa meyilli olan adamların həyatında oxuduqları kitablar mühüm rol oynayır. İsmixan kitab oxumaq ehtirasına, azarına, xəstəliyinə tutulan insanlardan biridir. O, əlifbanı öyrəndiyi günlərdən bu günə kimi kitab oxumaqla məşğuldur! "Hansı mövzuda kitablar?" deyə sual verə bilərsiniz. Cavab vermək çətindir. Bəlkə "hansı mövzuda kitab oxumayıb?" sualına daha asan cavab vermək olar. İsmixan hesab edir ki, oxuduğu kitablar onun ömrünə nur çiləyiblər. Bu kitab oxuduğu kitablar haqqındadır. Müəllif oxuduğu kitablar haqqında oxucuya məlumat vermək üçün bir təsnifat düzəltməli olub: Uşaq kitabları, heyvanlar aləmi haqqında, riyaziyyat və fizikaya aid kitablar, fəlsəfə, fantastika, ədəbi abidələr, alman dili və almanca yazılmış kitablar, Yaponiya, geniş söhbət açdığı İslam və Quran haqqında kitablar. Bu kitablar küllisində "sevgili", "sevdiyim", "çox sevdiklərim", "kitablar haqqında xatirələrim", "bir riyaziyyatçının dilindən", "düşündüklərim", "bəzi diletant mülahizələrim" kimi althissələr də var... "İsmixan Yusubovun öz kitabları" – təbii fəsil deyilmi?! Özündən başqa mütaliə etdiyi bəzi müəlliflərə də xüsusi yer-fəsillər ayırıb: Hamlet İsaxanlı, Şəhla Nihan, Rafiq Tağı, Rasim Qaraca, Corc Oruel (George Orwell)...

## ÜSLUB. SÖHBƏT VƏ YAZI

İnsanın xarakteri və düşüncə tərzi ilə onun həyat tərzi arasında, eləcə də insanın danışığı və davranışı ilə onun yazıları arasında bağlantı olduğu şübhəsizdir. İsmixanı tanıyanlar, onunla uzun zaman ünsiyyətdə olanlar yaxşı bilirlər ki, İsmixan dünyanın ən ünsiyyətcil, söhbətcil insanlarından biridir. İçəri daxil olduğu hər yerdə üz-üzə, göz-gözə gəldiyi adamın adını soruşar, əl verib salamlaşar, ona bir xoş söz deyər, adam da sayıldığı üçün ona minnətdar olar, ona qarşılıq vermək, xidmət göstərmək istər. Dost-yoldaşlarla söhbətdə əvvəl dediklərini təkrar etməkdən çəkinməz, eyni şeyi təkrar-təkrar danışa bilər, heç bir xırdalığı unutmaz, onları bir-bir

öz söz enerjisi ilə işıqlandırar. İsmixan sözü məzmunlu şəkildə uzatmaq ustalığına malikdir. Məzmunla yanaşı həzz ala-ala danışdığı üçün söhbəti xoşdur.

İsmixanın yazıları publisist-memuarist üslubundadır. Danışdığı kimi də qələm işlədir, təkrarlardan, xırdalıqlardan, ətraflı izahlardan, geniş alıntılardan çəkinmir. Söhbəti kimi yazıları və məktubları da, nə mövzuda olur-olsun, elmi-populyar məsələlərlə doludur; yəni lirik səciyyə daşıyan publisist-memuar mətni elmi kənaraçıxmalarla canlandırır. Müqayisə üçün deyə bilərəm ki, mən bir qədər fərqli üslubda yazıram – elmi səciyyə daşıyan məsələləri, elmi silloqizmi əsas götürüb mərkəzə yerləşdirib, eyni zamanda araya lirik kənaraçıxmalar qoyur, duz qatıram.

İsmixan detallaşdırma ustasıdır. Elə bir yazısı yoxdur ki, bir neçə postskriptumları (P.S.), ya epiloqu və ya appendiksi olmasın. Yəqin ki, elə bu səbəbdən İsmixan bir sıra yazılarını "Riyaziyyatçı alim, yazıçı-publisist" kimi imzalayır. Həyatda isə o, daha çox hikmət sahibi İsmixan müəllim kimi tanınır.

İsmixan sabitliyi sevir, bir yerdə bir neçə dəfə çay içmişiksə, növbəti görüş üçün "yenə ora gedək" deyir. Mən bir qədər dəyişkənlik istədiyim üçün hərdən yerimizi dəyişməyi təklif edəndə İsmixan tərəddüd edir, bir an düşünür, xətrimə dəyməmək üçün "yaxşı" deyir; o yer xoşuna gəlsə, oranı öz məqbul siyahısına daxil edir. Hara, hansı məkan, hansı zaman olur-olsun, görüşlərimizin canı söhbətdir. Bir dəfə ənənəvi qrupumuz – İsmixan, Fərhad, Xançoban və mən (bəzən Raqib və başqa yoldaşlar da iştirak edirlər) görüşəndə "sizi maraqlı bir yerə aparmaq istəyirəm" dedim. İsmixan həmən dilləndi: "nə yerdir o?" Mən "İçəri şəhərdə kiçik bir yerdir, yaxşı caz musiqisi olur, hər gün bir qrup çalır, oxuyur orda" dedim. Düzü, təklifimin həmən qəbul görəcəyini düşünürdüm. İsmixan dərhal, yenə hamıdan tez münasibət bildirdi: "Yox, yox, köhnə yerimizə gedək". Mən təəccübləndim: "İsmixan, niyə? Gedəcəyimiz yerin çayı da, qəhvəsi də, mühiti də yaxşıdır, yerindədir, üstəlik caza qulaq asmaq xoş deyilmi?" İsmixanın qısa, amma aydın cavabı etiraza yer qoymadı: "musiqi olan yerdə mən necə danışacam, necə söhbət edəcəyik?!"

## XATİRƏLƏR VƏ ... ÇANTA

İnsanın həyatında xatirələr böyük yer tutur. Yaşa dolduqca xatirələr çoxalır, həzinləşir, əzizləşir. İnsanın kimliyi xatirələrdən hörülür.

İsmixan uzun illər, az qala ömrü boyu gündəlik yazıb. İsmixan üçün o gündəliklər bir həyat salnaməsidir, ordan götürdüyü sözlər, ifadələr, hadisələr söhbətlərini, yazı və məktublarını bəzəyir. İsmixana görə xatirələr bizi, "aciz üçölçülü məxluqları möcüzəli şəkildə böyük zamanı-məkanı aşa bilən dördölçülü nəhənglərə çevirir". İnsanın biliyi də, xatirələri də onun beynində, yaddaşında yuva salır. İsmixan fövqəl yaddaşa malikdir, yarım əsr, daha əvvəl və ya sonra baş vermiş hadisələri elə dəqiqliklə, bütün incəlikləri, xırdalıqları ilə yada salır, danışır ki, qarşısındakı adam mat qalır.

Düşünən insana öz yaddaşı bəs etmir. Dünyanı anlamaq, duymaq, dünyadan zövq almaq üçün əsrlərin yaddaşına müraciət edir insan. Kitablardadır əsrlərin yaddaşı!

Bəzi şeyləri yanında daşımaq üçün insana iki əl yetmir, böyük ya kiçik çanta lazım gəlir. İsmixan kimi adamlar üçün çanta əsasən kitab daşımaq üçündür. Tələbə vaxtında Axundov kitabxanasında işləyən bir adamla tanış olubmuş, "kitab barədə nə sözün olsa, mən sənin qulluğundayam" deyibmiş həmin adam. İsmixan əlbəttə buna hədsiz sevinmişdi: "kitab lazım gələndə kitabxana önündəki telefon - avtomatdan xeyirxah tanışıma zəng edir və həmən özünü yetirən dostuma kitab siyahısı və bir çanta verirdim". Moskvada hərbi xidmətdə olanda xüsusi kitab çantası olmasa da, əsgərlikdən bir çanta, bir çamadan və bir yeşikdə böyük miqdarda kitab gətirib Bakıya. İndi Bakıdakı evində də, Poyludakı evində də kitabxanası var.

İsmixan son zamanlar görüşlərimizə kiçik bir çanta ilə gəlir. Bu çantanın içində adətən köhnə, antikvar kitab, dəftər, peçenye, konfet... olur. İsmixan köhnə mahnıların sözləri yazılmış,

köhnəlmiş kiçik kitabı çıxaranda, köhnə mahnıların vurğunu bir insan kimi, mən də çox sevindim. Mahnının sözlərinə baxıb avazla asta-asta oxumağa başladıq. Ətrafdakıları bir qədər təəccübləndirsək də, onların xoş, mehriban baxışları narahatlığa əsas olmadığını deyirdi. Çay içəndə isə İsmixan səliqə ilə çantasından peçenyeləri çıxarıb masanın üstünə düzür, aramızda bölür, hamıya – bərabər sayda. Bu çanta məsələsi elə xoşuma gəlmişdi ki, İsmixan haqqında "Çantalı adam" adlı yazı yazmaq istəyirdim. Hazırkı yazı daha geniş mövzuları əhatə etdiyi üçün ona başqa ad qoymalı oldum.

## AİLƏ! "İÇƏK KƏNDDƏKİLƏRİN SAĞLIĞINA!"

İsmixan Ağstafanın Poylu kəndindəndir; İsmixan anadan olanda Poylu Ağstafaya deyil, Qazaxa bağlı idi, amma nə fərq edər?! Hüseyn Hüseynzadə (Hüseyn Arif) demişkən, biz yerlibaz deyilik, Ağstafa ilə Qazax arasında fərq qoymuruq.

İsmixanın ilk müəllimi atası Məhəmməd kişi (1893-1990) olub. O, Böyük Vətən (2-ci Dünya) müharibəsində iştirak etmiş, vuruşmuş, yaralanmış, evə dönməli olmuşdu. İsmixandan böyük iki qardaşı ailəyə kömək etmək üçün oxumaqdan daha çox işləmiş, zəhmətkeş insan olmuşlar. Bir az yazıb-oxumaq bilən Məhəmməd kişi müharibə bitdikdən sonra anadan olan və fərasəti ilə seçilən balaca İsmixanı oxutmaq, savadlı görmək arzusu ilə yaşamış və imkanı daxilində bu istiqamətdə hərəkət etmişdir. Bu müdrik insan balaca İsmixana nağıllar söyləmiş, hərfləri və hecalamağı öyrətmiş, onu kitab oxumağa yönəltmişdir. İsmixan əlində olan bəzi kitabları, məsələn, "Koroğlu" dastanını və Sabirin "Hophopnamə"sini Məhəmməd kişi "oxu, mən də eşidim" deyə təkrarladarmış, yəqin qulaq asmaq marağı da varmış, İsmixanın necə oxuduğunu bilmək istəyi də. Kiçik yaşlarında İsmixana təsir edən ikinci şəxs, müəllimlərdən biri, gələcəyin tanınmış dilçi alimi Vaqif Aslanov olmuşdur. Eşitdiyimə görə, orta məktəbdə İsmixana "Lenin" deyirlərmiş – çox ağıllı, bilikli, fəal və fərasətli olduğuna görə!

Doğma kəndində, ata yurdunda ev tikdi İsmixan! O, kəndini çox sevir (Türkiyə türkcəsində "kəndini", yəni "özünü" deyil, doğulduğu kəndi), tez-tez kəndə gedir. İsmixan kənddə olanda bir dəstə adam onun görüşünə, söhbətini eşitməyə gəlir. Məni də yada salırlar, İsmixan zəng edib məni onlarla birləşdirir; birləşdirən də sağ olsun, hal-əhval tutanlar da! Yadıma düşür ki, tələbə vaxtından başlayaraq məclislərimizdə İsmixan ənənəvi tost deyərdi: içək kənddəkilərin sağlığına!



İsmixanın iki oğlu oldu: Araz və Seymur. O zaman gənc İsmixanı yeni ampluada – valideyn vəzifəsində gördük: ciddi, hər şeyə lazım gəldiyindən də artıq fikir verən, sevən, qayğıkeş, bəzən zəhmli... İsmixan uşaqları böyüdə-böyüdə onların qərbi də, şərqi də duymasını, bilməsini istədi. 132-ci məktəbə qoydu onları – ərəb təmayüllü məktəbə. Nəticədə, xüsusi halda, ata və iki oğul Quranı həm orijinalda, ərəbcə, həm də türkcə və rusca oxudular. Ata və iki oğul bir yerdə Quranı xətm etdilər! İsmixan özü də, demək olar ki, Quran mütəxəssisinə çevrildi, söhbət və yazılarında Quranın məzmun və strukturunu ciddi təhlil etməsi ilə seçildi.

İsmixan həm savad, həm insanlıq baxımından övladlarını çox gözəl tərbiyə etdi, böyütdü, yetişdirdi. Araz kompüter elmləri ilə məşğul olan elm adamıdır, ADA universitetində işləyir, Seymur

isə savadlı, hörmətli, populyar həkimdir. İsmixanın iki övladından dörd gözəl nəvəsi var – iki oğlan və iki qız.



Ceyran xanım İsmixanın həyat yoldaşı olmaqla kifayətlənmədi, həm də məsləkdaşı və həmkarı, ilk oxucusu və ilk tənqidçisi, dostu, anası və bacısı oldu. İsmixan evdə çay ətrafı (və ya xəngəl ətrafı) söhbətlərimizdə Ceyrana doğru çevrilib "düzdümü, Ceyran?"– deyə, onun rəyini, təsdiqini istər; bu, sevgi və hörmət əlamətidir. Bəzən Ceyran özü də söhbətlərimizə yüngülcə müdaxilə edir, bir əlavə edir və ya bir fikir bildirir. Ceyranın müdaxilələri İsmixana xoş gəlir - bu, onun üz ifadəsində və gözlərində asanlıqla oxunur.

**Qeyd.** İsmixan iki ildən çoxdur ki, Xəzər Universitetinin təsis etdiyi, baş redaktoru olduğum "Xəzər Xəbər" jurnalının redaksiya heyətinin üzvüdür və tövsiyələri, yazıları ilə jurnalı daha da maraqlı edir. Jurnalın bu il yanvar ayında keçirilən 30 illik yubileyində fəal iştirakı, səmimi çıxışı yadımızdadır. Yubiley münasibətilə jurnalın aprel nömrəsində dərc etdirdiyi "Xəzər Universitetinin sehirli güzgüsü və ya rəngli poliqlot televizoru" adlı məqaləsində jurnalı və əməkdaşlarını yüksək dəyərləndirir.

**Arzu edirəm ki, ailənin, dostların, tanışların, onu əhatə edən hər kəsin ehtiram bəslədiyi İsmixan Məhəmməd oğlu Yusubov, mənim əziz dostum, ətrafına işıq saça-saça uzun ömür sürsün, çox yaşasın, sağlam yaşasın, xoşbəxt yaşasın!**

**Yaşasın!**








30
Xəzər
XƏBƏR
Khazar








30
Xəzər
Xəbər

## PROF.AKAD. HAMLET İSAXANLININ "TARİXÇİLİKDƏ YALAN VƏ YANLIŞLAR NƏDƏN DOĞUR" ADLI MƏQALƏSİ "ÜÇÜNCÜ TÜRKÇÜLÜK ÇALIŞMALARI: TARİXİMİZ VƏ TARİXÇİLİYİMİZ" TOPLUSUNDA




2024-cü il dekabrın 3-də Xəzər Universitetində "*Üçüncü türkçülük çalışmaları: tariximiz və tarixçiliyimiz*" mövzusunda keçirilən konfransın materiallar toplusu nəşr olunub. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının "Tarixçilikdə yalan və yanlışlar nədən doğur" adlı məqaləsində tarixçilərin yanlış və yalan yazma səbəbləri barədə, araşdırma və tarixyazmada tarixçinin işinin nədən ibarət olduğu haqqında fikirlərini bölüşüb, müzakirə olunan məsələlərdən ətraflı məlumat almaq üçün ədəbiyyat siyahısı təqdim edib.

Toplu "Salman Mümtaz Yayınları" nəşriyyatında çap olunmuşdur.

## PROF.ACAD. HAMLET ISAKHANLI'S ARTICLE "WHY LIES AND ERRORS ARISE IN HISTORIOGRAPHY" PUBLISHED IN COLLECTION "THIRD TURKISM STUDIES: OUR HISTORY AND OUR HISTORIOGRAPHY"

The collection of materials from the conference "*Third Turkism Studies: Our History and Our Historiography*" held at Khazar University on December 3, 2024, has been published. In his article titled "Why lies and errors arise in historiography," Prof.Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, has shared his views on the reasons why historians write falsehoods and errors, what constitutes a historian's work in research and historiography, and has provided a bibliography for detailed information on the issues discussed. The collection has been published by "Salman Mumtaz Publications."

Füyuzat

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ *FÜYUZAT.AZ*- DA

## ARTICLE BY HEAD OF DEPARTMENT IS IN *FUYUZAT.AZ*

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri dos. Orxan Vəliyevin "Millətçilik və sərhəd" adlı məqaləsi 2025-ci il iyunun 4-də *Füyuzat.az*-da dərc edilmişdir.

Dos. Vəliyev məqaləsində qlobal köç və texnoloji inkişafın milli dövlətlərin sərhəd və suverenlik anlayışlarını sarsıtdığını, bunun isə öz növbəsində radikal millətçiliyin güclənməsinə və beynəlxalq siyasətdə sərt qərarların gündəmə gəlməsinə səbəb olduğunu qeyd edir. Məhz bu tendensiyaların akademik müstəvidə də sərhəd və millətçilik anlayışlarının yenidən müzakirəyə çıxarılmasına gətirib çıxardığı vurğulanır.

Məqaləyə keçid: *Millətçilik və sərhəd - Füyuzat Jurnalı*

An article by Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, titled "Nationalism and borders", has been published in *Fuyuzat.az*.

Assoc. Prof. Valiyev notes in his article that global migration and technological development have undermined the concepts of borders and sovereignty of nation states, which in turn has led to the strengthening of radical nationalism and the emergence of harsh decisions in international politics. It is emphasized that these trends have led to the re-discussion of the concepts of borders and nationalism at the academic level.

Link to the article: *Millətçilik və sərhəd - Füyuzat Jurnalı*

## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universiteti Psixologiya departamentinin müəllimi Kəmalə Əliyeva iyunun 12-13-də Londonda Prof. Sam Vakın təşkilatçılığı ilə Scienticseries group tərəfindən keçirilən 2-ci Beynəlxalq Psixologiya və Davranış Elmləri Konqresində "Autizm Spektr Pozuntusunda Emosiyaları Anlamaq və Empatiya Bacarıqlarını İnkişaf Etdirmək" mövzusunda çıxış etmişdir.

Mövzu ətrafında apardığı tədqiqat işi konqres iştirakçıları tərəfindən maraqla qarşılanmış, sahə üzrə aktuallığı və praktik əhəmiyyəti ilə fərqlənmişdir.

## PSYCHOLOGY DEPARTMENT FACULTY MEMBER AT INTERNATIONAL CONFERENCE

A faculty member of Khazar University's Psychology Department, Kamala Aliyeva, presented on the topic "Understanding Emotions and Developing Empathy Skills in Autism Spectrum Disorder" at the 2nd International Congress of Psychology and Behavioral Sciences held in London on June 12-13 with the organisation of Prof. Sam Vak by Scienticseries group.

Her research work on the topic was received with interest by congress participants and was distinguished by its relevance and practical significance in the field.

## AZƏRBAYCAN ƏDƏBİYYATI İXTİSASI ÜZRƏ MAGİSTRANT DİSSERTASİYASININ MÜDAFİƏSİ

İyunun 18-də Dillər və ədəbiyyatlar departamentinin "Azərbaycan ədəbiyyatı" ixtisası üzrə magistrantı Rəqsanə Süleymanovanın "Tənqidi metodologiyada üçlü yanaşma: professional tənqid, yazıçı və oxucu tənqidi (çağdaş Azərbaycan nəsri texnologiyası əsasında)" mövzusunda işlədiyi dissertasiyanın müdafiəsi keçirilmişdir.

AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu icraçı direktoru, Dos. Mehman Həsənlinin sədrliyi ilə keçirilən müdafiədə iddiaçını dinlədikdən sonra tədqiqat işinin elmi rəhbəri – AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, Prof. Bədirxan Əhmədov və Xəzər Universiteti "Dünya" məktəbinin kitabxana müdiri, rəyçi – filologiya üzrə fəlsəfə doktoru Mədinə Karahan çıxış etmişdir.

Müdafiə şurasının üzvləri Dos. Dilbər Zeynalova, Dos. Xatirə Yusifova, Dos. Ülvi Babasoy, Dr. Gülşanə Xudiyeva dünya və Azərbaycan ədəbiyyatşünaslığında ədəbi tənqid metodologiyasındakı son dövrlərin aktual problemlərindən olan peşəkar tənqid, yazıçı və oxucu tənqidinin sərhədləri ətrafında fikir mübadiləsi aparmışlar. Magistrantın elmi işi müsbət qiymətləndirilmişdir.

## DEFENSE OF MASTER'S THESIS IN AZERBAIJANI LITERATURE SPECIALTY

On June 18, the defense of the dissertation by Ragsana Suleymanova, a master's student in "Azerbaijani Literature" specialty at the Department of Languages and Literature, was held. Her dissertation topic was "Triple Approach in Critical Methodology: Professional Criticism, Writer and Reader Criticism (Based on Contemporary Azerbaijani Prose Technology)."

The defense was conducted under the chairmanship of Assoc.Prof. Mehman Həsənli, Acting Director of the Literature Institute named after N. Ganjavi of ANAS. After listening to the candidate, the scientific supervisor of the research work - Prof. Badirkhan Ahmedov, Doctor of Sciences in Philology, Head of the Azerbaijan-Asia Literary Relations Department of the Literature Institute named after N. Ganjavi of ANAS, and the reviewer - Medine Karahan, Doctor of Philosophy in Philology, Library Director of Khazar University "Dunya" School, made their presentations.

The members of the defense council - Assoc. Prof. Dilber Zeynalova, Assoc. Prof. Khatira Yusifova, Assoc. Prof. Ulvi Babasoy, and Dr. Gulshane Khudiyeva - engaged in discussions regarding the boundaries of professional criticism, writer and reader criticism, which are among the current problems of recent periods in literary criticism methodology in world and Azerbaijani literary. The master's student's scientific work was evaluated as satisfactory.




*Lyudmila Sotova* *Fatimə Vəliyeva*

# XƏZƏR UNİVERSİTETİ "QLOBAL DAYANIQLI İNKİŞAF KONQRESİ - 2025" TƏDBİRİNDƏ TƏMSİL OLUNUB

# KHAZAR UNIVERSITY REPRESENTED AT GLOBAL SUSTAINABLE DEVELOPMENT CONGRESS 2025

İyunun 16-19-da İstanbul şəhərində Konqres Mərkəzində "Times Higher Education" reytinq agentliyi tərəfindən təşkil edilən "Qlobal Dayanıqlı İnkişaf Konqresi"ndə Xəzər Universiteti Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva ilə təmsil olunub.

Konqresdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin rəhbərliyi ilə ölkənin 12 aparıcı ali təhsil müəssisəsindən ibarət 50 nəfərə yaxın nümayəndə heyəti iştirak edib.

Tədbirin proqramına panel və məlumat sessiyaları, eləcə də sərgi daxil idi. Sərgidə əməkdaşlar tərəfindən Xəzər Universitetinin fəaliyyəti, tədqiqat istiqamətləri, reytinqlər və əcnəbi tələbələrin qəbul prosesi, təqaüd imkanları haqqında məlumat verilib.. Bununla yanaşı, Xəzər Universitetinin əməkdaşları digər universitetlərin stendlərində olaraq, yeni əməkdaşlıqlar üçün danışıqlar aparıblar.

On June 16-19, Global Sustainable Development Congress 2025 was held by the Times Higher Education at the Istanbul Congress Center. Khazar University is represented by Lyudmila Sotova, Head of the Quality Assurance Center, and Fatima Valiyeva, Head of the International Affairs Office.

The congress features participation from a delegation of nearly 50 representatives from 12 leading higher education institutions of Azerbaijan, under the leadership of the Ministry of Science and Education of the Republic of Azerbaijan and the State Agency for Science and Higher Education.

The event program includes panel discussions, info sessions, and an exhibition. At the exhibition, Khazar University staff deliver information about the university's activities, research areas, rankings, international student admissions, and scholarship opportunities. Furthermore, Khazar University representatives visit other university booths and engaging in discussions to explore new cooperation opportunities.




# KİM-İN DİREKTOR MÜAVİNİ RESPUBLİKA SEMİNARINDA

# KIM DEPUTY DIRECTOR AT REPUBLIC SEMINAR

*Aytac Misgərli*

İyunun 11-də Bakı Dövlət Universitetində (BDU) "Rəqəmsal əsrdə universitet kitabxanaları: beynəlxalq resurslar və repozitoriyalar" mövzusunda seminar keçirilmişdir. Tədbir BDU-nun Elmi Kitabxanasının metodik fəaliyyəti və Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) illik hesabatına həsr olunmuşdur.

Seminarda Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktor müavini Aytac Misgərli də məruzə ilə çıxış etmişdir. O, Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin keçdiyi inkişaf yolu, elektron resursların tətbiqi, beynəlxalq əməkdaşlıq layihələri və xüsusilə də ali təhsil müəssisələrəində tədqiqat potensialının gücləndirilməsi məqsədi daşıyan institusional repozitoriyaların yaradılmasına yönəlmiş layihə çərçivəsində əldə olunmuş təcrübələr barədə geniş məlumat vermişdir. Respublika ali məktəb kitabxanalarının metodiki mərkəzi funksiyasını yerinə yetirən və eyni zamanda Az.KİK-ə rəhbərlik edən BDU Elmi Kitabxanasının təşəbbüsü ilə hər il təşkil olunan belə seminarda respublikanın müxtəlif regionlarında yerləşən ali təhsil müəssisələrinin və dövlət qurumlarının kitabxana rəhbərləri, mütəxəssislər iştirak edirlər.

On June 11, a seminar on "University Libraries in the Digital Age: International Resources and Repositories" was held at Baku State University (BSU). The event was dedicated to the methodological activities of BSU's Scientific Library and the annual report of the Azerbaijan Library Information Consortium (Az.LIC).

At the seminar, Aytac Misgarli, Deputy Director of the Khazar University Library Information Center (LIC), also delivered a presentation. She provided comprehensive information about the development path of Khazar University Library Information Center, the application of electronic resources, international cooperation projects, and particularly the experiences gained within the framework of projects aimed at creating institutional repositories designed to strengthen research potential in higher education institutions. Such seminars are organized annually on the initiative of BSU Scientific Library, which serves as the methodological center for republic higher education libraries and simultaneously leads Az.LIC. Library directors and specialists from higher education institutions and state organizations located in various regions of the republic participate in these seminars.

## XƏZƏR UNİVERSİTETİNİN DEKANI BEYNƏLXALQ ENERJİ AGENTLİYİNİN FORUMUNDA

## DEAN OF KHAZAR UNIVERSITY IN INTERNATIONAL ENERGY AGENCY FORUM

İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı Prof. İnqilab Əhmədov Beynəlxalq Enerji Agentliyinin iyunun 11-12-də Danimarkanın paytaxtı Kopenhagendə təşkil etdiyi "Təmiz Enerji Saxlama" üzrə Avropa Birliyi Enerji Forumunda iştirak etmişdir. Forumda Azərbaycan nümayəndə heyətinin tərkibində Energetika Nazirliyinin, Azərişıq SC-nin və Dövlət Statistika Komitəsinin təmsilçiləri də olublar.

Dean of the Graduate School of Economics and Business Professor Ingilab Ahmadov participated in the EU4Energy Forum on Clean Energy Storage, organized by the International Energy Agency (IEA) in Copenhagen, Denmark, on June 11-12. Representatives of the Ministry of Energy, Azerishig JSC, and the State Statistical Committee also participated in the Azerbaijani delegation to the forum.

# ÇİNİN DALİAN UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ



*Guo Shuhong*

İyunun 12-də Xəzər Universitetində Çinin Dalian Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüş Dalian Universitetinin Çin Araşdırmaları Mərkəzinin direktoru Prof. Guo Shuhong, İqtisadiyyat kafedrasının müdir müavini Dos. Chen Zhen və Dalian Texnologiya Universitetinin Marksizm İnstitutunun professoru Diao Xiuhua, Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, fakültə dekanları və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşlarının iştirakı ilə keçib.



*Chen Zhen*

Görüş zamanı Beynəlxalq laqələr şöbəsinin koordinatoru Seyran Əliyeva tərəfindən Xəzər Universiteti barədə, Prof. Guo Shuhong və Dos. Chen Zhen tərəfindən isə Dalian Universiteti barədə təqdimatlar nümayiş etdirilib.

Görüş çərçivəsində hər iki təhsil müəssisəsi arasında akademik əməkdaşlıq və əlaqələrin gücləndirilməsi müzakirə olunmuş, növbəti addımlarla bağlı fikir mübadiləsi aparılmışdır.

# DELEGATION FROM CHINA'S DALIAN UNIVERSITY AT "KHAZAR"

On June 12, a meeting was held at Khazar University with a delegation from China's Dalian University. The meeting was attended by Prof. Guo Shuhong, Director of the Center for Chinese Studies at Dalian University, Associate Prof. Chen Zhen, Deputy Head of the Economics Department, and Prof. Diao Xiuhua from the Institute of Marxism at Dalian University of Technology, along with Prof. Mahammad Nuriyev, Acting Rector of Khazar University, faculty deans, and staff members from the International Relations Department.

During the meeting, presentations about Khazar University were delivered by Seyran Aliyeva, Coordinator of the International Relations Department, while Prof. Guo Shuhong and Associate Prof. Chen Zhen presented information about Dalian University.



*Diao Xiuhua*

Within the framework of the meeting, academic cooperation and strengthening of relations between both educational institutions were discussed, and an exchange of views regarding next steps was conducted.

# İNSTİTUSİONAL REPOZİTORİYALARIN TƏKMİLLƏŞDİRİLMƏSİ MÖVZUSUNDA SEMİNAR



*Raziyə İsayeva*



# SEMINAR ON IMPROVEMENT OF INSTITUTIONAL REPOSITORIES

İyunun 20-də DIRNA layihəsi çərçivəsində İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva tərəfindən "Akademik heyətin dəstəyi vasitəsilə İnstitusional Repozitoriyaların təkmilləşdirilməsi" adlı seminar keçirildi.

Seminarda BDU Elmi kitabxanasının direktoru Nigar İsmayılova, şöbə müdiri Cəmilə Yusifova, biblioqraflar Sevinc Məmmədova və Şükufə Əliyeva çıxış etdilər.

Seminarda Xəzər Universitetinin əməkdaşları və tərəfdaş universitetlərin nümayəndələri iştirak edirdi. Tədbirdə İnstitusional Repozitoriyanın əhəmiyyəti, akademik heyətin universitetin İnstitusional Repozitoriyasının inkişafındakı əsas rolu, departamentlərarası birgə işlər, materialların repozitoriyada saxlanılması və keyfiyyətli tədqiqat işinin platformada toplanılması müzakirə olundu.

Sonda hər bir tərəfdaş universitetə öz İnstitusional Repozitoriyalarının təşviqi üçün fəaliyyət planını hazırlamaq tapşırıldı.

On June 20, within the framework of the DIRNA project, a seminar titled "Improvement of Institutional Repositories through Academic Staff Support" was conducted by Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management.

Nigar Ismayilova, director of BSU Scientific library; Jamila Yusifova, department head; bibliographers Sevinj Mammedova and Shukufe Aliyeva participated in the seminar.

The seminar discussed the importance of Institutional Repositories, the key role of academic staff in the development of the university's Institutional Repository, interdepartmental collaboration, storage of materials in the repository, and compilation of quality research work on the platform.

At the end, each partner university was assigned to prepare an action plan for promoting their Institutional Repositories.



*Sevinc Məmmədova - BDU, Elmi Kitabxanada böyük biblioqraf*



*Nigar İsmayılova - BDU, Elmi Kitabxananın direktoru*



*Cəmilə Yusifova - BDU, Elmi Kitabxanada şöbə müdiri*

## "ZEHNİN DƏRİNLİKLƏRİNƏ SƏYAHƏT: PSİXOLOGİYADA HİPNOZ" MÖVZUSUNDA TƏLİM



*Seda Kaşdaş*

İyunun 23-də Xəzər Universiteti Psixologiya departamentinin təşəbbüsü ilə Türkiyədən dəvət edilmiş "Mental" Psixologiya Mərkəzinin təsisçisi, psixoloq-konsultant və hipnoz təlimçisi Seda Kaşdaş tərəfindən universitetdə "Zehnin dərinliklərinə səyahət: psixologiyada hipnoz" mövzusunda təlim keçirildi.

Təlim tələbələr, müəllim heyəti və psixologiya sahəsinə maraq göstərənlərin iştirakı ilə baş tutdu. Təlimdə hipnozun psixoloji təsirləri, terapevtik yanaşmadakı rolu və insan şüurunun dərin qatlarına təsiri kimi mövzular müzakirə olundu.

Seda Kaşdaş hipnozun yalnız bir "təəssürat oyunu" olmadığını, əksinə, elmi və terapevtik əsaslara dayanan təsirli bir metod olduğunu vurğulayaraq, praktiki nümunələrlə yanaşı nəzəri məlumatları da iştirakçılarla paylaşdı. Təlim interaktiv şəkildə keçirilərək, iştirakçıların suallarına yer verildi, hipnoz prosesinin mərhələləri və təhlükəsiz şəkildə tətbiqi üsulları izah edildi.

Bu cür tədbirlərin tələbələrin elmi biliklərini genişləndirməklə yanaşı, gələcək psixoloji praktikalarında istifadə edə biləcəkləri bacarıqları inkişaf etdirdiyi vurğulandı.

## TRAINING ON "JOURNEY TO THE DEPTHS OF THE MIND: HYPNOSIS IN PSYCHOLOGY"




On June 23, a training session on "Journey to the Depths of the Mind: Hypnosis in Psychology" was conducted at the university by Seda Kaşdaş, founder of the "Mental" Psychology Center invited from Türkiye, psychologist-consultant and hypnosis trainer, at the initiative of Khazar University's Psychology Department.

The training was held with the participation of students, faculty members and those interested in the field of psychology. Topics such as the psychological effects of hypnosis, its role in therapeutic approaches and its impact on the deep layers of human consciousness were discussed during the training.

Seda Kaşdaş emphasized that hypnosis is not merely an "impression game" but rather an effective method based on scientific and therapeutic foundations, sharing theoretical information along with practical examples with the participants.

The training was conducted interactively, with participants' questions being addressed, and the stages of the hypnosis process and methods of safe application were explained. It was emphasized that such events not only expand students' scientific knowledge but also develop skills they can use in their future psychological practices.

# KONYA TEXNİKİ UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ



*Məhəmməd Nuriyev, Raziyə İsayeva, Fəxrəndə Əfəndiyeva, Günel Bahəddinova, Seyran Əliyeva, Kamil Gök, Osman Nuri Çelik*

# KONYA TECHNICAL UNIVERSITY DELEGATION VISITS KHAZAR UNIVERSITY

İyunun 23-də Xəzər Universitetində Türkiyənin Konya Texniki Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə Konya Texniki Universitetinin rektoru Osman Nuri Çelik, baş katib Kamil Gök, Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, Təbiət elmləri, sənət və texnologiya üzrə yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Seyran Əliyeva iştirak ediblər.

Görüş zamanı ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, birgə layihələrin hazırlanması, həmçinin tələbə-müəllim mübadiləsi kimi məsələlər istiqamətində müzakirələr aparılıb və görüşün sonunda Anlaşma Memorandumu imzalanıb.

On June 23, a meeting was held at Khazar University with a delegation from Türkiye's Konya Technical University.

The meeting was attended by Konya Technical University Rector Osman Nuri Çelik, Secretary General Kamil Gök, Khazar University Acting Rector Prof. Mahammad Nuriyev, Dean of the Graduate School of Natural Science, Art and Technology Dr. Gunel Bahaddinova, Dean of the School of Economics and Management Dr. Raziya Isayeva, Dean of the School of Science and Engineering Dr. Fakhranda Afandiyeva, and International Relations Department Coordinator Seyran Aliyeva.

During the meeting, discussions were held on developing bilateral relations, preparing joint projects, as well as student-faculty exchange programs, and a Memorandum of Understanding was signed at the end of the meeting.

# İQTİSADİYYAT VƏ BİZNES YÜKSƏK TƏHSİL FAKÜLTƏSİNDƏ MAGİSTR DİSSERTASİYALARININ MÜDAFİƏSİ



İyunun 24-də İqtisadiyyat və biznes yüksək təhsil fakültəsində magistr tələbələrinin dissertasiya işlərinin müdafiəsi keçirilmişdir. Fakültənin dekanı Prof. İnqilab Əhmədovun rəhbərliyi altında baş tutan müdafiə prosesinin nəticəsində 12 dissertasiya işi komissiya tərəfindən müsbət qiymətləndirilmişdir.

Müdafiə prosesi zamanı tələbələr öz tədqiqat işlərini təqdim etmiş, elmi-nəzəri bilikləri və praktiki bacarıqlarını nümayiş etdirmişlər. Hazırlanan dissertasiya işləri iqtisadiyyat və biznes sahələrində aktual mövzulara həsr olunmuş və müasir tələblərə cavab verən keyfiyyətli tədqiqat nümunələri kimi dəyərləndirilmişdir.





# DEFENSE OF MASTER'S DISSERTATIONS AT GRADUATE SCHOOL OF ECONOMICS AND BUSINESS



On June 24, the defense of dissertation works by master's students was held at the Graduate School of Economics and Business. As a result of the defense proceedings conducted under the leadership of the faculty dean Prof. Ingilab Ahmadov, 12 dissertation works were positively evaluated by the commission.

During the defense process, students presented their research works and demonstrated their scientific-theoretical knowledge and practical skills. The prepared dissertation works were devoted to current topics in the fields of economics and business and were evaluated as quality research examples that meet modern requirements.



# KÖNÜLLÜLÜK PROQRAMI ÇƏRÇİVƏSİNDƏ FƏRQLƏNMİŞ GƏNCLƏR MÜKAFATLANDIRILIB




Ellada Bəkirova



# YOUTH DISTINGUISHED WITHIN VOLUNTEER PROGRAM HAVE BEEN AWARDED

İyunun 25-də AMEA Arxeologiya və Antropologiya İnstitutunun Muzey sərgi zalında bələdçilik fəaliyyəti ilə bağlı könüllülük proqramına həsr olunmuş mükafatlandırma mərasimi keçirilib.

Tədbirin moderatoru - Arxeologiya və Antropologiya İnstitutunun elmi katibi Dos. Ellada Bəkirova bu elm ocağının yaratdığı könüllülük proqramında artıq 7 ali və 2 orta təhsil müəssisəsindən olan gənclərin iştirak etdiklərini söyləyib. Qeyd edib ki, bu, mövcud təşəbbüsün aktuallığının göstəricisidir. Proqram çərçivəsində gənclər institutun muzey sərgi zalında təcrübə keçib, müxtəlif elmi mövzular üzrə alimlərin elmi məruzələrini dinləyib, akademik təlimlərə, elmi-praktiki ustad dərslərinə cəlb ediliblər.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, Dos. Fərhad Quliyev çıxışında vurğulayıb ki, institut tərəfindən həyata keçirilən könüllülük proqramı bir tərəfdən gənclərin Azərbaycan tarixinə, ümumilikdə elmə olan marağının stimullaşdırılmasına, elmi biliklərinin artırılmasına, maariflənməsinə, peşə seçiminə istiqamətlənməsinə, digər tərəfdən onların sosiallaşmasına, kollektiv əmək təcrübəsinin artırılmasına yönəlib.

Xəzər Universiteti İctimai əlaqələr və media üzrə rəhbəri Əlövsət Əmirbəyli çıxışında arxeologiya və antropologiya elmlərinin xalqımızın tarixinin öyrənilməsində önəmindən söz açıb.

Könüllülük proqramının rəhbəri, AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri Orxan Zamanov könüllülük proqramı çərçivəsində

On June 25, an award ceremony dedicated to the volunteer program related to guide activities was held at the Museum Exhibition Hall of the Institute of Archaeology and Anthropology of ANAS.

The moderator of the event - Associate Professor Ellada Bakirova, Scientific Secretary of the Institute of Archaeology and Anthropology, stated that youth from 7 higher education institutions and 2 secondary education institutions are already participating in the volunteer program created by this scientific institution. She noted that this is an indicator of the relevance of the existing initiative. Within the program, youth have gained experience in the institute's museum exhibition hall, listened to scientific presentations by scholars on various scientific topics, and have been involved in academic trainings and scientific-practical master classes.

In his speech, Assoc. Prof. Farhad Guliyev, Director of the Institute of Archaeology and Anthropology of ANAS, emphasized that the volunteer program implemented by the institute is aimed on one hand at stimulating young people's interest in Azerbaijan's history and science in general, increasing their scientific knowledge, enlightenment, and career guidance, and on the other hand at their socialization and increasing their collective work experience.

Alovsat Amirbayli, Head of Public Relations and Media at KU, spoke in his address about the importance of archaeology and anthropology sciences in studying the history of our people.



*Fərhad Quliyev*



*Əlövsət Əmirbəyli*

görülmüş işlərdən, könüllülərin qatıldığı elmi seminarlardan, elmi tədqiqatlarla bağlı təcrübə mübadiləsindən, keçirilmiş ictimai tədbirlərdən danışıb. O, könüllülər qarşısında duran yeni fəaliyyət istiqamətlərinə də toxunub. Çıxışlardan sonra proqram çərçivəsində son dörd ay ərzində, yəni, proqramın yaz dövrü üzrə könüllülərin iştirakçısı olduqları tədbirlərlə bağlı videoçarx nümayiş olunub.

Daha sonra Fərhad Quliyev "Könüllülük təcrübəsi proqramının yaz dövrü" üzrə iştirakçısı olan Bakı Dövlət Universitetini, Xəzər Universitetini, Azərbaycan Dillər Universitetini, Azərbaycan Rəssamlıq Akademiyasını, Azərbaycan Turizm və Menecment Universitetini, Sumqayıt Dövlət Universitetini, Azərbaycan İlahiyyat İnstitutunu, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyini və 193 saylı orta məktəbi təmsil edən gənclərə sertifikat və hədiyyələr təqdim etdi. Fəaliyyəti ilə xüsusi fərqlənmiş könüllülər - Könül İbrahimli, Zalikə Bəybalayeva (Xəzər Universiteti), Gülnarə Əsədullayeva (Azərbaycan İlahiyyat İnstitutu), Nəzrin Vəliyeva (Bakı Dövlət Universiteti), Mələk Kərimova (Sumqayıt Dövlət Universiteti) diplomlarla mükafatlandırılıb.

Orkhan Zamanov, Head of Department at the Institute of Archaeology and Anthropology of ANAS and leader of the volunteer program, spoke about the work carried out within the volunteer program, scientific seminars attended by volunteers, experience exchange related to scientific research, and public events held. He also touched upon new activity directions facing volunteers.



*Orxan Zamanov*

After the speeches, a video reel was shown regarding events in which volunteers participated during the last four months, namely during the spring period of the program.

Subsequently, Farhad Guliyev presented certificates and gifts to young people representing Baku State University, Khazar University, Azerbaijan University of Languages, Azerbaijan Academy of Arts, Azerbaijan Tourism and Management University, Sumgait State University, Azerbaijan Institute of Theology, Türkiye Diyanet Foundation Baku Turkish Lyceum, and secondary school No. 193, who participated in the "Spring period of the volunteer experience program." Volunteers who distinguished themselves with their activities - Konul Ibrahimli, Zalikha Baybalayeva (Khazar University), Gulnara Asadullayeva (Azerbaijan Institute of Theology), Nazrin Valiyeva (Baku State University), Malek Karimova (Sumgait State University) - were awarded diplomas. *Sia.az* and other websites covered the event.

# DİSTANT VƏ HİBRİD TƏHSİL MÖVZUSUNDA BEYNƏLXALQ VEBİNAR

Xəzər Universitetinin Beynəlxalq və Qlobal Ali Təhsil üzrə Tədqiqat Mərkəzi iyunun 25-də distant və hibrid təhsil mövzusunda beynəlxalq vebinar təşkil etdi, alimləri və administratorları distant və hibrid təhsil modelləri vasitəsilə ali təhsilin transformasiyasını araşdırmaq üçün bir araya gətirdi.

Əsas məruzəçi Akdeniz Universitetindən (Türkiyə, Təhsil fakültəsi) Dr. Mustafa Caner idi. Dr. Çaner "Ali təhsildə distant və hibrid təhsil modelləri: keyfiyyətin təmin edilməsi və artırılması" başlıqlı əhatəli təqdimatında COVID-19 pandemiyasının davamlı təsirlərindən danışaraq qeyd etdi ki, bu pandemiya universitetlərdə distant və hibrid təhsilin əsas axına qəbul edilməsini sürətləndirdi. O, bu transformasiyanın yalnız texnoloji infrastruktur deyil, eyni zamanda pedaqoji innovasiya və institusional öhdəlik tələb etdiyini vurğuladı.

Onlayn və hibrid şəraitdə keyfiyyətin qorunması və yaxşılaşdırılması yolunda bir neçə vəzifə müəyyən edildi: Pedaqoji yeni dizayn və kurrikular uyğunluq; Rəqəmsal bərabərlik və əlçatanlıq; Tələbə cəlb edilməsi və icma quruculuğu; Modallıqlar arasında qiymətləndirmə dürüstlüyü; Müəllim hazırlığı və institusional potensial.

Dr. Caner rəqəmsal ali təhsildə keyfiyyətin qurulması və saxlanılması üçün yeddi istiqamətli yanaşma təqdim etdi: Dərs dizaynı və nəticə uyğunlaşması; Müəllimin pedaqoji inkişafı; Tələbə cəlb edilməsi; Həqiqi və etibarlı qiymətləndirmə; Güclü tələbə dəstək xidmətləri; Davamlı monitorinq, rəy və təkmilləşdirmə; Strateji institusional investisiya və idarəetmə.

Təqdimat siyasət və praktika tövsiyələri toplusu ilə başa çatdı: Keyfiyyət təminatını kurs dizaynına daxil etmək; Qiymətləndirmə praktikalarını rəqəmsal mühitlərə uyğunlaşdırmaq; Müəllim inkişafına investisiyanı artırmaq; Əlçatanlıq və mədəni həssaslığı təmin etmək; İnstitusional idarəetməni təhsil nəticələri ilə uyğunlaşdırmaq.Dr. Caner çıxışını güclü bir ideya ilə yekunlaşdırdı: "Pandemiyadan sonrakı dövr bərpa deyil, yenidənqurma tələb edir. Biz köhnə normalara qayıtmırıq - ali təhsili çevik, əhatəli və dayanıqlı olmaq üçün yenidən qururuq."

Vebinar Azərbaycan, Mərkəzi Asiya, Türkiyə və Avropa üzrə akademik peşəkarları cəlb etdi. Fəallıq göstərən iştirakçılar Dr. Canerin təqdimatının aktuallığını və dərinliyini vurğuladılar.

# INTERNATIONAL WEBINAR ON DISTANCE AND HYBRID EDUCATION

The Research Center for International and Global Higher Education at Khazar University organized an international webinar on distance and hybrid education on June 25 bringing together scholars and administrators to explore the transformation of higher education through distance and hybrid education models.

The keynote speaker was Dr. Mustafa Caner from Akdeniz University (Türkiye, Faculty of Education). In his comprehensive presentation titled "Distance and Hybrid Education Models in Higher Education: Quality Assurance and Enhancement," he discussed the lasting impacts of the COVID-19 pandemic, noting that this pandemic accelerated the mainstream adoption of distance and hybrid education in universities. He emphasized that this transformation requires not only technological infrastructure but also pedagogical innovation and institutional commitment.

Several tasks were identified for maintaining and improving quality in online and hybrid settings: Pedagogical redesign and curricular alignment; Digital equity and accessibility; Student engagement and community building; Assessment integrity across modalities; Faculty preparation and institutional capacity.

Dr. Caner presented a seven-directional approach for establishing and maintaining quality in digital higher education: Course design and outcome alignment; Faculty pedagogical development; Student engagement; Authentic and reliable assessment; Strong student support services; Continuous monitoring, feedback and improvement; Strategic institutional investment and management.

The presentation concluded with a set of policy and practice recommendations: Integrating quality assurance into course design; Adapting assessment practices to digital environments; Increasing investment in faculty development; Ensuring accessibility and cultural sensitivity; Aligning institutional management with educational outcomes.

Dr. Caner concluded his speech with a powerful idea: "The post-pandemic period requires not restoration, but reconstruction. We are not returning to old norms - we are rebuilding higher education to be flexible, inclusive and sustainable."

The webinar attracted academic professionals from Azerbaijan, Central Asia, Türkiye and Europe. Active participants emphasized the relevance and depth of Dr. Caner's presentation.

## DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ TÜRK DÜNYASI YAY MƏKTƏBİNDƏ

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev iyunun 23-27-də İbn Haldun Universiteti və Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı və Türk Dünyasının müxtəlif universitetlərinin tərəfdaşlığı ilə keçirilmiş İkinci Beynəlxalq Türk Dünyası Yay Məktəbində mühazirəçi qismində iştirak etmişdir. Bu il yay məktəbi "Yüksələn Türk Dünyası" mövzusuna həsr olunmuşdur.

## DEPARTMENT HEAD AT INTERNATIONAL TURKIC WORLD SUMMER SCHOOL

The Head of the Department of Political Science and Philosophy at Khazar University, Associate Professor Orkhan Valiyev, participated as a lecturer in the Second International Turkic World Summer School held from June 23-27, organized by Ibn Haldun University and the Heydar Aliyev Center for Eurasian Studies, in partnership with the Organization of Turkic States and various universities of the Turkic World. This year's summer school was dedicated to the theme "Rising Turkic World."



*Atilla Arkan, Orxan Vəliyev*

Yay məktəbinin növbəti dörd günü ərzində müxtəlif mövzularda mühazirələr, interaktiv müzakirələr və kitab təqdimatları keçirilmişdir. İkinci dəfə yay məktəbinə dəvət alan Orxan Vəliyev "Türk Dövlətləri Təşkilatı və Birlik Axtarışı" mövzusunda mühazirə ilə çıxış etmişdir. O, çıxışında təşkilatın ortaq mədəniyyət və kimliyin formalaşmasındakı roluna diqqət çəkmiş, ortaq kimliyin inşası üçün hər bir üzv dövlətin əvvəlcə öz daxilində milli kimlik quruculuğunu tamamlamalı olduğunu bildirmişdir. Mühazirədə üzv dövlətlərin milli kimliklərini uğurla formalaşdırdıqdan sonra ortaq Türk (Turkic) kimliyinin və mədəniyyətinin qurulmasının mümkünlüyü önə çəkilmişdir.

Yay məktəbi iyunun 27-də mühazirəçilər və iştirakçılara sertifikatların təqdim olunması ilə yekunlaşmışdır.

During the following four days of the summer school, lectures on various topics, interactive discussions, and book presentations were held. Orkhan Valiyev, invited to the summer school for the second time, delivered a lecture on "Organization of Turkic States and the Search for Unity." In his presentation, he emphasized the organization's role in forming common culture and identity, stating that for the construction of common identity, each member state must first complete national identity building within itself. The lecture highlighted the possibility of building a common Turkic identity and culture after member states successfully form their national identities.

The summer school concluded on June 27 with the presentation of certificates to lecturers and participants.

***https://www.ihu.edu.tr/tr/yukselen-turk-dunyasi-temali-turk-dunyasi-yaz-okulu-basladi***

## ERASMUS TƏLƏBƏ ŞƏBƏKƏSİNİN BEYNƏLXALQ İDARƏ HEYƏTİ "XƏZƏR"DƏ



*Fəridə Vəliyeva, Jalə Məmmədova, Seyran Əliyeva, Kaja Kaczkiello, Leonor Alcaçarenho, Alisa Nazirzadə, Kənan Ağazadə*

## ERASMUS STUDENT NETWORK INTERNATIONAL BOARD AT KHAZAR UNIVERSITY

İyunun 23-də Xəzər Universitetində Erasmus Tələbə Şəbəkəsinin (ETŞ - Erasmus Student Network -ESN) Beynəlxalq İdarə Heyəti ilə görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Seyran Əliyeva və Jalə Məmmədova, "Erasmus Tələbə Şəbəkəsi (ETŞ) – Azərbaycan" İctimai Birliyinin Milli idarə heyətinin üzvü Fəridə Vəliyeva, ESN Beynəlxalq idarə heyətinin üzvü və İdarəetmə məsələləri üzrə vitse-prezident Kaja Kaczkiello, Cənub-Şərqi Avropa (SEEP) regionu üzrə Üzvlük komitəsinin rəhbəri Leonor Alcaçarenho, ESN Xəzər Təşəbbüskar qrupunun prezidenti Alisa Nazirzadə və Tədbirlərin təşkili üzrə koordinator Kənan Ağazadə iştirak ediblər.

Görüşdə Xəzər Universiteti ilə Erasmus Tələbə Şəbəkəsi arasında gələcək əməkdaşlıq imkanları, ESN Xəzərin fəaliyyəti, həyata keçirilən layihələr və gələcək planlar müzakirə olunub.

On June 23, a meeting was held at Khazar University with the International Board of the Erasmus Student Network (ESN).

The meeting was attended by Khazar University's International Relations Department staff members Seyran Aliyeva and Jale Mammadova, National Board member of the "Erasmus Student Network (ESN) – Azerbaijan" Public Union Faride Valiyeva, ESN International Board member and Vice-President for Organizational Affairs Kaja Kaczkiello, Head of the Membership Committee for the South-Eastern Europe Platform (SEEP) region Leonor Alcaçarenho, President of ESN Khazar Initiative Group Alisa Nazirzade, and Events Coordinator Kenan Agazade.

During the meeting, future cooperation opportunities between Khazar University and the Erasmus Student Network, ESN Khazar's activities, ongoing projects, and future plans were discussed.

## MEMARLIQ VƏ DİZAYN DEPARTAMENTİ MÜDİRİNİN QAZİ UNİVERSİTETİNƏ İŞGÜZAR SƏFƏRİ

İyunun 23-27-də Xəzər Universiteti Memarlıq və dizayn departamentinin müdiri Dos. Şəhla Abbasova Erasmus+ proqramı çərçivəsində Qazi Universitetinə (Türkiyə) işgüzar səfər etmişdir.

Səfər zamanı Dos. Şəhla Abbasova Qazi Universitetinin Memarlıq fakültəsinin Memarlıq bölməsinin əməkdaşları Prof. Dr. Pınar Dinç Kalaycı, Doç. Dr. Ammar İbrahimgil, Doç. Prof. Dr. A. Yağmur Topraklı və Dekan yardımcısı Prof. Dr. Zeynep Aslı Gürel ilə görüşmüşdür. Görüşlərdə Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin fəaliyyəti və müvafiq ixtisasları barədə ətraflı məlumat verilmiş, həmçinin Xəzər Universiteti adından Qazi Universitetinin Memarlıq fakultəsinə - Dekan yardımcısı. Zeynep Aslı Gürele hədiyyə təqdim etmişdir. İşgüzar səfər çərçivəsində Şəhla Abbasova Pınar Dinç Kalaycı ilə birgə Memarlıq fakültəsinin tələbələrinin praktik tapşırıq və layihələrini nəzərdən keçirmiş, həmçinin Qazi Universitetinin kampuslarına ekskursiyada iştirak etmişdir. İyunun 23-də Pınar Dinç Kalaycının rəhbərliyi ilə memarlıq bölümünün müəllimləri və magistratura tələbələri üçün Şəhla Abbasovanın təqdimatında seminar təşkil olunmuşdur. Seminarda Şəhla Abbasova "Tələbə əli, yaradıcılıq gücü" mövzusunda tədris və layihə yönümlü məruzə ilə çıxış etmiş, mövzu ilə bağlı müəllim və tələbələrin suallarını cavablandırmışdır. Seminarın əsas məqsədi Xəzər Universitetinin Memarlıq və dizayn departamentində "Memarlıq", "Dizayn" və "Təsviri incəsənət müəllimliyi" ixtisaslarında tədris zamanı praktik tapşırıqlar və tələbələrlə birgə həyata keçirilən layihələr barədə geniş məlumat vermək olmuşdur. Səfərin sonunda Şəhla Abbasovaya Xəzər Universitetini təmsil etdiyi üçün sertifikat təqdim edilmişdir.



*Şəhla Abbasova, Zeynep Aslı Gürele*

## HEAD OF ARCHITECTURE AND DESIGN DEPARTMENT'S BUSINESS VISIT TO GAZI UNIVERSITY

From June 23-27, Associate Professor Shahla Abbasova, Head of the Architecture and Design Department at Khazar University, made a business visit to Gazi University (Türkiye) within the framework of the Erasmus+ program.

During the visit, Associate Professor Shahla Abbasova met with staff members of the Architecture Division of the Faculty of Architecture at Gazi University: Prof. Dr. Pınar Dinç Kalaycı, Assoc. Dr. Ammar İbrahimgil, Assoc. Prof. Dr. A. Yağmur Topraklı, and Vice Dean Prof. Dr. Zeynep Aslı Gürel. During the meetings, detailed information was provided about the activities and relevant specializations of Khazar University's Architecture and Design Department, and a gift was presented on behalf of Khazar University to the Faculty of Architecture at Gazi University - to Vice Dean Prof. Dr. Zeynep Aslı Gürel. Within the framework of the business visit, Shahla Abbasova, together with Pınar Dinç Kalaycı, reviewed the practical assignments and projects of the Faculty of Architecture students, and also participated in tours of Gazi University's campuses. On June 23, under the leadership of Pınar Dinç Kalaycı, a seminar was organized featuring Shahla Abbasova's presentation for faculty members and graduate students of the architecture department. During the seminar, Shahla Abbasova delivered a lecture on "Student Hands, Creative Power" focusing on teaching and project-oriented approaches, and answered questions from faculty members and students related to the topic. The main purpose of the seminar was to provide comprehensive information about practical assignments and projects implemented together with students during instruction in the "Architecture," "Design," and "Fine Arts Teaching" specializations at Khazar University's Architecture and Design Department. At the end of the visit, Shahla Abbasova was presented with a certificate for representing Khazar University.




## DEPARTAMENT MÜDİRİ MONQOLUSTANDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu 30 iyun -1 iyul tarixində Monqolustanın tarixi şəhəri Karakurumda keçirilən beynəlxalq konfransda iştirak edərək, "Tarix boyunca Azərbaycan milli kimliyinin formalaşmasında qonar-köçər boyların rolu" mövzusunda məruzə etmişdir. Departament müdiri konfrans çərçivəsində Monqolustanın keçmiş prezidenti, Karakurum şəhərinin yenidən bərpa layihəsinin də rəhbəri, şəhərin valisi N.Enkhbayar`la da görüşərək, müzakirələr aparıb.

N.Enkhbayar çıxışında Monqolustan dövlətinin Moğol-Türk tarixi memarlıq irsini dərindən öyrənərək, Karakurumu onun əsasında yenidən inşa etməyə başlayacağını bildirib. Məscid, kilsə və buddist məbədi yan-yana olan, Hun, Göktürk, Çingiz Xan imperiyasının mirasının qorunduğu, tarixi bazarın, küçələrin, yolların olduğu Karakurum…

## DEPARTMENT HEAD AT INTERNATIONAL CONFERENCE HELD IN MONGOLIA

The Head of the History and Archaeology Department at Khazar University, Associate Professor Telman Nusratoglu, participated in an international conference held in Karakorum, the historic city of Mongolia, on June 30 - July 1, and delivered a presentation on the topic "The Role of Nomadic Tribes in the Formation of Azerbaijani National Identity Throughout History." Within the framework of the conference, the department head also met with N. Enkhbayar, the former president of Mongolia, head of the Karakorum city restoration project, and governor of the city, and held discussions.

In his remarks, N. Enkhbayar stated that the Mongolian state would begin reconstructing Karakorum based on a thorough study of the Mongol-Turkic historical architectural heritage. Karakorum, where mosques, churches and Buddhist temples stand side by side, where the legacy of the Hun, Gokturk, and Genghis Khan empires is preserved, with its

Departament müdiri işğaldan azad edildikdən sonra Laçın, Şuşa başda olmaqla Qarabağda əslinə uyğunlaşdırılan, tarixi kimliyi qorunan quruculuq prosesindən də bəhs edərək, bu prosesin Karakurum üçün də örnək ola biləcəyini bildirib. Tarixçi alim səfər çərçivəsində Ötükən vadisində yerləşən Orxun abidələrinin ən mühümü olan Bilgə Xaqan və KülTigin abidələrini, tarixi Karabalasaqun bölgəsini də ziyarət edərək, incələmələr aparmışdır.




*Nambaryn Enkhbayar, Telman Nüsrətoğlu*

historic bazaar, streets, and roads...

The department head also spoke about the construction process in Karabakh, particularly in Lachin and Shusha, which has been adapted to its original form and preserved its historical identity after liberation from occupation, noting that this process could serve as an example for Karakorum as well. During the trip, the scholar-historian also visited and conducted research at the Bilge Khagan and Kul Tigin monuments, which are among the most important of the Orkhon inscriptions located in the Otuken valley, as well as the historic Karabalasagun region.



# MEMARLIQ VƏ DİZAYN DEPARTAMENTİNİN "XƏZƏRİN LƏPƏLƏRİ" ADLI SƏRGİSİ

# "PEARLS OF THE CASPIAN" EXHIBITION BY DEPARTMENT OF ARCHITECTURE AND DESIGN

İyulun 1-də Xəzər Universitetinin Memarlıq və dizayn departamenti Memarlıq, Dizayn və Təsviri incəsənət müəllimliyi ixtisasları tələbələrinin 2024-2025-ci tədris ilində yerinə yetirdikləri dərs tapşırıqlarının və fərdi işlərinin sərgisi keçirildi.

Sərginin açılışında universitetin təsisçisi, Direktor və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Memarlıq və dizayn departamentinin müdiri Dos. Şəhla Abbasova çıxış etdilər.

Sərgidə tələbələrin ekodizayn layihələri, ekosəmərəli, təkrar istehsala uyğun və məişət tullantılarından hazırlanan "kollaj" kompozisiyaları, "Yaşıl Dünya" mövzusunda reklam plakatları, keramika məhsulları, memarlıq layihələri və maketlər, loqo və brendinqlər, rəsmlər, moda kollajları, yeni dizayn olunan ayaqqabılar yer aldı.

Sərginin diqqətçəkən hissələrindən biri də "Məhsul dizaynı" fənni çərçivəsində həyata keçirilən "Dəstək dizaynı" xeyriyyə layihəsi oldu. Fiziki məhdudiyyətli şəxslər üçün tələbələr tərəfindən dizayn edilən xüsusi mebellər "Greenwood" şirkətinin rəhbəri Fuad Nəcəfovun təşəbbüsü ilə istehsal olunaraq, Azərbaycan Respublikası Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimliyə və Xəzər Universitetinin fiziki məhdudiyyətli tələbəsinə hədiyyə edildi. Memarlıq

(Ardı səh.74-də)



*Şəhla Abbasova*



On July 1, the Department of Architecture and Design of Khazar University held an exhibition of course assignments and individual works completed by students of Architecture, Design, and Fine Arts Teaching specializations during the 2024-2025 academic year.

At the opening of the exhibition, the university's founder, Director and Chairman of the Board of Trustees Prof. Acad. Hamlet Isakhanli and Head of the Department of Architecture and Design Assoc. Prof. Shahla Abbasova delivered speeches.

The exhibition featured students' eco-design projects, eco-efficient collage compositions made from recyclable and household waste materials, advertising posters on the theme "Green World," ceramic products, architectural projects and models, logos and branding, paintings, fashion collages, and newly designed shoes.

One of the notable sections of the exhibition was the "Support Design" charity project implemented within the framework of the "Product Design" course. Special furniture designed by students for persons with physical disabilities was produced on the initiative of Fuad Najafov, head of "Greenwood" company, and presented as gifts to Davud Rahimli, Chairman of the Union of Disability Organizations of the Republic of Azerbaijan, and to a physically

(*To be continued page 74*)



*Hamlet İsaxanlı*



və dizayn departamenti tərəfindən Fuad Nəcəfova təşəkkürnamə, sərgidə fəal iştirak edən tələbələrə isə sertifikatlar təqdim olundu.

Bakı Mühəndislər Universitetinin professor və müəllim heyəti, ABAD qurumunun Dekorativ-tətbiqi xalq sənətkarlığı departamentinin müdiri Qəmər Qafarova həmin departamentin baş layihə meneceri Məryəm Hümbətova sərgiyə dəvət olunmuşdular.

Bu tədbir tələbələrin yaradıcı potensialını və peşəkar inkişafını nümayiş etdirməklə yanaşı, onların sosial məsuliyyətli layihələrə olan marağını da ortaya qoydu.

Sərgiyə müəllimlər, tələbələr, sənətsevərlər və əməkdaşlıq edən təşkilatların nümayəndələri böyük maraq göstərdilər.



Davud Rəhimli




Fuad Nəcəfov

disabled student of Khazar University. The Department of Architecture and Design presented a certificate of appreciation to Fuad Najafov, while certificates were awarded to students who actively participated in the exhibition.

The faculty and teaching staff of Baku University of Engineering, Director of the Department of Decorative-Applied Folk Arts of the ABAD organization Qamar Qafarova, and Chief Project Manager of the same department Maryam Humbatova were invited to the exhibition.

This event not only showcased the creative potential and professional development of students but also demonstrated their interest in socially responsible projects. The exhibition attracted great interest from teachers, students, art enthusiasts, and representatives of collaborating organizations.

## "XƏZƏR"İN PİANOÇU ƏMƏKDAŞI QADINLAR FORUMUNUN İŞTİRAKÇILARI ÜÇÜN TƏŞKİL EDİLMİŞ KONSERTDƏ

## KHAZAR UNIVERSITY'S PIANIST STAFF MEMBER PERFORMS AT CONCERT ORGANIZED FOR WOMEN'S FORUM PARTICIPANTS

İyulun 2-də Laçın şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) Həftəsi çərçivəsində ilk dəfə olaraq ECO-nun Qadınlar Forumu təşkil edilib.Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, ECO-nun Baş katibinin müavini Silapberdi Nurberdiyev, BMT Baş katibinin müavini, təşkilatın Dayanıqlı İnkişaf Qrupunun sədri Amina Mohammed, BMT-nin Baş katibinin müavini, təşkilatın Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının İcraçı katibi Armida Salsiah Alisjahbana və digərləri çıxış ediblər.

Açılış gününün sonunda Azərbaycan incəsənət ustalarının konsertində Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqova solo proqramla çıxış etmişdir.

On July 2, the first-ever ECO Women's Forum was organized in Lachin city within the framework of the Economic Cooperation Organization (ECO) Week. The event featured speeches by Bahar Muradova, Chairperson of the State Committee on Family, Women and Children Issues, Silapberdi Nurberdiyev, Deputy Secretary-General of ECO, Amina Mohammed, UN Deputy Secretary-General and Chair of the UN Sustainable Development Group, Armida Salsiah Alisjahbana, UN Deputy Secretary-General and Executive Secretary of the UN Economic and Social Commission for Asia and the Pacific, and others.

At the end of the opening day, during a concert by Azerbaijani art masters, Zulfiyya Sadiqova, Director of the Music and Arts Department at Khazar University, honored teacher, and renowned pianist, performed with a solo program.

# ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI
# NEXT MEETING OF ACADEMIC COUNCIL

İyulun 4-də Xəzər Universitetinin Elmi Şurasının növbəti iclası keçirilmişdir. İclasa universitetin rektor vəzifəsini icra edən professor Məhəmməd Nuriyev sədrlik etmiş və gündəlikdə yer alan məsələləri Şura üzvlərinin diqqətinə çatdırmışdır.

İclasın əvvəlində təşkilati məsələlər müzakirəyə çıxarılmışdır. Bildirilmişdir ki, 01 iyul 2025-ci il tarixindən etibarən Xəzər Universitetində bir sıra yeni təyinatlar həyata keçirilmişdir. Humanitar, təhsil və sosial elmlər fakültəsinə filologiya üzrə fəlsəfə doktoru Milana Abbasova dekan təyin olunmuşdur. Eyni zamanda, universitetin tərkibində yeni Hasvet baytarlıq təbabəti fakültəsi yaradılmış və Çiçək Əliyeva dekan vəzifəsini icra edən şəxs kimi təyin edilmişdir. Elmi Şura üzvləri hər iki əməkdaşı təbrik etmiş və onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra iclasın gündəliyində yer alan digər məsələlərin müzakirəsinə keçilmişdir. Gündəliyin ikinci məsələsi çərçivəsində universitetin məzun olmuş bakalavriatura və magistratura üzrə tələbələri barədə məlumatlar təqdim olunmuşdur. Tələbələrin akademik göstəriciləri, ixtisasları və müvafiq statistik göstəriciləri haqqında məlumatları Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Raziyə İsayeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Milana Abbasova, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov təqdim etmişdir. Məzunların siyahısı Elmi Şura üzvləri tərəfindən təsdiq olunub.

Gündəliyin üçüncü məsələsi fəlsəfə doktorluğu proqramı üzrə qəbul imtahanlarının proqramlarının təsdiqinə həsr olunmuşdur. Bu barədə Elmi Şuranın katibi Günel Bahəddinova məlumat vermişdir. Bildirilmişdir ki, 2025-ci il üzrə fəlsəfə doktorluğu səviyyəsində 10 ixtisas üzrə qəbul imtahanları üçün proqramlar hazırlanmışdır.

Qeyd olunmuşdur ki, hər bir proqram üzrə daxili və xarici ekspert rəyləri əldə edilmişdir. Proqramlarla tanış olan Elmi Şura üzvləri müvafiq qərarla onları təsdiqləmişdir.

İclasın sonunda cari məsələlər – məzunluq tədbirinin təşkili, 2025/2026-cı tədris ili üçün dərs yükünün bölüşdürülməsi və digər təşkilati məsələlər müzakirə olunmuşdur.

The next meeting of Khazar University's Academic Council was held on July 4, 2025. The meeting was chaired by Professor Mahammad Nuriyev, Acting Rector of the university, who brought the agenda items to the attention of the Council members.

At the beginning of the meeting, organizational matters were discussed. It was announced that a number of new appointments had been made at Khazar University effective July 1, 2025. Doctor of Philosophy in Philology Milana Abbasova has been appointed as Dean of the School of Humanities, Education and Social Sciences. At the same time, a new Faculty of Hasvet Veterinary Medicine has been established within the university structure, and Chichek Aliyeva has been appointed as Acting Dean. The Academic Council members congratulated both colleagues and wished them success in their future activities.

Subsequently, the discussion proceeded to other matters on the meeting agenda. Within the framework of the second agenda item, information was presented about the university's graduating undergraduate and graduate students. Information about students' academic performance, specializations and relevant statistical indicators was presented by Fakhranda Afandiyeva, Dean of the School of Science and Engineering; Raziya Isayeva, Dean of the School of Economics and Management; Milana Abbasova, Dean of the School of Humanities, Education and Social Sciences; Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology; and Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business. The list of graduates was approved by the Academic Council members.

The third agenda item was dedicated to the approval of examination programs for the Doctor of Philosophy program. Academic Council Secretary Gunel Bahaddinova provided information on this matter. It was announced that examination programs for 10 specializations at the Doctor of Philosophy level have been prepared for 2025.

It was noted that internal and external expert reviews have been obtained for each program. The Academic Council members, having familiarized themselves with the programs, approved them with the appropriate decision. At the end of the meeting, current issues were discussed – organization of graduation ceremonies, distribution of course loads for the 2025/2026 academic year, and other organizational matters.

## MUSİQİ VƏ İNCƏSƏNƏT DEPARTAMENTİNİN HESABAT KONSERTİ VƏ SƏRGİSİ

Xəzər Universitetinin Mərmər salonunda iyulun 4-də Musiqi və incəsənət departamenti tərəfindən birinci kurs tələbələrinin ənənəvi hesabat konserti və sərgisi təqdim olunmuşdur. Departamentin müəllimləri – Məhsəti Azaflı (vokal, xor), Səbinə İsmayılova (rəqs) və Vəfa Əlizadənin (xalçaçı rəssamlıq) tədris ili ərzində yetişdirdikləri tələbələr öz bacarıqlarını nümayiş etdirmişlər.



*Zülfiyyə Sadıqova*

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, dekanlar və departament müdirləri, əməkdaşlar və tələbələr iştirak etmişlər. İştirakçılar tədbirdən əvvəl sərgi ilə tanış olmuşlar.

Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova tədbiri açaraq, tələbələrin fəaliyyəti barədə məlumat vermişdir. Məhsəti Azaflının dirijorluğu ilə tələbələrdən ibarət xorun çıxışı ilə başlanan konsertdə Üzeyir Hacıbəyli, Fikrət Əmirov və digər Azərbaycan bəstəkarlarının əsərləri ifa edilmiş, rəqslər nümayiş olunmuşdur.

Həm xor kollektivinin, həm rəqs qruplarının, həm də vokalçıların ifaları geniş proqramı və müxtəlifliyi ilə diqqəti cəlb etmişdir.

## REPORT CONCERT AND EXHIBITION BY MUSIC AND FINE ARTS DEPARTMENT

On July 4, the Music and Fine Arts Department presented the traditional report concert and exhibition of first-year students in the Marble Hall of Khazar University. Students trained during the academic year by the department's faculty members – Mahsati Azafli (vocal, choir), Sabina Ismayilova (dance), and Vafa Alizade (carpet painting) – demonstrated their skills.

The event was attended by the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli, deans and department heads, staff, and students. Participants familiarized themselves with the exhibition before the event.



The head of the Music and Fine Arts Department, honored teacher and pianist Zulfiyya Sadiqova opened the event and provided information about the students' activities. The concert began with a performance by a student choir under the direction of Mahsati Azafli, featuring works by Uzeyir Hajibayli, Fikrat Amirov, and other Azerbaijani composers, and dance performances were presented.

The performances of both the choir collective, dance groups, and vocalists attracted attention with their extensive program and diversity.







# MAKRONUN OĞURLANMIŞ HEYKƏLİ MUZEYƏ QAYTARILIB



"Greenpeace" fəalları tərəfindən oğurlanmış Fransa prezidenti Emmanuel Makronun heykəli Parisdəki "Greven" mum fiqurlar muzeyinə qaytarılıb.

"Təsdiq edirəm ki, biz bu personajı geri ala bildik. O, öz yerinə qaytarılacaq", - deyə o bildirib.

Onun sözlərinə görə, fəallar muzeyin direktoruna zəng edərək, heykəli Parisdəki EDF enerji şirkətinin binasının qarşısında qoyduqlarını bildiriblər. Bundan sonra muzey polisilə əlaqə saxlayıb, polis isə eksponatı komissarlığa aparıb, oradan da muzeyin əməkdaşları onun vəziyyətini qiymətləndirdikdən sonra götürüblər.

Monmartrda yerləşən muzeyi turist adı ilə ziyarət edən iki qadın və bir kişi, dəyəri 40 min avro olan Makronun mum heykəlini götürərək, Parisdəki Rusiya səfirliyinin binasına gətiriblər. Pozucular Greenpeace aktivistləri çıxıb, onlar Fransa və Rusiya arasında iqtisadi əməkdaşlığa qarşıdırlar.

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu
Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.
Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.
İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.
Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).
Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.
Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

**Xəzər Universiteti**

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq
- Biotexnologiya
- İnformasiya təhlükəsizliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi